Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

əsərləri



# Xanımana Əlibəyli

## 2

"AVRASİYA PRESS"
BAKI-2008

Tərtib edəni: **Gülər Abdullabəyli**

**894.3611-dc22**
**AZE**
**Xanımana Əlibəyli. Əsərləri.** İki cilddə. II cild. Bakı, "Avrasiya press", 2008, 240 səh.

Uşaq ədəbiyyatımızın görkəmli nümayəndəsi, Respublikanın əməkdar incəsənət xadimi, iki dəfə dövlət mükafatı laureatı, 1998-ci ilin qadını, 1999-cu ildən Prezident təqaüdçüsü Xanımana Əlibəylinin "Əsərləri"nin bu cildinə onun uşaq dünyasına məxsus yaşantıları obrazlı formada əks etdirən pyesləri daxil edilmişdir. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən çap edilən bu kitab onun əsərlərinin mükəmməl nəşri sayıla bilər.

**ISBN 978-9952-442-03-8**

© "AVRASİYA PRESS", 2008



# PYESLƏR



## DOVŞANIN AD GÜNÜ

*İki hissəli pyes*

İŞTİRAK EDİRLƏR:

Dovşan
Kirpi
Alabaş
Çəpiş
Quzu
Qaranquş
Tülkü
Canavar

## BİRİNCİ HİSSƏ

Səhərdir. Yaşıl bir meşədə quşların cəh-cəh səsi eşidilir. Meşədəki köhnə palıd budağından Qaranquşun şən səsi ucalır: "Cvi, cvi, cvi, cvi, Dovşanın ad günüdür" Kirpi bunu eşidib tez talaya gəlir və Qaranquşdan soruşur ki, "Nə olmuşdur?" O, Dovşanın ad günü olduğunu ona xəbər verir.

Hamı

Həəə...
Dovşanın ad günüdür,
Onun ən şad günüdür?
Dovşanın düz beş yaşı
Bu gün tamam olacaq.
Bütün dostu, yoldaşı,
Evlərinə dolacaq.

Kirpi

(*salondakı uşaqlara müraciət edərək*)

Uşaqlar! Çox xoş gəlmisiniz,
Dovşanın ad gününə siz.

Gəlin evinə gedək,
Dovşanı təbrik edək.
Dostu daha çox olsun,
Qəlbi sevinclə dolsun.

Q u z u

(*səhnəyə çıxır*)

Qonşusuyuq, birinci
Biz onu alqışlayaq.
Gəlin lalə və inci,
Gülləri bağışlayaq.
Mən gül dərim bir dəstə,
Olmasın heç bir kəsdə.
Məəə, məəə...

K i r p i

Gülü görüb şad olar.

Ç ə p i ş

Eh, gül axşamacan solar.
Əyər bilsəz məsləhət,
Üzüm dərək bir səbət.
Quzu ilə çaparaq
Evlərinə aparaq.

(*Dostlar başları ilə razılıq verirlər. Çəpiş üzünü Kirpiyə tutub soruşur*)

Bəs sənin hədiyyən nədir?
Yəqin o da meyvədir.

K i r p i

Sizə demərəm hələ.

Ç ə p i ş

Qorxursan düşər ələ?
Məə... məə...

Q u z u

Çəpiş bir ağız mələ,
Bəlkə insafa gələ.

(*Çəpiş aramsız ucadan mələməyə başlayır. Quzu Çəpişə acıqlanır və Kirpinin başına fırlanıb soruşur, Çəpişə isə "Səsini kəs!" deyir*)

De də, bu nə oldu bəs?!

Ç ə p i ş

(*öz-özünə*)

Əlbət şirindir dadı,
Görəsən nədir adı?

K i r p i

(*Çəpişə*)

Bax, hədiyyəm meyvədir,
Özü də ki, girdədir.
Qabığ onu bürüyür,
Nə solur, nə çürüyür.

Q u z u

Qırmızıdır, ya bozdur?

Ç ə p i ş

(*sevincək*)

Tapdım! Fındıq və qozdur.

K i r p i

Düzdür, fındıq və qozdur.
Dovşanın işi çoxdur,
Onun köməyi yoxdur.
Hədiyyələrlə gedək,
Dovşana kömək edək.

Onlar Dovşanın evinə sarı baxa-baxa oynayır və oxuyurlar.

D o s t l a r ı n   m a h n ı s ı :

Dovşana bax, dovşana,
Bu gün nə tez oyandı.
O, hoppana-hopana
Pəncərədə dayandı.

N ə q a r ə t :

Hopp-hopp-hoppana,
Dovşana bax, dovşana.
Açılıb pəncərəsi
Bağ-bağçaya taybatay.
Qaranquşun şən səsi,
Salıb aləmə haray.

N ə q a r ə t :

Dovşanın ad günüdür,
Onun ən şad günüdür.

K i r p i

Meşədə çox meyvə var,
Alma, heyva, qaysı, nar.
Çəpiş bura gəl hələ -
Almaları silkələ.
Onları kisə-kisə
Daşıyarsız məclisə.

Sonra dostlar Qaranquşa qulaq asa-asa onu izləyirlər. Kənarda bu mahnıya qulaq asan T ü l k ü qəzəblənərək öz-özünə deyir.

T ü l k ü

Səhərdən düşmüşəm əldən, ayaqdan,
Dovşanı güdürəm çöldə bayaqdan.
Evinin ətrafında fırlanıram,
Od tutub atəş kimi mən yanıram.
İstədim ad günündən dövlətlənim,
Mal toplayım, yeyim, içim, ətlənim.

Ad gününə çağırmadı o, deməк,
Hayıf! Getdi əldən mal, dövlət, yemək.
Onu xilas etməyim çıxdı heçə,
Canavarla üz-göz oldum mən becə.
Çoxlu planlarım vardı sabaha,
Ömrümdə varlana bilmərəm daha.

(*Bu zaman uzaqdan Quzunun, Kirpinin və quşların səsini eşidən Tülkü təəssüflə*)

Kirpi ki, bir yerdə girişdi işə,
Hiylələrim heçə çıxır həmişə.
Görəndə, az qalır dərimi soysun,
İnanmıram məni məclisə qoysun.
Qorxuram ki, onu bərk hirsləndirəm,
Necə olsa, gərək məclisə girəm!

Tülkü qolunda zənbil, əzilə-əzilə talaya gələrkən Kirpi ilə rastlaşır.

Kirpi

Hara gedirsən belə?
Sığal vurmusan telə...

Tülkü

(*nazla*)

Dovşanın ad günüdür,
Onun ən şad günüdür.
Ot yığmışam zənbilə,
Gedirəm Dovşangilə.
Dünən gördüm Dovşanı,
Nə yeyirdi yovşanı...
Bildim gəlir xoşuna.

Kirpi

(*acıqlı*)

Danışma boş-boşuna!
Həyatın gedər bada.
Nə işin var orada?
Dost-aşnası ad gününə dolacaq.

T ü l k ü

(*yaltaqlanaraq*)

Görəsən məclisdə kimlər olacaq?

K i r p i

Çəpiş, Quzu, Dələ, dostu Alabaş,
Şadlıq edəcəklər bir dəstə yoldaş.

T ü l k ü

(*inamla*)

Bəs dostu Tülkü necə?

K i r p i

Danışma bec-becə!

(*Tülkü bu sözdən sonra, küsüb gedir. Kirpi yavaşdan dostlarına*)

Yəqin bir hiyləsi var,
İş açacaq fitnəkar.
Yenə gedir kefi saz,
Onu buraxmaq olmaz!
Gəlin birləşək biz də,
Kələk quraq Tülküyə.
Əl çalaraq qorxudaq,
Qoymayaq Dovşangilə.

Q u z u

(*Tülkünü səsləyir*)

Hirsi tutar Çəpişin,
O saat bitər işin.
Dağıdar göyü, yeri,
A Tülkü, qayıt geri!
Məə... məə...

Ç ə p i ş

(*Tülkünü qaytararaq hirslə ona*)

Hara gedirsən, a veyil!

T ü l k ü

(*saymazyana*)

O sənin borcun deyil,
Sən get öz yerində dur.
Ad günü olan, odur
Bura baxır eyvandan

(*Dovşanı göstərir*)

Aparım yesin yovşan,
Səsləyim zənbili alsın.

K i r p i

(*acıqlı*)

Hədiyyən qoy sənə qalsın!
Orda yoxdur işin sənin,
Bizə batmaz dişin sənin.

Ç ə p i ş

(*Kirpiyə*)

Qanım qaraldı sübh çağı,
Qaytarım geri yaltağı!
Məə... məə...

T ü l k ü saymazyana yırğalana-yırğalana gedir.

K i r p i

(*qəzəblə*)

Görürsən o arsızı....
Tükləri qıpqırmızı.
Dönübdür çuğundura,
Demirəm qayıt bura!

T ü l k ü

(*Quzuya yaxınlaşıb tüklərinə əl vurur və Çəpişə müraciətlə*)

Tükləri burma-burma...

K i r p i

Keç, onlara əl vurma!
Çəkil, ölümün çatar!

T ü l k ü

(*Kirpiyə*)

İynən canıma batar.

K i r p i

Gəl Dovşangilə getmə,
Bizə yamanlıq etmə!
Niyyətin çıxar boşa.

T ü l k ü

(*əzilə-əzilə Kirpiyə yaltaqlanaraq*)

Oynarıq qoşa-qoşa,
Durna kimi süzərəm.

Tülkü rəqs edə-edə Dovşangilə yollanır.

K i r p i

(*acıqlı Tülkünün ardınca qaçaraq*)

Quyruğunu üzərəm!

T ü l k ü

(*istehza ilə*)

Tüklərin oxdur sənin,
Dostların çoxdur sənin.
Biz səninlə qohumuq,
Xəbərin yoxdur sənin.

(*Kirpinin ayağına ilişir*)

K i r p i

Keç, ilişmə ayağa,
Get özünü qoy lağa.

Dovşanın birdir sözü,
Dünən günorta özü
Mənə dedi bizə gəl!

T ü l k ü
(*Kirpi onu itələyib qovarkən qışqırır*)

Kirpi, mənə vurma əl!
Ox kimi batdın mənə,
Bəsdir söz atdın mənə.
Bax, Dovşana deyərəm,
Onunla can-ciyərəm.

Ç ə p i ş

Bizim Dovşan sadədir,
O bilmir fikrin nədir.

K i r p i

A Tülkü, sən bizdən qorun,
Çürükdür qurduğun torun.

T ü l k ü
(*bir qədər acıqlı*)

Çox atılıb-düşməyin siz,
Yaxın dostuq Dovşanla biz.
Dünən lap çatmışdı sonu,
Qurd ağzından aldım onu.
Ac qarına Canavar,
Az qaldı onu yesin.
Çəpiştək şahidim var,
İnanmırsız, qoy desin.
Biz qaçanda dərədən,
O baxırdı bərədən.

K i r p i

Həmişə acdır gözün,
Xilas etdin ki, özün
Aşırasan Dovşanı.

Q u z u

Tülküdə insaf hanı?

K i r p i

Qırmızı quyruğun şələ,
Yellənir yol gələ-gələ,
Arxadan süpürür yeri.

Ç ə p i ş

(*Tülküyə*)

Eşitmirsən qayıt geri!

T ü l k ü

Sənin ad günündür məgər?

Ç ə p i ş

Getsən başın daşa dəyər!

T ü l k ü

Hamınıza olsun ayıb,
Dovşan məni hər il sayıb
Ad gününə çağırır.

(*Tülkü üzünü uşaqlara tutub*)

Bunlar niyə bağırır?
Məni tanımırsız hələ,
Salaram sizi əngələ.
Ad gününə gedərəm,
Mən sizi məhv edərəm.

Tülkü Dovşanın dostlarını aldatmaq məqsədilə gedir. Bir azdan yavaşca geri qayıdıb gizlənir.

Ç ə p i ş

(*yoldaşlarına*)

Tülkünü gəl dindirməyək,
Boynumuza mindirməyək.

K i r p i

Düz deyirsiz, o yaltaqdan,
Hamının zəhləsi gedir.
Çərənləyir o, bayaqdan,
Dovşangilə səsi gedir.
İndi Dovşan bura qaçar,
Başımıza bəla açar.
Gəlib aparar Tülkünü
O, özünün ad gününə.
Qara gələr ömrü, günü,
Qırğın düşər şad gününə.

Q u z u

O nə bilsin hiyləgərdir,
Soyğunçuluq fikri vardır
Bizim Dovşan çox sadədir,
O bilməyir savaş nədir.
Məə... məə...

Ç ə p i ş

Heç tanımır dost-düşməni,
Gəlib işə salar məni.

Q u z u

O çox sadə bir uşaqdır,
Onun qəlbi çox yumşaqdır.

(*Onlar Tülkünün üstünə yüyürürlər*)

T ü l k ü

(*bir kötüyün dalında kənara çəkilərək*)

Siz bir ağacsınız, mən bir ildırım,
Gərək hamınızı bu gecə qırım.

K i r p i

Biz başında şimşək kimi çaxarıq,
Kim kimi məhv edər, sonra baxarıq.

T ü l k ü

Dayanın sizinlə varam,
Canınızı çıxararam.

K i r p i

(*əli ilə dostlarına işarə edir ki, onun ardınca gəlsinlər və onlara*)

Tülkünün kəsək səsini,
Sonra soyaq dərisini.

T ü l k ü

(*kötüyün dibindən sıçrayıb, acıqlı bir halda*)

Eybi yoxdur, siz siz olun,
Birləşib məclisə dolun.
Mən olum quyruğu şələ,
Görərik kim keçər ələ!

Tülkü qaçır. Dovşanın dostları qaçan Tülkünün dalınca baxaraq, əl çalıb bərkdən gülürlər.

P ə r d ə

## İKİNCİ ŞƏKİL

Meşənin qalın bir yerindən C a n a v a r ı n yuvası görünür. O öz yuvası qarşısında oturaraq öz-özünə şikayətlənir və qəzəblə nəğmə oxuyur. Arabir meşədəki quşların və cırcıramaların səsi eşidilir.

C a n a v a r

(*tamaşa salonuna*)

Neçə gündür yuvamda qalmışam ac,
Olmuşam bir qarın yeməyə möhtac.
Getdi talayıb çapdığım zamanlar,
Ayıq olub indi bütün heyvanlar.
Yox, yox! Necə olsa yenə bu gündən,
Başqa yolla yem axtarmalıyam mən.

(*Canavar qəmli-qəmli oxumağa başlayır*)

C a n a v a r ı n  m a h n ı s ı:

Yoxdur daha taqətim,
Getdi gücüm, qüvvətim.
Tülkü aldatdı məni,
Dar gündə atdı məni.

C a n a v a r
(*ayağa qalxır. Kolları gəzə-gəzə bir səs eşidirmiş kimi, öz-özünə*)

Aha, xışıldadı kol,
Kaş bu Dovşan olaydı...
Görəsən cütdür, təkdir,
Eh, bu azğın küləkdir...
Dovşan nə gəzir burda,
Dadlı pay olsun qurda.
O, məndən uzaqdadır.
Kefdədir, damaqdadır.
Eh, məndə o bəxt hanı,
Diri tutum Dovşanı?

T ü l k ü şən musiqi sədaları altında rəqs edə-edə səhnəyə daxil olur və tələsik Canavarın yuvasına yaxınlaşır və onu səsləyir.

T ü l k ü

Çölə çıx, ay Canavar
Sənə xoş bir xəbər var.

(*Tülkünün səsinə kimsə cavab vermir.O, öz-özünə*)

Acından ölüb yoxsa,
Çölə çıxardı toxsa.

Birdən Q a r a n q u ş u n səsi eşidilir:"Cvi, cvi, cvi..."

T ü l k ü
(*Qaranquşun səsini eşitcək*)

Daşlayım taxtapuşu,
Səsləyim Qaranquşu.
Yuvasına küy salım,
Qoy ondan xəbər alım.

Tülkü yuvaya daş atır. Qaranquşun narazı səsi eşidilir: "Cvi, cvi, cvi..."

Q a r a n q u ş

Kim yuvama atdı daş?

T ü l k ü

(*təəccüblə*)

Mən nə bilim, ay yoldaş.

Q a r a n q u ş

Lap üstümə elə bil
Dolu yağır səhərdən.

T ü l k ü

Əlbət ağacdan əzgil
Düşür başına hərdən.

Q a r a n q u ş

(*Tülküdən təəccüblə soruşur*)

Baxırsan sağa, sola,
Yenə nə var, xeyr ola?

T ü l k ü

(*nəvazişlə Qaranquşdan soruşur*)

Bilmirsən, bahar quşu,
Canavar hara getdi?

Q a r a n q u ş

O çıxırdı yoxuşu,
Əlbət nahara getdi.

T ü l k ü

O, harda edir nahar?

Q a r a n q u ş

(*aşağı düşür*)

Gözəl bir aşxana var.

T ü l k ü

(*tələsik*)

Hardadır onun yeri?
İrəli gedim, geri?

Q a r a n q u ş

(*bir qədər sükutdan sonra*)

Deyirlər xoş səsin var,
A Tülkü, həvəsin var,
Bir nəğmə oxu mənə,
Yerini deyim sənə.

T ü l k ü

(*istehza ilə*)

Oxumağa tapdın vaxt,
De hardadır bu bədbəxt?!

Q a r a n q u ş

Oxumursan, özün bil,
Qaranquş deyən deyil,
Cvi, cvi, cvi...

T ü l k ü

(*bulaqdan bir ovuc su içərək*)

Boğazımı yaşlayım,
Yaxşı də, qoy başlayım.

T ü l k ü n ü n  n ə ğ m ə s i :

Hər kəsdən ehtiyatlıyam,
Qaçmaqda yorğa atlıyam.
Yerim qaranlıq dərədir,
Yediyim beçə, fərədir.
Heç kəslə gəlmirəm sözə,
Soxulub girmirəm gözə.
Öldürməklə aram yoxdur,
Haçan görsən qarnım toxdur.

Q a r a n q u ş

Tülkülərin nə gözəl
Məlahətli səsi var...

(*tamaşa salonuna*)

Bu açacaqdır əngəl,
Nəsə bir hiyləsi var.

T ü l k ü

(*yalvararaq*)

Səndən çox xahişim var,
Canavarla işim var.
Söylə yerini mənə,
Bir qul olaram sənə.

Q a r a n q u ş

(*tamaşa salonuna*)

Bunda dilə bax, dilə,
Demərəm bilə-bilə
Yerini Canavarın,
Qoy axtarsın o harın!

T ü l k ü

(*yalvarır*)

Çox xahiş edirəm səndən,
Yerini gizlətmə məndən.

Q a r a n q u ş

Oxuduğunçun sağ ol.
Yaxşıca oyna mənə,
Yerini deyim sənə.

Tülkü üzü tamaşa salonuna doğru rəqs etməyə başlayır. Sağ tərəfdə dayanan Canavar onun rəqsinə qəzəblə tamaşa edir.

T ü l k ü

(*rəqs edə-edə Qaranquşdan soruşur*)

Nə dedin, etdim əməl,
De yerini söylə gəl.

Q a r a n q u ş

Bu yolla get dön sağa,
Düz dırmaş Haçadağa.

T ü l k ü

(*bir az gedib dayanır və tamaşa salonuna*)

İnanmıram bu quşa,
Nə dırmaşım yoxuşa.

Q a r a n q u ş

(*ağacın altına gələrək Tülküyə*)

Görürəm sözümə sən
Tülkü şübhə edirsən.
Ancaq nə qədər varam,
Sənə yalan satmaram.
Çıx taladan dön sola,
Cığırla düzəl yola.

T ü l k ü

(*tamaşa salonuna*)

Gah deyir ki, get sağa,
Gah deyir ki, get sola.
Buna necə inanım?
Yox, yalan deyir canım.

Q a r a n q u ş

Yenə şübhən var demək?

T ü l k ü

(*Qaranquş yuvasına çıxarkən onun ardınca*)

Gedirəm, dayan görək!

Tülkü oynaya-oynaya sola dönəndə, sağdan Canavarın səsi gəlir.

Canavar

Bəh-bəh necə qəşəng oynayırsanmış,
Sən lap rəqqasəsən, a canı yanmış.
Yenə bu gün kimə kələk qurmusan?
Keflənmisən, qarnını doldurmusan.

Tülkü

(*sevinclə*)

Xoş gördük, ay Canavar,
Sənə bir şad xəbər var.

(*Canavar üzünü yana tutur, lakin Tülkü sözünə davam edir*)

Bomboz, yuxarı bax bir,
Məndən küsmüsən nədir?
Çevir mənə üzünü,
Deyim sözün düzünü.
Bayaqdan əlləşirəm,
Daş-torpağı eşirəm.
Beş saatdır tordayam,
Cəhənnəmdə, gordayam.
Əldən gedib bədənim,
Əlim yarıq-yarıqdır.

(*Tülkü dəsmalı ilə tez əlini bağlamağa başlayır və sözünə davam edir*)

Demirsən dostum mənim
Niyə belə arıqdır.

(*Canavar əlilə işarə edir ki, o, Tülküyə inanmır. Tülkü isə cavabında*)

İnanmırsan hələ də,
Tələdəydim, tələdə!

Canavar

(*laqeyd*)

Halına mən yanıram,
Heç sənə inanmıram.

Sən Dovşanı əlimdən
Alıb qaçırtdın dünən.

T ü l k ü

Onu qaçırtmaqda məqsədim vardı,
Yoxsa bütün planım dağılardı.

C a n a v a r

Bu fırıldaqdır yenə,
Etibar yoxdur sənə.

T ü l k ü

Qonaqlığa görə qaçırtdım onu,
Çox yaxşı olacaq bu işin sonu.
Dadlı heyvanlarla məclis dolacaq,
Çəpiş, Dələ, Quzu orda olacaq.

C a n a v a r

(*acıqlı*)

Sözünü de, söhbətini uzatma,
Yalan-palan deyib başımı qatma!

T ü l k ü

Səninlə can-ciyərəm,
Sənə yalan deyərəm?

C a n a v a r

(*incimiş kimi*)

Get! Hər işini gör tək,
Məndən gözləmə kömək.

T ü l k ü

Heç nədən xəbərin yoxdur...

C a n a v a r

Sənin hiylələrin çoxdur.

(*Səbirsizliklə*)

Tez sözünü söylə bir,
Görüm ki, fikrin nədir?!

T ü l k ü

Sənə çoxdur hörmətim...

C a n a v a r

(*acıqlı*)

De, tükəndi taqətim!

T ü l k ü

Yanğındır, nə olub məgər?..

C a n a v a r

Yenə uzatsan əgər.

(*Yumruğunu göstərir*)

Tez deməsən sözünü,
Sağ görməzsən özünü.
Üç dəfə əl çalaram,
Mən səni parçalaram.

(*Saymağa başlayır*)

Bir... iki...

T ü l k ü

(*qorxaraq*)

Hə, hə, hə...
Ad günüdür Dovşanın!
Yeməkləri dünyanın
Süfrələrə düzülüb.
Plov təzə süzülüb,
Nələr yığılıb mizə...
Orda hər ikimizə

Bir aylıq azuqə var.
Neyləyək, ay Canavar?

C a n a v a r

(*üzünü salona tutub*)

Yalandır, hiylədir bunun hər sözü.
Aləmə kələyi quran bu özü,
Bəs mənə nə üçün edir məsləhət?

(*Tülkünün üstünə hücum edir*)

Ax, yaramaz, fırıldaqdır bu əlbət!

T ü l k ü

(*diz çöküb yalvarır*)

Sənsən axı bizim ən ağıllımız,
Təkcə sənə gəldi ümidim yalnız.

C a n a v a r

Boşalt çinədanını,
Çıxararam canını!
Gedirəm, Dovşanı öldürüm özüm.

T ü l k ü

Aman getmə, dayan, sözüm var, sözüm!
Ax qardaş, sənlə çoxdan dostuq biz,
Birdir məqsədimiz, birdir hiyləmiz.
Gəl sən boş-boşuna danlama məni,
Bir qulaq as, düzəldim sən deyəni.
Elə ki məclisdə bərk qarışdı baş,
Həyətə çıxaram mən yavaş-yavaş.
Üz döndərərəm bağa,
Başlaram oxumağa.

(*Tülkü "Alabaş" mahnısını oxuyur*)

Alabaş, nə qəşəngsən,
Açıq qızılı rəngsən.

Uzaqdan baxdım sənə,
Elə bildim pələngsən.

(*Oxuduqdan sonra, Canavara*)

Bu nəğməni oxuyanda mən,
Birbaş tullanarsan içəriyə sən.
Durma, tez ol, tələsək!

C a n a v a r

Durma, tez ol, əvvəlcə get sən,
Ardınca gələrəm mən!

Canavar yarağını qoltuğuna vurub, musiqi sədaları altında yuvasına gedir.

P ə r d ə

## İKİNCİ HİSSƏ

Pərdə yavaş-yavaş açılır. D o v ş a n ı n evi və həyəti görünür. Qonşusu və dostu K i r p i hədiyyələrlə onun həyətinə girir və qapısını döyür. Dovşan qorxa-qorxa qapını açır, o, Kirpini görcək qollarını açıb onun qarşısına yüyürür.

D o v ş a n

Kirpi, hardan çıxıb gün,
Bizə gəlmisən bu gün?
Vay, məni basır qara,
Sən hara, bura hara?

K i r p i

Qaranquş bu gün səhər
Mənə verdi şad xəbər.
Çox sevinə-sevinə
Gəldim sənin evinə.

D o v ş a n

Tez-tez gələrdin əvvəl,
Darıxırıq, gündə gəl!
Böyüyümüzsən bizim.

K i r p i

İş çox olur, əzizim.
Bu istilər düşəni,
Evim də görmür məni.
Gəzib yerdə hər qatı,
Qırıram həşəratı.
Sənə yığdım qoz, fındıq,
Onları bir qaba yığ.
Al, boşalt bu kisəni,
Təbrik edirəm səni.
Görüm tez boy atasan,
İstəyinə çatasan.

D o v ş a n

(*qoz-fındığı boşalda-boşalda ağırlıq hiss edir və Kirpiyə*)

Qüvvət varmış qolunda.

K i r p i

Bu nədir dost yolunda.

(*Qollarını çirməyib işə girişir*)

Doldurum çarhovuzu,
Su içsin qoyun-quzu,
Çiçəkləri sulayım.

D o v ş a n

Mən də dovğa bulayım.

(*Dovğa bulaya-bulaya, həyətdə iş görən Kirpiyə*)

Qonaqlara yol açdın,
Dost kimi əl-qol açdın.

(*Kirpinin ağır, qoşa vedrələri qaldırdığını görüb, tez onun köməyinə çatır*)

Ver, zəhmət olar sənə.

K i r p i

Yox, yox lap xoşdur mənə.

D o v ş a n

(*rəqs edə-edə bir mahnı oxuyur*)

Qonaqlar gələr indi,
Ürəyim çox sevindi.
Ad günümdə o ki var
Deyib gülərlər onlar.
Yeyərlər tava-tava
Şəkərbura, paxlava.

(*Bu zaman Quzu və Çəpiş ad günü münasibətilə mələyə-mələyə gəlirlər. Bunları görən Dovşan sevincək onlardan soruşur*)

Gülə-gülə belə siz,
Hardan bizə gəlirsiz,
Döşünüzdə də zanbaq?

Q u z u

Məə, məə, məə...
Biz gəlirik çəməndən.
Dərdik sənə bir dəstə
Lalədən, yasəməndən.
Çəpiş, ver hədiyyəni!

(*Çəpiş atılıb-düşür, oynayır və gül dəstəsini Quzudan gizlədir. Quzu üzünü Çəpişə tutub*)

Acıqlandırma məni,
Məə... məə...

(*Çəpiş bircə lalə qalmış gül dəstəsini Quzuya göstərir*)

Vay... güllər necə oldu?

Ç ə p i ş

Gələnə kimi soldu.

Q u z u

Utandırdın lap məni,
Neylədin hədiyyəni?
Bəlkə yemisən, dəcəl?
Eşitmirsən, bura gəl!

Ç ə p i ş

Yedim ki, qoy doysun gözüm,
Çünki toplamışdım özüm.

Q u z u

Hədiyyə edir hər kəs,
Dovşana nə verək bəs?
Tullanmaq bilirsən tək,
Bəs indi biz nə edək?

Ç ə p i ş

Ver bu qızıl laləni.

Q u z u

Bir də dindirmə məni!

Ç ə p i ş

Mən qaçmaqda bir atam,
Özüm də akrobatam.
(*Tullanıb-düşür*)

Q u z u

Məni aciz sanırsan.
Belə çıxır sözündən
Bir arxı hoppanırsan,
Nə çıxmısan özündən?

Quzu və Çəpiş deyişir və dalaşırlar.

Ç ə p i ş

Quzu, gözünü döymə.

Q u z u

Sən də özünü öymə!
Demə körpədir Quzu,
Çıxmamışdır buynuzu.

Ç ə p i ş

Tanıyır bütün zəmi
Mənim dəmir kəlləmi.

Quzunun üstünə atılır, onlar kəllə-kəlləyə gəlirlər. İçəri gələn K i r p i onları ayırır.

K i r p i

Bu saatca barışın,
Gəlin, bizə qarışın.

D o v ş a n

Quzu, yu qab-qacağı.

K i r p i

Çəpiş süpürsün bağı.

Evi yığışdırmağa başlayırlar. Çəpiş bağçanı sulayıb, çiçəklərdən dərir və bir gül dəstəsi düzəldir. Bu zaman T ü l k ü küçədən görünür.

T ü l k ü

(*barıdan boylanaraq öz-özünə*)

Qonaqlar yığılıb, məclis başlanır,
Hirsimdən bədənim od tutub yanır.
Bu Canavar harda qaldı, ay canım,
Səhər-səhər yenə qaraldı qanım.
Dedi, gedim itiləyim dişimi,
Bəs hanı bu, lap ləngitdi işimi.
Nə durmuşam, onun ardınca çapım,
Harda olsa, onu axtarım tapım!

(*Gedir*)

D o v ş a n

(*əlində bulud dolu dolma otağa girir və qonaqlara*)

Dostlar! Hazırdır xörək,
Gəlin otağa girək.

K i r p i

(*buğlanan dolmanı görüb*)

Bəh-bəh buğlanır dolma,
Dovşan gətir pitini.

(*Çəpiş tez göyərtini qabağına tökür, Quzu isə ondan alıb təkrar boşqaba yığır. Bunu görən Kirpi Çəpişə*)

Ay Çəpiş, acgöz olma,
Mizə yığ göyərtini!

Ç ə p i ş

(*qonaqlara*)

Dəm alana kimi aş,
Biz yeyək yavaş-yavaş.
Xoşlayıram yaz çağı
Çəməndə otlamağı.

Qonaqlar mizin ətrafında oturur. Dovşan isə süfrənin başına keçir.

D o v ş a n

Bəh... gözəl dostlarım var,
Oturub sağ-solumda.
Zəhmət çəkiblər onlar,
Bu gün mənim yolumda.

(*Südlə dolu badəni götürür*)

K i r p i

Qoy, bu dostluq var olsun!
Düşmənlərə ar olsun!

D o v ş a n

Dostlarım, yoldaşlarım,
Bacı və qardaşlarım,
Xoş gəlib ad günümə,
Mənim ən şad günümə.

Kirpi

Zurna-qavalı alın,
Bizə bir hava çalın.

(*Quzu və Çəpiş çalğıya başlayır. Dovşan rəqs etməyə başlayır. Kirpi əl çala-çala Dovşana*)

Dovşan qonaqlığındır,
Dostun yığın-yığındır.
Sındır ay, sındır!

Bu zaman Canavar nəğmə oxuya-oxuya meşədən gəlir.

Canavarın nəğməsi:

Sakitliklə yox aram,
Yırtıcı Canavaram.
Özümdən zəiflərin,
Canı üçün mən varam.
Koməyimdir duman, çən,
Od yağır gözlərimdən.
Yüz quzu yaralaram,
Soxulsam sürüyə mən.

(*Başı ilə guya yeri qazıyır*)

Bir vuruşda, davada,
Niyyətim getməz bada.
Mən ancaq öz gücümə
Güvənirəm dünyada.

Tində Tülkü ilə rastlaşan Canavar Dovşanın evinə yaxınlaşıb tədbir görməyə başlayırlar.

Tülkü

Tez ol ay Canavar, qızışdı məclis,
Mən girim içəri səssiz-səmirsiz.

Canavar

Hasarın dibində mən diz çökərəm,
Ovulmuş divarı qazıb sökərəm.
Sən qapını aça bilməsən birdən,
Həmən bu oyuqdan girəcəyəm mən.

T ü l k ü

Alabaşın başını mən qataram.

C a n a v a r

Bir-bir mən onları qırıb-çataram.
Nə olursa olsun, gərək
Girib onları məhv edək.

Tülkü qapının zəngini çalır.

D o v ş a n

(*öz-özünə*)

Qonaqlarım toplaşıb,
Bu kimdir, yolu çaşıb.

Q u z u

Kimdir kənarda qalan?

K i r p i

Düşməndir zəngi çalan!

Ç ə p i ş

Bəlkə dostdur, yoldaşdır?

Q u z u

Bəlkə bu Alabaşdır?

K i r p i

O durub zəngi çalar?
Onun öz açarı var.

Dovşan yüyürüb tez qapını açır, T ü l k ü içəri girir.

D o v ş a n

Xoş gördük, ay Tülkü, gəl!

Qonaqlar Tülkünü görcək, təşvişə düşürlər.

K i r p i
(*Dovşana*)

Başına açar əngəl!

(*Qapıya qaçıb Tülkünü çölə qovmaq istəyir*)

D o v ş a n
(*Kirpiyə*)

Səndə yoxmuş hövsələ.

K i r p i
(*acıqlı*)

Onu çölə itələ!

Kirpi Tülkünü itələyərkən Dovşan mane olur. Qonaqlar hərəsi bir yerdə gizlənirlər.

D o v ş a n
(*Kirpiyə*)

Tülküdə işin yoxdur.

K i r p i
Onun təqsiri çoxdur.

Dovşan əlini Tülküyə uzadıb, onu Kirpi ilə barışdırmaq istəyir, Kirpi isə uzaqlaşır.

D o v ş a n
Əl ver Kirpi qardaşa!

K i r p i
O, bəla açar başa.

T ü l k ü
A Kirpi, su iç soyu.

D o v ş a n
Dostlarım! Ömrüm boyu
Tülküyə borcluyam mən.
Qurd tutub məni dünən

Axıtmışdı qanımı,
O qurtardı canımı.

T ü l k ü

Nə gücüm var qolumda,
Qurbandır dost yolunda!

(*Üzünü Kirpiyə tutub*)

Kirpi, nə çox iynən var,
Bədəninə batmayır?

K i r p i

İynəsiz oldu paltar,
Ürəyimə yatmayır.

T ü l k ü

(*Dovşana yaxınlaşıb onunla birlikdə eyvana çıxır və ona*)

Paho... a Dovşan bacı,
Hər dərdlərin əlacı
Əcəb qəşəng bağın var,
Üzümlü çardağın var.
Gəzsən bütün dünyanı,
Belə gözəl bağ hanı?

K i r p i

(*üzünü salondakı uşaqlara tutub*)

Hərifə bax, hərifə,
O, başladı tərifə.
Onun işi yalandır,
Soyğunçuluq, talandır.

T ü l k ü

Burda saf olar canın,
Necədir güzəranın?

D o v ş a n

Yaxşı, Tülkü sağ olsun.

T ü l k ü

(*əlini Çəpişin çiyninə qoyaraq*)

Hoppanırsan uzaqlarda,
O dağlarda, bu dağlarda.
Quş olub burnuma qonsan,
Bilərəm ki, çempionsan.
Nə olar yaxında gəzsən?

Ç ə p i ş

(*Tülkünün əlini itələyib*)

Tülkü, bir onu görməzsən.

(*Üzünü qonaqlara tutub*)

Qulaq asın qonaqlar,
Bir yaxşı söhbətim var.
Ömrümdə bircə dəfə,
Yollandım çay tərəfə.
Seyrə çıxmışdım çayı,
Çıxdı çəkməmin tayı.
Bir də gördüm ki, qanqal
Ayağıma sarıldı.
Elə bildim Tülküdür,
Qorxdum, bağrım yarıldı.
Məə... məə...

Qonaqlar şaqqıldayıb gülüşürlər. Tülkü fürsətdən istifadə edib Dovşanı itələyir, Dovşan az qalır yıxılsın.

D o v ş a n

(*üzünü Tülküyə tutub təəccüblə*)

İtələdin məni sən...

T ü l k ü

Əlim ilişdi birdən.

(*Araya söz qatmaq məqsədilə, üzünü qonaqlara tutub tost deyir*)

Dostlarım bura baxın,
Mənəm sizə ən yaxın.

Siz məndən qorxmayınız,
Mən də sizin bacınız.
Dünən çıxmışdım düzə,
Qurdla gəldim üz-üzə.
Titrəyirdi dizləri,
A mənim əzizlərim.
Qurd gileyləndi sizdən,
Hirslənib əlinizdən.
Dedi: – Tikdirdim donu,
Məclisə geyim onu.
Çağırmadılar məni,
Lap əsirdi bədəni
Dili, ağzı dolaşır,
O, bura hazırlaşır.
Gəlsə bizə nə deyər?
Qorxuram tutub yeyər.

K i r p i

Çox zərbələr vurmuşuq
Tülküyə, Canavara.
Polad kimi durmuşuq,
Düşmərik heç vaxt dara.

(*Dostlar qucaqlaşıb qala yaradırlar. Kirpi göylərə baxıb*)

Yandı zöhrə ulduzu,
Buludlar dəstə-dəstə.

(*Üzünü Quzuya tutub*)

Nəğmə oxu, a Quzu!

Q u z u

Oxuyaram, baş üstə.

(*Oxumağa başlayır*)

Q u z u n u n  n ə ğ m ə s i :

İpək tellər var məndə,
Mən bir əmlik balayam.

İstəyirəm çəməndə
Göy otları yalayam.
Anam söylədi gərək
Səni bağa aparam.
Çiçəklikdə qalsan tək,
Mələ, səni taparam.
Məə... məə...

Məclisdəkilər "ay sağ ol, ay sağ ol..." deyib Quzunu alqışlayırlar.

K i r p i

Çəpiş, dur sən də oyna,
Qonaq gəlim toyuna.
Dovşan da boş durmasın,
Qoy nağarada çalsın.
Sonra oxuyarıq xor,
Mən olaram dirijor.

Ç ə p i ş

(*rəqs edə-edə musiqidən gileylənir*)

Sümüyümə düşmür heç!

D o v ş a n

Özünə bir hava seç!

Q u z u

Bir becid hava çalın.

(*Çəpişə*)

Bir az oynadın bəsdir.

(*Rəqs etdikdən sonra, kresloya oturub, dincəlir və Kirpiyə*)

Bir bayatı de bizə,
Yayılsın qəlbimizə.

K i r p i

Üzməkdə qayıq olun,
Dostluğa layiq olun.

Məclisdə düşmən olsa,
Qaz kimi ayıq olun.

Q o n a q l a r

Ay sağ ol, ay sağ ol...

Ç ə p i ş

(*Quzuya*)

Mən bir ayağa durum,
Dostlarıma zəng vurum.

Q u z u

Məə, məə...

Ç ə p i ş

(*dəstəyi əlinə alıb nömrələri yığır*)

Alo... nə qurhaqurdur?
Bu toydur, vurhavurdur?
Nə var-nə yox, qurbağa,
Haçan köçürsüz bağa?

(*Cavab gözləmədən düyməni basıb, təzədən zəng edir*)

Alo... nə təhərsən, Çəpiş?
Nə oldu sən deyən iş?

(*Yenə cavab gözləmədən, tez düyməni basıb, təzədən ayrı nömrə yığır*)

Alo... bu danışan inəkdir?
Mənə buzov gərəkdir.

Çəpiş yenə cavab gözləmədən tez düyməni basır və təzə nömrə yığmağa başlayır.

K i r p i

A Çəpiş, belə olmaz,
Mərifətli ol bir az.
Gəl xalqı dəng eləmə,
Boş yerə zəng eləmə.

Kirpi dəstəyi Çəpişin əlindən alıb yerinə qoyur. Şən musiqi sədaları altında A l a b a ş görünür.

D o v ş a n

Xoş gördük, ay Alabaş,
Harda qaldın, a qardaş?
Canım qurban qonağa,
Əzizim, keç otağa.

K i r p i

Gözüm qalıb yollarda,
Cığırlarda, kollarda.
Düşdük əldən, ayaqdan,
Sən hardasan bayaqdan?

A l a b a ş

Üç gündür sürüdəydim,
Qoyun-quzuya dəydim.

T ü l k ü

(*Alabaşı görərək öz-özünə*)

Başına düşəydi daş,
Gəlməyəydin, Alabaş.

K i r p i

Gəlin verək əl-ələ,
Yaradaq polad qala.
Düşmən həddi aşmasın,
Qoy bizə sataşmasın.

(*Alabaşa*)

Gəl dincini al bir az.

A l a b a ş

Mənə oturmaq olmaz.
Həyətdə çəkim keşik.
Sizə beş-altı yeşik
Gətirmişəm kələm, kök,
Onlardan süfrəyə tök.

Kirpi kök və kələmi süfrəyə qoyur.

Ç ə p i ş

Dovşanlar kələm əkir,
Mənim iştaham çəkir.
Məə... məə...

K i r p i

Nahaq yerə mələmə,
Keç, soxulma kələmə.

D o v ş a n

Kirpi, gəl sən də oyna,
Qurban olum boyuna.

Kirpi rəqs edir və Tülkünü də rəqsə dəvət edir.

K i r p i

Tülkü, dur oyna görək,
Niyə oturmusan tək?
Deginən öz havanı,
Titrət yeri, tavanı.

T ü l k ü

(*əzilə-əzilə*)

Yerə düşüncə sözün sənin,
Qoy boynu sınsın düşmənin.

(*Tülkü rəqs edir*)

K i r p i

(*çalanlara işarə edir*)

Tez döndərin havanı,
Qoyun qaralsın qanı.

(*Musiqi tez-tez səslənir, Tülkü isə süzür*)

Quyruğunu bulasın,
Əldən düşüb ulasın.
Çalın, çalın "Qaytağı"
Qırılınca ayağı.

D o v ş a n

Oynadıb qaş-gözünü
Yaman əzir özünü.

K i r p i

(*əl çala-çala Dovşana baxıb*)

Gözdən qoysan Tülkünü,
Soyundurar kürkünü.
Cəmdəyinə duz səpər,
Dərinə saman təpər.

T ü l k ü

(*oynaya-oynaya*)

Ev yiyəsi var olsun,
Düşməninə ar olsun.

K i r p i

(*Tülküyə*)

Bəsdir danışdın yalan.

D o v ş a n

(*Tülküyə*)

Oyna, yorulmaz çalan,
Yaman oynayır, yaman.

Q u z u

(*geri çəkilərək*)

Məə...
Gör nə hoppanır aman!

K i r p i

Nə canına yayılır...

D o v ş a n

O, rəqqasə sayılır.

Tülkü oynayıb istiləndiyindən, həyətdə sərinləmək üçün qonaqlardan icazə istəyir.

T ü l k ü

Olar həyətə enim,
Gəzinib, sərinlənim?

Q o n a q l a r

(*bir ağızdan*)

Olar, olar...

T ü l k ü

Həm də olarmı bir qab
Dadlı, ləzzətli qutab,
Aparım Alabaşa?

D o v ş a n

Yaxşı sözdür, ay yaşa!

Qonaqlar stol arxasında yeyirlər. Tülkü əlində qab həyətə düşür, Alabaşa yaxınlaşır.

T ü l k ü

(*yaltaqlanaraq*)

Tək mən səni saldım yada,
Dostam sənlə bu dünyada.
Gətirmişəm qutabı,
Əlim yandı, al qabı.
Qoy onu öz yanına
Ye, nuş olsun canına!

A l a b a ş

(*ağacların dibini qazıya-qazıya Tülküyə*)

Sağ ol! Yemişəm toxam,
Çox yeməklə mən yoxam.

T ü l k ü

Otura bilmədim gördüm məclisin
Sənsiz qəti yoxdur heç bir ləzzəti.

Soyuq olar çöldə, keç evdə isin,
Bunların heç yoxmuş sənə hörməti.
Qoy rəqs edim, kefin kök olsun bir az,
Dost dostu heç zaman belə unutmaz.
Heç olmasa altına döşə saman,
Azarlarsan, neylərəm ay aman?

A l a b a ş

(*öz-özünə*)

Belə yaltaq görməmişdim yaşımdan.

(*Tülküyə*)

Tülkü itil, rədd ol mənim başımdan!
Hav... hav...

T ü l k ü

Mən səni sayıram özümə qardaş,
Məni niyə qovursan, ay Alabaş?

(*Alabaşa nəğmə oxumağa başlayır*)

T ü l k ü n ü n  n ə ğ m ə s i :

Alabaş, nə qəşəngsən,
Açıq qızılı rəngsən.
Uzaqdan baxdım sənə,
Elə bildim pələngsən.

Az olar yaşın sənin,
Çoxdur yoldaşın sənin.
Düşmənlərin başına,
Düşəydi daşın sənin.

Heç aran yoxdur şərlə,
Sən dostsan Tülkülərlə.

Bu zaman C a n a v a r ovuqdan həyətə sıçrayıb, Alabaşın üstünə tullanır və onlar vuruşmağa başlayır. Tülkü arxadan Alabaşı vurmaq istərkən, Kirpi onun qolunu tutur. Bu zaman Tülkü qaçmaq istəyir.

T ü l k ü

(*üzünü uşaqlara tutub*)

Bu it evimi yıxdı,
Zəhmətim heçə çıxdı.

Canavarla Alabaş vuruşur, Tülkü xəlvət evə girmək istərkən, Kirpi onun qabağını kəsir.

K i r p i

Hara qaçırsan, hara?
Əkilmə ağzı qara.
Ölümün çatar indi,
Yaxşı düşmüsən dara.

A l a b a ş

(*şəhadət barmağını ağzına yaxınlaşdırıb Kirpiyə*)

Kirpi, sakit, salma səs,
Tşş... eşitməsin heç kəs!

K i r p i

(*iynələrilə Tülkünü zədələyərək*)

Hələ sənə bu azdır,
Oxlarım hamsı sazdır.
Batıraram gözünə,
Heç gəlməzsən özünə.

Alabaş dinməz-söyləməz Canavarla hesablaşır, qurd yaralı halda meşəyə qaçır. Kirpi qolundan yaralanmış Alabaşı nəvazişlə oxşayır və ona dincəlməyi təklif edir.

K i r p i

Qurd ov gəzirmiş ertədən,
Elə bilib Dovşan təkdir.
Qoy məhv olsun azğın düşmən,
Bilsin dostluq nə deməkdir.

Kirpi Alabaşın qolundan tutub, onu qaldırmaq istərkən Alabaş özü qalxır, lakin başı hərlənir, yıxılmaq halına düşür.

A l a b a ş
(*Kirpiyə*)

Elə bilmə xəstəyəm,
Bax, mən ayaq üstəyəm.

Lakin Alabaşın başı çox hərləndiyi üçün ayaq üstə dayana bilmədiyindən yerə oturur.

K i r p i

Demirəm sənə durma,
Heç bir işə əl vurma?!
Ağac altında uzan sən,
Dincəl, keşik çəkim mən.

Alabaş həyətdə, arxın kənarındakı söyüd ağacının altında oturaraq, yaralı pəncələrini yalayır.

A l a b a ş

A Kirpi, məclisə get,
Nəğmə oxu, şadlıq et!
Həyətə gəlsin səsin.
Danışma əhvalatı
Qoy məclisdə heç kəsin,
Təlx olmasın ovqatı.
Qanıqaralıq olar,
Dovşan saralıb-solar.
Qonaqlar hiss etməsin,
Qəmli-qəmli getməsin.

K i r p i

Səni tək qoyum burda?

A l a b a ş

Bir toy tutmuşam qurda,
Daha həddini aşmaz,
Bu yanlarda dolaşmaz.

K i r p i

Yorulmusan, Alabaş?

A l a b a ş

Kirpi, səs salma, yavaş.
Gücüm çoxdur canımda,
Silahım var yanımda.

K i r p i

Üz-gözündən tər axır.

A l a b a ş

Dovşan boylanıb baxır,
A Kirpi, tez ol yeri,
Qaytar Dovşanı geri.
Məndən olun arxayın,
Yeyin, için, oynayın!

Kirpi məclisə gedir. Dovşanın evindən bir az aralı Canavarın zarıltısı eşidilir. Q a r a n q u ş onun başı üzərində uçaraq, pis əməlləri üçün ona lənətlər yağdırır.

Q a r a n q u ş

Azar dəysin canına,
Bulaş indi qanına!

C a n a v a r

Rədd ol, a qara milçək!

Q a r a n q u ş

Soyğunçuluqdan əl çək!

C a n a v a r

Gətirmə məni zara,
Çəkərəm səni dara!

Q a r a n q u ş

Hələ, bu da sənə azdır!

C a n a v a r

Ah, bunlar nə yaramazdır?

(*Uçuruma yuvarlanır*)

Qonaqlıqdan şən musiqi və mahnı səsi ucalır. Kirpi qonaqları Dovşanın bağına dəvət edir. Qonaqlar həyətə düşürlər. Əllərində rəngbərəng dəsmallar rəqsə başlayırlar. Kirpi əlindəki qırmızı yaylığı al bayraq kimi havada dalğalandıraraq rəqs edir.

Kirpi

Əllərimiz dəsmallı,
Yallı gedəyin, yallı!
Dovşanın ad günüdür,
Onun ən şad günüdür.

Söyüdün altında keşik çəkən Alabaş sevinir, gülür və onlara əl çalır. Şən musiqi sədaları hər yeri bürüyür. Qonaqlar yallı gedə-gedə mahnı oxuyurlar.

Dostların mahnısı:

Dovşana bax, Dovşana,
Bu gün nə tez oyandı.
O hoppana-hoppana
Pəncərədə dayandı.

Nəqarət:

Hopp, hopp, hoppana,
Dovşana bax, Dovşana.

Açılıb pəncərəsi,
Bağ-bağçaya, taybatay.
Qaranquşun şən səsi,
Salıb aləmə haray.
Dovşanın ad günüdür,
Onun ən şad günüdür.

Nəqarət:

Hopp, hopp, hoppana,
Dovşana bax, Dovşana.

Şən musiqi sədaları altında pərdə yavaş-yavaş enir.

Son

# AYCAN

*İki pərdəli nağıl-pyes*

İŞTİRAK EDİRLƏR:

A y c a n
G ü l y a z – Aycanın bacısı
Q ə r ə n f i l – güllərin başçısı
Ç o b y a s – çobanyastığı gülü
İ n c i g ü l ü, S e v i n c g ü l ü, Q ı z ı l g ü l – mübariz güllər
Q a n q a l – alaqlar şahı
P ı t r a q, Ç a y ı r – ziyankar alaqlar

## BİRİNCİ PƏRDƏ

Musiqi sədaları altında pərdə açılır. A y c a n səhnə arxasında olan futbol yoldaşlarını barmağı ilə hədələyir.

A y c a n

Saldız məni pis hala,
Dizim sındı az qala.
Yaxşı, sizinlə varam,
Bir gün mən sındıraram
Hamınızın dizini,
Çıxaram əvəzini.

(*Bacısının həyətdəki gül ləklərini gördükdə, bir az da hirslənir və üzünü ona tutur*)

Mən uduzdum futbolda,
Dəydim üzüstə yolda.
Sən də ki, gül əkmisən,
Güldən çəpər çəkmisən.

Qoymursan ki, məşq edim,
Əlindən hara gedim?
Məni etdin biabır.
Bir dəli şeytan deyir,
Bütün bu gülləri qır!

A y c a n ləkləri dağıdıb gül şitillərini götürüb qaçır. Saçları dağınıq bir halda olan G ü l y a z evin arxasından önünə yüyürə-yüyürə gələrək əlində gül şitilləri qaçan qardaşına çatıb onun üstünə çığırır.

G ü l y a z

Hara qaçırsan, hara?!
Məni gətirdin zara!

A y c a n

(*barmağı ilə səkini göstərərək*)

Sənə verdim səkini,
Orda qazı ləkini.

G ü l y a z

(*onun əlindən şitilləri almağa çalışaraq*)

Qoy sənin olsun o yer,
Tez ol şitilləri ver!..

(*Əlilə həyətdəki sahəni göstərərək*)

Bu yerlər dura-dura,
Qovursan ordan-bura,
Burdan-ora.

(*Yerə səpələnmiş şitilləri yığa-yığa*)

Neylədin, ay yaramaz?

A y c a n

Bax, elə demə, Gülyaz,
Sallam səni həvəsdən.

G ü l y a z

Nə dedin, nə?!
Qorxum yoxdur heç kəsdən.

(*Gülyaz mahnı ilə*)

Açar sevimli güllər
Bu gözəl yaz çağında.
Cəh-cəh vurar bülbüllər
Onların budağında.
Güllərim, xoş ətriniz
Ruh verir təbiətə.
Gül istəsə xətriniz,
Gəlin bizim həyətə.

A y c a n

(*ağacını oynada-oynada*)

Eyy... səkiyə keç, bacım,
Sənə dəyər ağacım.

G ü l y a z

(*səkinin üstünə hoppanaraq*)

Burda kim gül əkər, kim?!
Səki üstə gül əkim?

(*Hirsli-hirsli Aycanın üstə cumub, ağacı ondan alır və uzaq kollara tullayıb*)

Bu sən, bu da ağacın,
Nifrət edir sənə bacın.

(*Həyətə enərək*)

Əkim gülləri burda!

A y c a n

(*ağacını koldan tapıb, qayıdaraq*)

Elə bu vurhavurda...

(*Gülyazı itələyir*)

Keç görüm, kəsmə yolu,
Başlayıram futbolu.

(*Gülyazın ağzını əyə-əyə*)

Gül-çiçək əksə hər kəs,
Biz harda oynayaq bəs,
Ay təzə həvəs?

G ü l y a z

Get meydançada oyna!

A y c a n

Boyuna bax, boyuna,
"Get meydançada oyna..."
Çəkil burdan bu saat!

G ü l y a z

Ağacı bir yana at!

A y c a n

(*ağacı yellədə-yellədə irəliləyərək*)

Avara adamın işidir bu iş,
Gül əkmə işini bu gündən dəyiş!
Çiyələk yığ meşədən,
Əl çək sarsaq peşədən.
Ta bəsdir bütün ili,
Əkmisən zir-zibili.

G ü l y a z

(*gözəl al-əlvan gülləri göstərərək*)

Belə zibil olar heç?

A y c a n

(*topu oynada-oynada*)

Məşq edirəm, yoldan keç!

G ü l y a z

(*uzaqda evləri önündə gül əkən qonşu uşaqlara baxıb, qəzəblə qardaşına*)

Qonşular ötdü səni,
Elxana bax, Elxana...
Həyətyanı sahəni
Döndərib gülüstana.

A y c a n

(*yüyürərək Gülyaza yaxınlaşıb əyilir və barmaqları ilə gözlərini dartır*)

Neyləyim? Gözüm aydın!

G ü l y a z

Kaş ona oxşayaydın...

(*Solda gül əkən o biri qonşuları göstərərək*)

Odur, yoldaşın İlqar
Necə əkir gül-çiçək...
Utan! Balaca Eldar
Eləyir ona kömək.

A y c a n

(*etinasız arxasını bacısına çevirir*)

Cəhənnəmə, gora...

G ü l y a z

(*Aycanın ətəyindən dartaraq*)

Aycan, ora bax, ora...

A y c a n

Cəhənnəmə, gora,
Qoy bomboş olsun həyət,
Bütün güllərə nifrət!

(*Futbol topunu oynada-oynada*)

Dünyada oyunlar çoxdur,
Futboldan yaxşısı yoxdur.
Həm şöhrəti, həm şanı,
Gəzir bütün dünyanı.

G ü l y a z

(*əllərini topun ardınca göyə qaldıraraq*)

Səni üzüb bu futbol,
Yuxuda da çığırırsan:
"Qol, qol, qol..."
Bircə şüşə qoymadın
Bu boyda aynabənddə.
"Şüşə sındıran" adın
Məşhur olub həyətdə.

A y c a n

(*ağzını göyə tutub, bərkdən gülür*)

Xa... xa... xa... xa...

G ü l y a z

(*yumşaq səslə Aycana*)

Xəstə olursan hər il,
Ürəyin zəifdir bil.
Xəbərin yox ürəyindən.

A y c a n

(*laqeyd*)

Keç, top dəyər kürəyinə.
Fikir eləmirəm mən,
Mənə nə olar, olar...
Mənim də ürəyimdən
Zəif olanları var.

Sən məndən ol arxayın...
Yaxşısı budur, yayın.

(*Topu vurub, gülləri dağıdaraq*)

Gül basıbdır aləmi,
Lap aparıb zəhləmi.

(*Gülyazı itələyib kənara qovur*)

Gülyaz

(*əllərini Aycana uzadaraq*)

Beş lək əkmişəm cəmi.

Aycan

Azdır! Başımda da ək.
Hara baxsan ləkdir, lək.

Aycan bacısını itələyərək şitilləri onun başına çırpır. Gülyaz ağlaya-ağlaya ştilləri toplayıb, əzilməyənləri bir tərəfə yığarkən, başını qaldırıb görür ki, Aycan gülləri qırmağa davam edir.

Gülyaz

(*qışqıra-qışqıra*)

Onlar dərmandır, dərman!
Gör necə qırıb atır?
Naxoş olanda insan,
Güllər dadına çatır.

(*Qərənfili iyləyə-iyləyə*)

Ətrinə bax, ətrinə,
Ah, necə əlin gəldi
Dəydin onun xətrinə?

Aycan

Lap ürəyim dincəldi...

G ü l y a z

(*susəpəni əlinə alıb ləklər tərəfə gedərək*)

Qoy gül-çiçək hər vaxt olsun,
İnsan sağlam, xoşbəxt olsun,
Xəstələnməsin heç kim,
Dərman yazmasın həkim.

A y c a n

Toxu, özündən toxu.

G ü l y a z

Get çoxlu kitab oxu!

A y c a n

Məndən çox oxuyan yox.

(*Gülyazın əlindəki bir dəstə qərənfili alıb, yeri süpürürmüş kimi, istehzalı gülüşlə*)

Xa... xa... xa... xa...
Kötükləri dik-dikdir,
Yaxşı süpürgəlikdir,
Sən də bir süpürgəçi.

(*Gedir*)

G ü l y a z

Nəçiyəm, nəçi?..

Güllərə qarşı belə amansız münasibət bəsləyən A y c a n a qarşı son dərəcə hirslənən G ü l y a z, qardaşının ardınca qışqırır.

Qanqalın, biri qanqal!

A y c a n

(*bacısı tərəfə qaçaraq*)

Tərpənmə, yerində qal!
O nədir, dedin mənə?

G ü l y a z

Mən qanqal dedim sənə!
Çünki, qanqal da səntək
Qoymur açsın gül-çiçək.

A y c a n

(*bu sözdən hirslənib öz-özünə*)

Mən qanqalam, demək, qanqal!

Tez G ü l y a z ı n üstünə cumub, onu tutaraq ağaca söykəyir və boğmağa başlayır.

Sən mənə dedin qanqal?!
İndi gəl payını al!

G ü l y a z

(*Aycan əlini ona qaldırmaq istəyərkən*)

Bacına qaldırdın əl!
Belə deyildin əvvəl.

A y c a n

Sən yaman açmısan dil,
Qanqal demisən mənə.

G ü l y a z

(*çantasından bir kitab çıxarıb ona uzadaraq*)

İnanmırsan oxu, bil,
Niyə demişəm sənə.
Oxumaq səninçün çətindir, çətin,
Oxuyanda yuxulamaqdır adətin.
Oxu, yuxu tutsun səni o saat.
Yıxıl yat...

G ü l y a z varaqlaya-varaqlaya kitabı ona verir.

A y c a n

(*kitabı əlinə alır, onu vərəqləyərək əsəbi halda öz-özünə*)

Mən qanqalam, demək, qanqal!..

Kitabı vərəqləyə-vərəqləyə yaşıl otların üstündə uzanır, işıqlar sönür və A y c a n yuxuya gedir. Yuxuda güllərin onu əhatə etdiyini görür və güllərin mahnısı eşidilir.

P r o l o q  m a h n ı s ı:

X o r

Bu şən nağılda söhbət
Gedir güldən, çiçəkdən.
Gülər gözəl təbiət,
Sevərsəniz ürəkdən.
Bax, açıldı Qızılgül,–
Ətir saçır hər yana.
Çobyas, İnci, Qərənfil,
Şəfa verir insana.

Xor mahnısilə səhnə yavaş-yavaş işıqlanır. A y c a n yuxuda Balaca qanqala dönüb. O əzazillik mahnısı oxuya-oxuya təpiklərini yerə döyə-döyə çəmənə hücum edir.

B a l a c a  q a n q a l ı n  m a h n ı s ı:

Mən Qanqalam, Qanqalam,
Bir od dolu manqalam.
Qanlı qəhrəman mənəm,
Mən güllərə düşmənəm.
Pfuu... filərəm güllər itər,
Yerində qanqal bitər.

O əlində tikanlı toppuz, gül kollarının üstünə cumaraq, toppuzunu göyə qaldıraraq nərə çəkir.

Eyy... koldakı, çıx kənara,
Ürəyinə vurum yara

Ç o b y a s
(*başını qaldırıb, boynunu koldan uzadaraq*)
Neyləmişəm sənə, mən?

B a l a c a  q a n q a l
Çıx bayıra, bilərsən.

Ç o b y a s yenidən başını kola soxur. B a l a c a q a n q a l kolu toppuzu ilə vurmağa başlayır. İncigülü o biri tərəfdən baş qaldırır.

İ n c i g ü l ü

Dəymə ona, amandır,
O, faydalı dərmandır.

B a l a c a q a n q a l ona acıqlı-acıqlı baxır və kolu eşələməyə başlayır. Ç o b y a s birdən koldan sıçrayıb, düz B a l a c a q a n q a l ı n önündə dayanır.

Ç o b y a s

Bu da mən, nədir sözün?

B a l a c a q a n q a l

Gözün tökülsün, gözün.
Tez ol söylə adını,
Sındıraram qol-qanadını.

Q ı z ı l g ü l

(*başını koldan qaldıraraq*)

Ay avara, o, gərək olar sənə.

B a l a c a q a n q a l acıqlı-acıqlı Q ı z ı l g ü l ə baxır, Ç o b y a s isə düz Balaca qanqalın qarşısına hoppanır.

Ç o b y a s

Çobyasam, dəymə mənə!

(*Nəğmə oxumağa başlayır*)

Ç o b y a s ı n m a h n ı s ı :

Mən ki, gözəl deyiləm
Taxasan öz yaxana,
Üzümdən oxşayıram
Bir az günəbaxana.

N ə q a r ə t :

Çöllər, düzlər, meşələr,
Yaşıl məskənim.

Əlim cibimdə,
Papağım yandır mənim.

Qızılgültək yaymıram
Hər tərəfə ətrimi.
Mən bir güləm ki, hamı
Çox istəyir xətrimi.

B a l a c a   q a n q a l

Çobyas! Bu düz olmadı,
Bilmirəm belə adı.
Get özünü ələ sal,
Naqqalın biri, naqqal.
Çobanyastığı olar,
Bax, bu adda bir gül var.

Ç o b y a s

Mən həmən güləm, həmən.

B a l a c a   q a n q a l

Çıx, mənimdir bu çəmən.

Ç o b y a s

İnsanlarındır bura.

B a l a c a   q a n q a l

Öldürrəm vura-vura.

Ç o b y a s

(*yırğalanan boynunu gülünclə əyə-əyə, onu məsxərəyə qoyaraq*)

Boğazında olsa yara,
Çobyas yazar qarqara.

B a l a c a   q a n q a l

Sus!.. Çərənləmə boş-boş,
Mən heç olmuram naxoş.

(*Onu itələyir və koldan çıxarır, sonra Qızılgülə yaxınlaşaraq, kolu eşələyə-eşələyə*)

Danış! Haraya getdin?
Çıxıb mollalıq etdin,
Sən bayaq özgəsinə,
Bəs nə oldu səsinə?

(*Kolu eşələyərkən Qızılgülün tikanı onun barmaqlarına batır. O, əlini silkələyə-silkələyə*)

Ey tikanlı, sən kimsən?!
Yoxsa sən də bir həkimsən?
Səni də mən ona qatım.

Q ı z ı l g ü l

Səni boğar ətriyyatım.

Q ı z ı l g ü l rəqs edib öz koluna girir.

Ç o b y a s
(*təpənin üstündən çığıraraq*)

İnsan yanında var xətri,
Onlara ruh verir ətri.

B a l a c a  q a n q a l
(*çiyinlərini qaldıraraq*)

Neyləyək, çıxaq çəməndən?
Xa... xa... xa... xa...
Yaxşı dilmanc olar səndən

(*Qızılgülü toppuzlamağa başlayır*)

Q ı z ı l g ü l
(*qəzəblə*)

Eşidirsən? Əl çək bizdən!
İtil bizim yerimizdən!

B a l a c a   q a n q a l

Eyy... üstümə az bağır.

Q ı z ı l g ü l

Çox məni bilmə fağır.

Balaca qanqalın üstünə cumub onu tikanları ilə sancmağa başlayır. Balaca qanqal əli-ayağı sıyrılmış halda gah bir ayağı üstə tullana-tullana, gah da hər iki əlini havada silkələyə-silkələyə çığırır.

B a l a c a   q a n q a l

Vayy...
Bu nə yaman qudurdu,
Harama gəldi vurdu.

Q ı z ı l g ü l

Həə... gəlməyir xoşuna?
Dalaşma boş-boşuna!

B a l a c a   q a n q a l

(*Qızılgülə şəhadət barmağını silkələyərək*)

Dayan!
Səninlə çoxdur işim,
Qoy bu kola girişim.
Sonra gələrəm yenə
Bir od vurram sənə.

(*O, toppuzu ilə soldakı kolu araşdırmağa başlayır*)

Eyy... erkəksən, dişisən?!
Çıx bayıra kişisən!

(*Koldakı çölə çıxmır. Balaca qanqal qışqıra-qışqıra gülün yarpaqlarını didməyə başlayır*)

Eşitmirsən, çölə çıx, kar!

İ n c i g ü l ü

(*öz didilmiş yarpaqlarını hamarlaya-hamarlaya üzünü Qanqala tutaraq*)

Nə deyirsən, ay ziyankar?

B a l a c a   q a n q a l

Ziyankar?.. Hələ bir dilin də var!

(*İncigülünün üstünə cumur*)

Q ı z ı l g ü l

(*İncigülünü müdafiəyə girişərək*)

Eyy... ona dəymə, o incidir,
O, insanın sevincidir!

B a l a c a   q a n q a l

(*kinayə ilə*)

Nəyidir, nəyi?

Ç o b y a s

(*təpənin üstündən*)

O sağaldır ürəyi!

İncigülü koldan çıxarkən Balaca qanqalla üz-üzə gəlir.

B a l a c a   q a n q a l

Sən mənim üçün bir heçsən,
Öldürrəm burdan keçsən!

(*Onu qovur və kolları axtara-axtara qışqırır*)

Sənin başçın hanı?
Dağıdır bu dünyanı.

(*Sonra üzünü Çobyasa tutub*)

Söylə görüm kimdir, kim!
Gəlsin ona da çəkim.

(*Toppuzunu Çobyasın başına vura-vura*)

De görüm adı nədir,
Şeytandır, əcinədir?

Ç o b y a s

(*acıqlı*)

Böyüyümüz, Qərənfildir!

B a l a c a  q a n q a l

Tanıdım, o zəhərdildir...

Q ı z ı l g ü l

Zəhər tuluğu sənsən!..

(*Balaca qanqalın üstünə cumub, tikanlarını ona batırır*)

B a l a c a  q a n q a l

Sən elə bil gicitkənsən...

(*Qızılgülün üstünə cumaraq, qışqıra-qışqıra ona nəğmə ilə müraciət edir*)

B a l a c a  q a n q a l ı n  m a h n ı s ı:

Tez deyin hanı,
Qanqalın baş düşməni?
Deməsəz onu bilin
Yerini Qərənfilin,
Alt-üst eləyərəm çölü, çəməni,
Dağıdaram bu güllər aləmini.

Çobyas Balaca qanqalı lağa qoya-qoya oxumağa başlayır.

Ç o b y a s ı n  m a h n ı s ı:

Qərənfili çox sevirik onu bil,
Sədaqətli bir yoldaşdır Qərənfil.
Şəfa verir Qərənfilin əlləri,
O, bəzəyib sevindirir elləri.

N ə q a r ə t:

Dolaşmır veyil-veyil,
O, sənin tayın deyil.

Düşməni yandırır o, atəş kimi,
Dostlara nur saçır, bir günəş kimi.
Bax, Qərənfil indi çatar imdada,
Sənin də niyyətin tez gedər bada.

N ə q a r ə t:

Başında çaxar şimşək,
Əməllərindən əl çək!

Ç o b y a s

(*oxuyandan sonra, əlində bir daş parçası Balaca qanqalı ələ sala-sala*)

Otur dincəl bu daş üstə,
Nə deyirsən, biz baş üstə.

Balaca qanqal daşı ayağı ilə itələyir və Çobyasa çox acıqlı baxır.
Uzaqdan Q ə r ə n f i l i n səsi gəlir.

Q ı z ı l g ü l

Odur, başçınız gəldi.

Ç o b y a s

Vay-vay... canımız dincəldi.

B a l a c a q a n q a l

(*Qərənfili görən kimi, tez onun üstünə cumub*)

Sənsənmiş buranı tutan?!
Get bir boyundan utan!
Adını azadlıq gülü qoymusan,
Məni soğan kimi soymusan.
Heç həya yoxmuş səndə.

Q ə r ə n f i l

Gərək çöldə, çəməndə,
Güllər bitsin, onu bil!

B a l a c a  q a n q a l

Kəs səsini acıdil,
Qaxıl bir yanda görək!
Bəs biz qanqallar ölək?!

Q ə r ə n f i l

Həə... gərək belə olsun,
Bütün alaqlar ölsün!

B a l a c a  q a n q a l

Alaqları tökərəm,
Bağ-bağçanı sökərəm.

Q ə r ə n f i l

Sənə oturar ağır!

(*Qızılgülə işarə edib*)

Yeri Çobyası çağır!

Qızılgül təpədən əl edib, Çobyası çağırır. O gəlir.

Q ə r ə n f i l

(*güllərdən soruşur*)

Güllər, yaraqlar hanı?
Qovaq bu pəhləvanı...

Çobyas tez qaçıb, bir yığın yaraq gətirir, bunlar tikanlı gül budaqlarıdır. Qərənfil yaraqları paylayır və onlar vuruşmağa başlayırlar.

Ç o b y a s

(*tullana-tullana və Balaca qanqalı ələ sala-sala*)

Həə... nə yemisən, turşulu aş,
Səni əzək yavaş-yavaş.

Qərənfil

(*hər iki əlində tikanlı gül budağı Balaca qanqalın üstünə cumur və onun baş-gözünü zədələyərək*)

Haydı! Tez buradan əkil,
Xarabalığına çəkil!

Balaca qanqal

(*üz-gözü yaralanmış Balaca qanqal dal-dalı gedərək, öz-özünə*)

Yaxşı, yaxşı, mən getdim daha,
Bu sizə oturacaq baha!..

Qərənfil

(*Balaca qanqalı çəməndən qovduqdan sonra, dostlarına yanaşıb onlara yavaşcadan*)

Mən gedirəm səfərə,
Qoy hazır olsun hərə.
Düşmənimiz yamandır,
Ayıq olun amandır.
İndi düşürəm yola.

Çobyas

Hara belə, xeyir ola?

Qərənfil

(*ehtiyatla o yan-bu yana baxa-baxa*)

Xeyirlidir bu səfər,
Qoy bilməsin bir nəfər.
Dan yeri ağaranda
Gözləyərsiz limanda
Gələrəm səhər-səhər,
Verərəm sizə xəbər.

Qərənfil əl verib, xudafisləşib gedir. Güllər kolların ardına keçirlər. Bu zaman Balaca qanqal əlində toppuz yüyürərkən, birdən Böyük qanqalla toqquşur, əvvəlcə özünə, sonra ona baxaraq bir az hürkür. Güllər isə koldan baş qaldıraraq gülüşürlər və bu hadisənin nə ilə qurtaracağı ilə maraqlanıb tamaşa etməyə başlayırlar. Böyük qanqala məxsus musiqi çalınır və bu musiqinin sədaları altında sözə başlayır.

B ö y ü k  q a n q a l

Mən burda dura-dura,
Sən hardan gəldin bura?
De kimsən kələ-kötür?
Üz-gözünə bax, qotur!

B a l a c a  q a n q a l

(*təəccüblə*)

Sən məni tanımadın?

B ö y ü k  q a n q a l

(*acıqlı*)

De görüm nədir adın?

B a l a c a  q a n q a l

Adım? Balaca qanqal.

B ö y ü k  q a n q a l

(*hirsli*)

Nə? Hambalın biri, hambal,
Şad xəbər...
Mənim paltarımdan geyib bəxtəvər

B a l a c a  q a n q a l

Bir hövsələn olsun,
Mənə qulaq as.
Geydim, gül-çiçəkdən
Mən alım qisas.

B ö y ü k  q a n q a l

(*istehza ilə Balaca qanqala gülərək, qəhqəhə çəkir*)

Xa... xa... xa... xa...

Balaca qanqal

Bağışla, bəs sən kimsən?
Görünür ki, çox nəcibsən.

Böyük qanqal

Mən alaqlar pənahıyam,
Tikanlar şahənşahıyam!

(*Oxumağa başlayır*)

Böyük qanqalın mahnısı:

Yox olsun ağac-uğac
Dünya üzündə,
Var olsun alaq-malaq
Çölün düzündə.
Mən sənə dost olaram,
Sözümə baxsan.
Çiçəkləri yandırsan,
Gülləri yaxsan.
Mən istəsəm parçalaram
Kainatı.
Nərə çəksəm yerə düşər,
Kim xor baxsa mənim kimi
Böyük şaha.
Yandıraram, dağıdaram,
Xa... xa... xa... xa...

Balaca qanqal

(*təzim edə-edə*)

Alaqların şahı...
Həə... deyirəm axı.

Böyük qanqal

Sən isə, mənim sarsaq qanqalım!
Gəl səni təpiyimin altına salım.

B a l a c a   q a n q a l

(*təəccüblə*)

Niyə? Mən köməkçi gəlmişəm sənə,
Etibar elə, əlahəzrət mənə.
Az qaldı ölüm bağda,
Gəlmədin dar ayaqda.
Başım cəncələ düşmüşdü,
Güllər məni öldürmüşdü.
Hiss etmədin hücumu?

B ö y ü k   q a n q a l

İyləmişdim ovcumu?

B a l a c a   q a n q a l

Sehirlisən axı sən,
Ən yaxın dostunam mən.

B ö y ü k   q a n q a l

(*çığıraraq*)

Sənə yoxdur etibar!

B a l a c a   q a n q a l

Var

B ö y ü k   q a n q a l

Varsa, get gülləri yol!
Budur bax, açıqdır yol.
Təpiyin altına sal,
Get onlardan hayıf al.

B a l a c a   q a n q a l

Sən nə desən mən eləyə bilərəm.

B ö y ü k  q a n q a l

(*Balaca qanqalı ələ salaraq gülməyə başlayır*)

Xa... xa... xa... xa...
Axmaq, səni yer üzündən silərəm.
Bir təpik vuraram indi belindən,
Sən nəsən ki, bir şey gəlsin əlindən,
Çoxda ki oxların var üz-gözündə.

B a l a c a  q a n q a l

Mənə dəysən, məhv olarsan özün də.

B ö y ü k  q a n q a l

Bir buna bax, bu məni hədələyir,
Təbiətin özü mənə baş əyir.
Mənim kimi ziyankar yox meşədə,
Çalışıram yüz ildir bu peşədə.
Bu yerlər əzəldən verilib mənə,
Qoymaram gül bitsin burda bir dənə.
Mən güllərin soruram şirəsini.

B a l a c a  q a n q a l

Mən isə kəsirəm lap nəfəsini.

(*Təpiklərini çəməndə döyməyə başlayır*)

B ö y ü k  q a n q a l

Boş danışma, sarsaq, dayan!
Görək kim çox verir ziyan,
Mən, ya sən?

B a l a c a  q a n q a l

Mən!

B ö y ü k  q a n q a l

Mən!

B a l a c a  q a n q a l

Yox, mən!

B ö y ü k  q a n q a l

(*acıqlı*)

Yox, mən!..

B a l a c a  q a n q a l

Mən, mən, mən...

(*Qaçır və güllərə ilişib yıxılır, ayağa durub tüpürərək onları toppuzlayır və onlara*)

A güllər, onu bilin,
Sizi yerə yıxaram.
Mən sizdən Qərənfilin
Acığını çıxaram.

B ö y ü k  q a n q a l

(*toppuzunu göydə oynada-oynada ziyançılığa başlayır və ucadan çılğın səslə*)

Məhv olub getdi alaq,
Güldən intiqam alaq!

B a l a c a  q a n q a l

Alaq, alaq!

Böyük qanqal  təpiklərini yerə döyə-döyə nərə çəkir, Balaca qanqal da onu təkrar edir.

B ö y ü k  q a n q a l

Qoy sındırım ağac-uğac yox olsun.

B a l a c a  q a n q a l

Yox olsun!

B ö y ü k  q a n q a l

Qoy sındırım, alaq-malaq çox olsun

B a l a c a   q a n q a l

Çox olsun!

B ö y ü k   q a n q a l

Qoy sındırım, bütün güllər çürüsün,
Kainatı qanqallıqlar bürüsün!

B a l a c a   q a n q a l

Bürüsün!

B ö y ü k   q a n q a l

Çatıb Qızılgülü əzim,
Qərənfilin üstə gəzim!
Canın alım bu güllərin!

B a l a c a   q a n q a l

(*onun dediklərini təkrar edir*)

Çatıb Qızılgülü əzim,
Qərənfilin üstə gəzim!
Canın alım bu güllərin!

B ö y ü k   q a n q a l

(*Balaca qanqalın dediklərindən xoşhallanaraq*)

Həə... bax belə... afərin!
Ver əlini dost olaq,
Bütün gülləri yolaq.

(*Balaca qanqal əlini ona verir. Böyük qanqal onu qucaqlayaraq*)

Məni diqqətlə dinlə:
Biz sirdaşıq səninlə,
Qoymaram səni darda.

Bu güllər yüz ildir eləyir dava
Deyirlər bizimdir bu yer, bu hava.
Onlara dünyanı de kim verər, kim!
Onların gözünə gərək dağ çəkim!

(*Sıçrayaraq, əlinə iki ağac alır. Onların başında qırmızı lentlər var. O, ayağına dolaşan Balaca qanqalı təpikləyib, əlindəki lentləri göydə ildırım kimi cilvələndirərək, yenə nərə çəkir*)

Eheyy... necəsiz bir ildırım olub çaxım,
Bütün çəmənliyi yandırım, yaxım?!

(*Balaca qanqal da onun sözlərini təkrar edib əlindəki kiçik ağacları oynadaraq, Böyük qanqalı yamsılayır. Böyük qanqal, Balaca qanqalın hərəkətlərindən əsəbləşərək*)

Axmaq!
Ağzımı əyəndə cin boğur məni,
İstəyirəm tutub öldürəm səni.

(*O, Balaca qanqalın ardınca yüyürür ki, onu tutub əzişdirsin. Balaca qanqal qaçarkən ayağı kola ilişir və yıxılır. Böyük qanqal onu qaldırmaqdansa, təpikləyib döyür*)

Mən dünyada təkəm, tək,
Səndən mənə nə kömək?
Dur ayağa, gicfərə,
Salmışdın məni şərə.

Onu təpikləyir.

B a l a c a  q a n q a l

(*aldığı zərbədən yerindən tərpənə bilmir və yalvarıcı səslə*)

Qoy bir gəlim özümə...

B ö y ü k  q a n q a l

Keç, görünmə gözümə!
Avarasan, veyilsən,
Cinsimizdən deyilsən!
Öldürərəm burda qalsan,
Rədd ol, yalançı qanqalsan!
Sənin iş görməyə qüvvətin hanı,
Yerdombalanı?!

Meydandan çıxır və onun gedişinə uyğun musiqi səslənir.

Balaca qanqal

(*Balaca qanqal yumruqlarını düyümləyərək, Böyük qanqalın dalınca qaçıb, acıqlı-acıqlı onun ardınca*)

Yaxşı, hədələdin sən məni,
Mən yox eləyərəm səni.
Görərsən ki, bu gecə
Mən yalançıyam necə?
Sən nə qanırsan hörmət,
Lənət olsun sənə, lənət!

(*Yenidən Balaca qanqal çəmənə qayıdır və qəzəblə nəğmə oxumağa başlayır*)

Balaca qanqalın mahnısı:

Eyyy!.. Sən mənə demə yerdombalanı,
Balaca qanqalın var adı-sanı.
Döyüşlərdə qüvvətimi sınadım,
Bir qəhrəman kimi məşhurdur adım.

Nəqarət:

Başın göyə dəyir, ağlın dabanında,
Heç bir şey deyildi sənin baban da.

Nədən ötrü gəlmisən bu həyata,
Gəzirsən qollarını ata-ata.
Dost-aşnan kimlərdir? Pıtraq və Çayır!
İkisi də kölgəni qırmaclayır.

Nəqarət:

Başın göyə dəyir, ağlın dabanında,
Heç bir şey deyildi sənin baban da.

Balaca qanqal zarıldaya-zarıldaya Böyük qanqalın ardınca gedir. Güllər gülə-gülə koldan çıxırlar: “Xa... xa... xa... xa...”

Q ı z ı l g ü l

(*üzünü İncigülünə tutub təəssüflə*)

Hayıf, axmaqlara getdi vaxtımız,
Sən get, xəstələrə bir baş çək, ay qız.

İ n c i g ü l ü

Bunların heç ağlı yoxdur,
Gedim, ağır xəstə çoxdur.

İ n c i g ü l ü gedir. Balaca qanqal cığırla gedib bir bağa düşür, çəkmələrini soyunub dincəlir. Ağacın altından bir qoz tapıb yemək istərkən, uzaqdan bir səs eşidir. Ç a y ı r ı n çıxışına musiqi çalınır.

Ç a y ı r

Uuuu, uuuuu...
O kimdir bağımda meydan sulayır?

B a l a c a q a n q a l

Bəs o kimdir, çaqqal kimi ulayır?
Vurram sənə qırmacı.

Ç a y ı r

Danışma acı-acı!
Keç, yoldan gəlir Çayır.

(*Rişələrini şappıldada-şappıldada ona hücum edir*)

B a l a c a q a n q a l

(*rişələrdən birini tutaraq*)

Gəl də, kim səni sayır,
Rişə atıb, ilana
Oxşadırsan özünü.
İlana bax, ilana,
Keç, bərəltmə gözünü!
Xa... xa... xa... xa... maşallah,

Belə kərtənkələyə...
Bayaq Böyük qanqalla
Gəldim kəllə-kəlləyə,
Mən səndən qorxacağam?

Ç a y ı r

Şirəni soracağam...
Fuuuu, fuuuu...

(*Hər tərəfdən Balaca qanqala hücum edir*)

B a l a c a   q a n q a l

Bir qoz yemişəm cəmi,
Keç, sovurma şirəmi.

Çayırın rişəsini bir kənara atır. Ç a y ı r isə ondan əl çəkməyib hücuma keçir.

Ç a y ı r

Yaxşı düşdün əlimə.

B a l a c a   q a n q a l

Keç, dolaşma belimə!

Ç a y ı r

(*ondan əl çəkmir, onu sıxma-boğmaya salır*)

İndi qırılar dizin!

B a l a c a   q a n q a l

(*yalvarıcı səslə*)

Dəymə, sizinəm, sizin...

Ç a y ı r

Başınçun, bizimsən!

(*Onun yaxasından yapışır*)

Mən səni boğacağam!

Bunların səsinə Q ı z ı l g ü l və İ n c i g ü l ü gəlir.

Q ı z ı l g ü l

Ağlın itirib Çayır,
Dostunu qırmaclayır.

(*Onları aralamaq istəyir*)

İ n c i g ü l ü

(*Qızılgülə*)

Onun işi şərdir, şər!
Gedək, bizə ilişər!

Bu səsə Ç o b y a s da gəlir.

Ç o b y a s

(*döyüşən Çayır və Qanqala*)

Tullayın səhərçağı
Qıy vurub savaşmağı.
Hər tərəfdə toy-düyün,
Gül bayramıdır bu gün.

Ç a y ı r

(*Çobyasa*)

Axı, güldən mənə nə?..
Gəl, şallaq vurum sənə!

Ç o b y a s

(*Çayıra yaxınlaşıb, yavaş səslə qulağına*)

Sən yatmısan vay, vay, vay...
Bax, axır şirəli çay
Dağ başından, şamacan
Yüyür iç axşamacan...

Balaca qanqal bundan istifadə edib qaçır.

Ç a y ı r

(*Özünü itirmiş kimi*)

Hə, hə, hə, şirəli çay?
Mən yatmışam vay, vay, vay.

(*O da tez qaçır*)

Səhnə qaranlıqlaşır, alaqaranlıqda sahil görünür, dəniz ləpələnir. Çobyas və Qızılgül limanda var-gəl edərək Qərənfilin yolunu gözləyirlər. Layla musiqisi çalınır.

Q ı z ı l g ü l

(*sevinclə Çobyasa yanaşıb*)

Sss... sss... gəlir,
Eşidirsizmi küyü?

Ç o b y a s

(*başını yırğalayaraq*)

Dənizdir, ləpələnir.

(*O, dodaqlarını yalaya-yalaya*)

Görmürsən duzlu suyu
Üzümə səpələnir?

Q ı z ı l g ü l

(*dodaqlarını yalayır və çiçəyin ləçəklərini çəkib, fala baxırmış kimi*)

Gəlir-gəlmir, gəlir-gəlmir,
Gəlir-gəlmir, gəlir!

Ç o b y a s

Xoş gəlir doğma yurda,
Bir az dincəlim burda.

(*Qızılgülə söykənərək uzanır. Qızılgül Çobyasa layla çalır*)

Q ı z ı l g ü l ü n  l a y l a s ı:

Sahildə baş-başa verir qayalar,
Mənim də yoldaşım dincini alar.

Dikər göy dənizinə xumar gözünü,
Mən layla dedikcə yumar gözünü.
Lay... lay... lay...

Hava işıqlanır.

Q ı z ı l g ü l

Hər yanı işıq aldı,
Qərənfil harda qaldı?

Ç o b y a s

(*yuxulu*)

Darıxma,
Bu gün gəlməz, sabah var!
Axır ki, gəlib çıxar.

Q ı z ı l g ü l

(*Çobyası dümsükləyərək, dik durub sahilə doğru cumur və sevinclə*)

Çobyas! Ayıq ol, ayıq!
Sahildə durdu qayıq!

(*Onlar hər ikisi irəliləyir və Çobyas dik duraraq, gözlərini ova-ova sahilə doğru baxır... Qızılgül sevinclə*)

Odur, gəlir Qərənfil!
Al bayraqdır elə bil.
Tez ol qarşısına qaç,
Əvvəlcə sən söhbət aç.

Q ə r ə n f i l əynində al rəngli köynək çəmənə gəlir. P ı t r a q onu pusa-pusa gəlib, kolun dalında gizlənir.

Ç o b y a s

(*Qərənfilin qarşısına yüyürərək*)

Xoş gəlmisən Qərənfil,
Şad xəbərsən elə bil!

Qərənfil

(*əllərini onun boynuna dolayaraq*)

Dostlarım! Bir gizli söz deyim sizə,
Böyük bir xoşbəxtlik üz verib bizə.
Sevincgülümüzün toxumu gəlib,
Daha gül-çiçəyin canı dincəlib.

Qızılgül

(*sevinə-sevinə ucadan*)

Bu dünya gül-çiçəklə dolacaqdır,
Bütün xəstəliklər yox olacaqdır.

Çobyas

O gül bizə sevinc verəcək demək?

Qərənfil

Bəli, sevinəcək, güləcək ürək.
O gülün ətrilə dolacaq bağlar,
Şəfəqində yuyunacaq uşaqlar.
Alaq üstə zəhər kimi axacaq,
Qanqalları yandıracaq, yaxacaq!

Pıtraq

(*kolun dalından*)

Siz öləsiz, görməyəcəksiz onu!
Puça çıxacaq bu işin sonu!

Çobyas

(*Qərənfildən soruşur*)

Yaxşı, haçan göstərəcəksən bizə?

Qərənfil

Onu, qızıl günəş göndərib sizə.

(*Günəş kimi parlaq şarları göyə qaldırıb, toxumun bu olduğunu bildirir*)

O sehirli toxum, bax budur həmən,
Səpək, qoy sevinsin bu çöl, bu çəmən.

P ı t r a q

(*kolun dalından*)

Siz öləsiz, görməyəcəksiz onu!
Puça çıxacaq bu işin sonu.

Q ə r ə n f i l

Bu qədər toxumdan bir gül bitəcək,
Qalanları torpaq altda itəcək.
Sevincgülü açıb, sonra artacaq,
Alaqları rişəsindən dartacaq.
Qanqallar öləcək o gündən belə,
Sevincin şəfəqi axacaq elə.
Sora bilməz şirəmizi bir qanqal.

Ç o b y a s

(*sevincək*)

Oyna! Çal!
Elə ki, açdı gül,
Axşamacan sevin, gül...

Güllər sevinclə mahnı oxuyarlar.

G ü l l ə r i n z ə h m ə t m a h n ı s ı :

Gah dönürük uçan yelə,
Gah dönürük coşan selə.
Yayılıb obaya, elə,
Bəzəyirik təbiəti,
Bəxş edirik səadəti.

Nəqarət:

Qoy güllərin xoş iyində,
Körpə yatsın beşiyində,
Gözəlliyin keşiyində.
Bizik gecə-gündüz duran,
İnsanlara şənlik quran.

Qərənfil

(*gülə-gülə Çobyasa*)

A Çobyas, tez gətir kətməni, beli,
Gəlin sevindirək obanı, eli.
Biz Sevincgülünü becərək burda,
O, sevinc gətirsin bu doğma yurda.

(*Əlini Çobyasın çiyninə qoyaraq*)

Məhv eləyib düşməni,
Sevindirəcək səni.

Çobyas

Sevindirsin görüm, hanı?

Qərənfil

Sevincgülü güldürür çalışqanı.

Təkrar güllərin zəhmət mahnısı ucalır.

Zəhmət mahnısı:

Gah dönürük əsən yelə,
Gah dönürük coşan selə.
Yayılıb obaya, elə,
Bəzəyirik təbiəti,
Bəxş edirik səadəti.

Nəqarət:

Qoy güllərin xoş iyində,
Körpə yatsın beşiyində,

Gözəlliyin keşiyində,
Bizik gecə-gündüz duran
İnsanlara şənlik quran.

Hər üç dost – Qızılgül, Çobyas, Qərənfil mahnı oxuya-oxuya yeri belləyirlər, hamarlayırlar və toxumu səpib sulayırlar.

Q ə r ə n f i l

(*Çobyasın işgüzarlığını bəyənir və əlini onun çiyninə qoyaraq*)

Çobyas, zirəksən, zirək!
Bil, sənsən bizə dirək.

Ç o b y a s

(*Qərənfilə*)

Bizim aramızda yenə böl işi.

Q ə r ə n f i l

Çobyas, sənin olsun bütün çöl işi.
Gül-çiçəyi tez topla öz başına,
Tapşırıq ver dostuna, yoldaşına.
Sevincgülü duranda səhər çağı,
Qanqaldan, Pıtraqdan qoruyun bağı.
Düz çəmənə çəkin suyunu çayın.

Ç o b y a s

Baş üstə! Siz məndən olun arxayın.

Q ə r ə n f i l

(*Qızılgülə*)

Sən, Qızılgül, üzünü günə çevir,
Sevincgülü hərarəti çox sevir.

Q ı z ı l g ü l

Günəşə tutaram onun üzünü,
Qoy şəfəqlər qamaşdırsın gözünü.

(*Qızılgül yüyürə-yüyürə kolun dalında gizlətdiyi qutunu gətirib açır və içindən gözəl bir ulduz çıxararaq*)

Sevincgülü girəndə qızıl dona,
Bu ulduzu bağışlayıram ona.

Q ə r ə n f i l

Lap yaxşı olar onda,
Gəzər ulduzlu donda.
Çobyas! Keşikçi qoy çayın yolunda,
Bil ki, düşmənlərin var sağ-solunda.

Ç o b y a s

Baş üstə!

Q ı z ı l g ü l

Yenə də iş ver, yenə də mənə.

Q ə r ə n f i l

Sən çoxluca gübrə ver bu çəmənə.
Vedrəni al, çaladan gübrə daşı,
Qoy Sevincgülünün ucalsın başı.

Q ı z ı l g ü l

Yaxşı, söylə, haçan açacaq, haçan?

Q ə r ə n f i l

Sabah görəcəksən, onu gül açan.

P ı t r a q

(*kolun dalından öz-özünə*)

Ay açdı ha... əlləşin,
Ölməyibdir lələşin!

Ç o b y a s

(*sevincək, oynaya-oynaya güllərə*)

Sevincgülü açacaqdır sabaha,
Biz sevinib, şadlıq eləyək daha.

Güllər Qərənfilə həsr olunmuş mahnını oxuyurlar.

Q ə r ə n f i l  h a q q ı n d a  m a h n ı:

Qərənfili çox sevirik onu bil,
Sədaqətli bir yoldaşdır Qərənfil.
Şəfa verir Qərənfilin əlləri,
O şad edib, sevindirir elləri.

Bu zaman mahnının səsinə İ n c i g ü l ü gəlir.

İ n c i g ü l ü

(*Qərənfili görən kimi, ona tərəf yüyürüb, onunla görüşür*)

Kimi görürəm, kimi?!
Ey həkimlər həkimi.
Gəldin? Xoş gördük səni,
Abad eləyirsən bizim çəməni.
Söylə, görüm mənə, əkdiyin nədir?

Q ə r ə n f i l

Bu adi gül deyil bir xəzinədir,
Gərək yayaq onu uzaq ellərə!

İ n c i g ü l ü

Ehtiyatlı olaq, düşər əllərə.

Q ə r ə n f i l

Üstündə əziyyət çəkdik bir belə,
Qoyarıqmı, onu düşsün yad ələ?

İncigülü

Sevincgülü üçün bəs mən nə edim?
Bulaq suyu gətirməyə qoy gedim.

Qərənfil

Dayan! Bu gün keşikçimizsən bizim,
Sevincgülümüzü qoru, əzizim.

İncigülü

Mən onu çox istəyirəm özümdən,
Qorxmayın! Qoymaram onu gözümdən.

(*İncigülü keşikdə duraraq, Qərənfilə*)

Səp toxumu çölə, düzə,
Gözəl həyat gülsün üzə!
Qəşəng Sevincgülü bitsin,
Alaqlar məhv olub getsin.

Pıtraq

(*koldan*)

Ah, səni tutsun azar!
Biz ölməmişik, varıq!
Axırına baxarıq!
Bu saatca qaçaram,
Mən bu sirri açaram.

Qərənfil

(*güllərə*)

Yol ötür mərdimazar,
Düşmən əhvalatı eşitdi, əlbət!

Çobyas

Qorxuram törədə, böyük fəlakət,
Sevincgülümüzü bərk qoruyaq biz!

Q ı z ı l g ü l

Qızılgül deyərlər mənim adıma,
Nərə çəksəm gələrlər imdadıma.
Mən tutaram düşmənlərin yolunu,
Sındıraram qanadını-qolunu!

Xorun zəhmət mahnısı ucalır.

Z ə h m ə t  m a h n ı s ı:

Gah dönürük uçan yelə,
Gah dönürük axan selə.
Yayılıb obaya, elə,
Bəzəyirik təbiəti,
Bəxş edirik səadəti.

N ə q a r ə t:

Qoy güllərin xoş iyində,
Körpə yatsın beşiyində.
Gözəlliyin keşiyində,
Bizik gecə-gündüz duran,
İnsanlara şənlik quran!

Mahnı sədaları altında pərdə yavaş-yavaş enir.

## İKİNCİ PƏRDƏ

Sübh alaqaranlıqda ildırım çaxır. Külək P ı t r a ğ ı süpürləyib, B ö y ü k  q a n q a l ı n xarabalığına salır. Çürük bir budaqda oturmuş B a y q u ş şən nəğmə oxuyur. Böyük qanqal hələ səhər yuxusundadır.

P ı t r a q

(*Böyük qanqalın qulağına*)

Qanqal həzrətləri, dur!
Düşmənlərə tələ qur!

Böyük qanqal

(*başını yastıqdan qaldırıb, yuxulu-yuxulu Pıtrağa baxır*)

Pıtraq nə deyirsən, nə?

Pıtraq

Xəbərə gəldim sənə.

Böyük qanqal

(*ayaqlarını çarpayıdan sallayaraq, çox acıqlı Pıtrağa baxaraq*)

Yenə də səhər-səhər
Yuxuma qatdın zəhər.
Bir de görüm sözünü,
Ağac deşsin gözünü.

Pıtraq

(*mat-mat Qanqalın üzünə baxır. Qanqal balışın altından ağac götürüb, onun üstünə cumur, Pıtraq isə əsə-əsə əllərini göyə qaldıraraq*)

Qərənfil kam alır bizdən,
Bizi qovdu yerimizdən.
Orda zəhər gülü əkib,
Gözümüzə bir dağ çəkib.

Böyük qanqal

(*əsəbi halda*)

Nə? Nə?

Pıtraq

(*Böyük qanqalı sığallaya-sığallaya*)

Əziz əlahəzrətim,
Sənə var bir söhbətim.
Xəbərin yox xəbərdən,
Toy-bayramdır səhərdən.
Sevincgülü əkiblər,
Alağa dağ çəkiblər.

Gül açacaq sabaha,
Biz öləcəyik daha.
Bircə sənə var güman.

Böyük qanqal

Dağ başını aldı duman.

(*Üzünü Pıtrağa tutub*)

Göylər nura boyanmamış,
Qərənfil heç oyanmamış,
Gətir onu görüm nədir?

Pıtraq

O gül deyil, xəzinədir,
Sevinc verir təbiətə.

Böyük qanqal

Sallam onu əziyyətə!

Pıtraq

(*əzilə-əzilə*)

Qoy məhv olsun gül-çiçək,
Evlərinə biz köçək.

(*Böyük qanqalın başına hərlənə-hərlənə onun üst-başını təmizləyir*)

Böyük qanqal

(*ayağını birdən yerə vuraraq*)

Nə durmusan sərsəri,
Gətir onu, gəl bəri!
Rədd ol burdan bayıra,
Get xəbər ver Çayıra!
Qoy tez gəlsin yanıma,
Lərzə düşdü canıma.

Pıtraq gedir. Böyük qanqal əsəbi halda eyvanda var-gəl edir. Bu zaman səhnə arxasından səs eşidilir. Balaca qanqal haray çəkib, Böyük qanqalın malikanəsinə gəlir, onun ayaqlarına yıxılır.

B ö y ü k   q a n q a l

(*onu ayağılə itələyərək öz-özünə*)

Görəsən nə hiyləsi var?
Hardan gəldi bu ziyankar?

(*Üzünü Balaca qanqala tutub, istehzalı gülüşlərlə ona*)

Xa... xa... xa... xa...
Həə... gəldin hayıf alasan?
Bu, çox da deyil asan!

B a l a c a   q a n q a l

Mən dəyişmişəm daha,
Gəldim sənə pənaha.
Düşmüşəm yaman hala,
Məni tutub az qala
Öldürmüşdü Qərənfil.

B ö y ü k   q a n q a l

Ölməlisən onu bil!
Çək cəzandır, yaramaz!

B a l a c a   q a n q a l

İnsafın olsun bir az,
Mənim günahımdan keç,
Sözündən çıxmaram heç.

B ö y ü k   q a n q a l

(*təpiyi ilə onu itələyərək*)

Dur! Sürünmə bir iş gör!
Yeri, çəpərləri hör!
Bərkidək qərargahı.

B a l a c a   q a n q a l

(*ayağa qalxaraq*)

Baş üstə şahlar şahı.

Sevincək gedir. Böyük qanqalın musiqisi çalınır və o da musiqi sədaları altında gedir. Hava yavaş-yavaş işıqlanır. Sevincgülü açılmaq üzrədir. Qızılgül səhəngi ilə səhnəyə gəlib, gülləri sulayır. Birdən Sevincgülünün açıldığını görüb, düz onun üstünə yüyürür:

Q ı z ı l g ü l

Dostum, ayrılmaram dünyada səndən,
Qoruyaram səni azğın düşməndən.
Sinəmi dağ kimi verərəm sənə,
Qoymaram heç zaman şəfəqin sönə.

(*Qızılgül yüyürüb bir yüksəkliyə çıxır və öz sevincini aləmə elan edir*)

Sevincgülü bitib burda,
Sevinc verir bizim yurda.
Getmə, dayan, ay yol ötən,
Nə gözəldir bizim Vətən!

Qızılgül Sevincgülünün başına dolana-dolana ona qulluq edir. Üstünə su çiləyir. Bu zaman Ç o b y a s ı n səsi gəlir.

Ç o b y a s

Çobanyastığı mənəm,
Alaqlara düşmənəm.
Vətəndir mənim anam,
Mən Vətənə qurbanam!

Q ı z ı l g ü l

(*Çobyasın qarşısına çıxıb sevinclə*)

Qızıl rəngli şarın var,
Günəşə oxşarın var.
Bir nəğmə oxu mənə,
Şad xəbər verim sənə.

Ç o b y a s

Baş üstə.

Ç o b y a s ı n Q ı z ı l g ü l h a q q ı n d a m a h n ı s ı:

Gülün ən qəşəngisən,
Gözəllər çələngisən.

Üfüqlərdən almısan
O çəhrayı rəngi sən!

Baxdım sənin qönçənə,
Xoş ətir saçdın mənə.
Ləçəklərin içindən,
Gözlərin gülür yenə.
Gülümüz açıb əlbət,
Qiyamətdir, qiyamət!

Qızılgül

Öldürəcək qanqalları həmən gül,
Sevin qəlbim, sevin, gül!

Çobyas

Torpaqdan ayrılsan məhv olar həyat,
Səninlə şadlanır gülür kainat.
Göydə qanadlanır gözəl arzular,
Sevincgülü səndə böyük hikmət var.

(*Çobyas Sevincgülünün yanında oturub ona nəvazişlə baxaraq Qızılgülə*)

Ay qız, belə şad gündə
Bəs Qərənfil niyə yoxdur?
Sevincgülü üstündə
Onun zəhməti çoxdur.
Unutmusan yoldaşı?

Qızılgül

Bərk qarışıqdır başı,
Macal yox Qərənfilə.
Ağır xəstələr ilə
Doludur xəstəxana,
Çıxa bilmir heç yana.

(*Yerdə uzanan gülləri göstərərək*)

Bax, onlar xəstə güldür,
Çoxusu ölümcüldür;
Qanqal salıb bu hala.

Ç o b y a s

Lənət azğın qanqala!

Q ı z ı l g ü l

Gərək məhv edək onu,
Darıxma, çatıb sonu!

X o r

(*Sevincgülünün açılması mahnısını sözlə ifa edir*)

Açıl, ay gülüm, açıl,
Sən günəş kimi saçıl.
Əlvan şəfəqlərin var, –
Mavi, narıncı, yaşıl.

Sevincgülünün tamamilə açıldığını görən güllərin hamısı birlikdə musiqi ilə mahnı oxumağa başlayırlar.

M a h n ı :

Sevincgülü açıb gəl,
Yerə günəş saçıb, gəl.
Gözəl gülü görməyə,
Harda olsan qaçıb gəl!

Baxaraq üzümüzə,
Rəqs edir süzə-süzə.
Gözəl qönçələrindən
Gün düşür çölə, düzə.

Güllər oxuyub, oynayandan sonra İ n c i g ü l ü gəlir. Bunu birinci görən Çobyas onun qarşısına qaçır.

Ç o b y a s

Çiçəklərin şöhrətisən, şanısan,
Sən ürək dərmanısan.

İncigülünün gözləri qamaşır. O, Sevincgülünə tərəf baxır.

İ n c i g ü l ü

Nə olubdur, ay aman,
Gözüm qamaşdı yaman.

Q ı z ı l g ü l
(*sevincək*)

Sevincgülümüz açıb,
Aləmə işıq saçıb.

İ n c i g ü l ü
(*kuzəni Qızılgülə verərək*)

Al, üzünə su çilə,
Qoy o, tez gəlsin dilə.

Qızılgül kuzəni alıb, Sevincgülünə su çiləyir.

İ n c i g ü l ü
(*Sevincgülünə yanaşaraq*)

Bu həqiqətdir, yoxsa yuxu?

Q ı z ı l g ü l

Sən ona şən bir mahnı oxu!

İncigülü məmnuniyyətlə razı olub mahnı oxumağa başlayır.

İ n c i g ü l ü n ü n  m a h n ı s ı:

Kölgəsində söyüdün,
Yavaş-yavaş böyüdüm.
Ağca gül açdım deyə,
Oxşadım mirvariyə.
Gülümün inciçiçək,
Söylədilər adına.
Haçan ağrısa ürək,
Mən çatıram dadına.

Digər güllər hamı: “Haçan ağrısa ürək, sən çatırsan dadına” deyə təkrar edirlər. Mahnı qurtaran kimi Sevincgülünün oyanma musiqisi çalınır. Sevincgülü oyanır.

S e v i n c g ü l ü

(*üzünü güllərə tutub*)

Dostlar! Xoş gördük sizi!

İ n c i g ü l ü

(*sevinclə*)

O, salamlayır bizi,
Ay aman necə gülür?
Gözündən nur tökülür,
Mənə baxıb sevindi.

P ı t r a q

(*təpə dalından acıqlı-acıqlı*)

Çox çıxmısan özündən,
Onu qoparram indi,
Yaş tökülər gözündən.

İ n c i g ü l ü

(*Sevincgülünün yarpaqlarını sığallaya-sığallaya*)

Xoş gəlmisən bu dünyaya,
Ətrin yetsin günə-aya.

S e v i n c g ü l ü

(*nəvazişlə*)

Çox sağ olun!

İ n c i g ü l ü

Lap xoşum gəldi ondan.
Əynindəki o dondan
Tikdirərəm özümə.

Q ı z ı l g ü l

(*İncigülünü kənara çəkərək*)

Bir qulaq as sözümə!
Bu adi bir gül deyil,
Xoşbəxtlik gülüdür bil!

İ n c i g ü l ü

Xoşbəxtəm elə mən də,
Parlayıram çəməndə.

Musiqi sədaları altında Sevincgülünün səsi ucalır.

S e v i n c g ü l ü

Ey alovlu günəş, ey canlı həyat,
Əl verin dost olaq, gülsün kainat.
Biz birlikdə düşmənləri məhv edək,
Bu gözəl həyatda sevinək, gülək!

Qızılgül Sevincgülünün səsini eşitdikdə özünü sevincindən itirir. Birdən uzaqda Qərənfili görür. Pıtraq onu pusa-pusa gəlib kol dalında gizlənir.

Q ı z ı l g ü l

(*Qərənfilin qarşısına yüyürərək onu sevinclə çağırır*)

Tez gəl çıx, ay Qərənfil,
Sevincgülü açıb dil!

Q ə r ə n f i l

(*daxil olur*)

Lap danışır yəni?
Bir göstər hanı, hanı?

(*Onlar Sevincgülünə yaxınlaşırlar. Qərənfil onu salamlayır*)

Salam, ey sevimli gül,
Gəl bizimlə sevin, gül!

Sevincgülü ilk addımlarını atır. Musiqi sədaları ucalır. Qızılgül kolda gizlətdiyi qutunu gətirib açır və içindən parlaq ulduzu çıxarıb, Sevincgülünün telinə taxır. Sevincgülü ulduz üçün öz təşəkkürünü onlara bildirir. Bu zaman Ç o b y a s gəlir.

S e v i n c g ü l ü

(*üzünü dostlarına tutur*)

Sizin zəhmətiniz getmədi hədər!

Q ə r ə n f i l

(*onun səsini eşitdikdə daha da sevinərək*)

Sən sevinc gətirdin bu dünya qədər!

S e v i n c g ü l ü

Alın, bu sevinci əlimdən, alın,
Göyün zirvəsinə qədər ucalın!

Sevincgülü ovuc-ovuc zərli yarpaqları qoynundan çıxarıb Qərənfilə verir. Qərənfil yarpaqları özünün və dostlarının döşünə taxır, qalanlarını isə qutuya qoyur. Hamı Sevincgülünə təşəkkür edir. Pıtraq yenə təpə dalından boylanıb, həyəcan keçirir. O, fürsət axtarır ki, Sevincgülünü qaçırsın.

S e v i n c g ü l ü

(*təvazökarlıqla*)

Dostdan əsirgəməz heç kim varını!
Uçub ulduza, aya,
Sevinc yarpaqlarını səpərsiz bu dünyaya!

Q ə r ə n f i l

Baş üstə!

Q ı z ı l g ü l

Qoy sevinsin nə ki var,
Bu dünyada insanlar.
Ay qız İnci, bəri dur,
Səndən xahişim budur;
Heç kəs bilməsin hələ,
Gülümüz düşər ələ.

İ n c i g ü l ü

Ay qız, burax qolumu
Mən getdim, xəstələrim
Gözləyirlər yolumu.
Sən məndən arxayın ol!

(*Gedir*)

“Qərənfili çox sevirik” mahnısı səslənir.

Ç o b y a s

Həə... bu gün mənim də başımdan aşır işim,
Gərək on beş xəstənin sarğısını dəyişim.

Q ə r ə n f i l

(*üzünü ikinci İncigülünə tutaraq*)

Çoxdan yayılmayır hər yana ətir,
Lalədən, Nərgizdən bir xəbər gətir.

İ k i n c i   İ n c i g ü l ü

Sorub şirəsini gülün o ki var,
Məhv etdi onları bütün qanqallar.

Q ə r ə n f i l

A Qızılgül, bu iti tikanı al,
Sevincgülünün ətrafında gəz.
Günortaya kimi sən növbətçi qal,
Səni İncigülü edəcək əvəz.

(*Gedir*)

Qızılgül əlində tikan Sevincgülünün keşiyini çəkir. İşıq sönür. İşıqlananda Sevincgülünün yanında İncigülü görünür. O, Qızılgülü əvəz edib, keşikdə durur.

S e v i n c g ü l ü

İncigülü, siz növbətçisiniz yenə?

İncigülü

Bəli, yenə keşik çəkirəm sənə,
Mən gərək üstündə yarpaqtək əsim.

Sevincgülü

Çox bürküdür, lap darıxır nəfəsim.

İncigülü

Bax, meşədən bulaq axır bir qəşəng,
Qaçım, sənə su gətirim bir səhəng.

İncigülü səhəngi əlinə alıb gedir. Qanqalın musiqisi çalınır.

Pıtraq

(*səsini Qızılgülün səsi kimi çıxararaq*)

Sevincgülü, gəl qaçaq,
İndi tufan qopacaq!
O ətrafdan gələn qum
Bizə edəcək hücum.

Sevincgülü

İstəyir üstümə lap atəş yağa,
Getmərəm, bağlıyam mən bu torpağa.

Pıtraq

(*tələsik*)

Qərənfil dedi ki, gəlsin bu saat!
Sevincgülü, qolunu boynuma at!

(*Pıtraq, Sevincgülünün qolunu öz boynuna aşırıb onu aparır*)

İşıqlar sönür. Alaqaranlıqdır. Qanqalın xarabalığı görünür. Böyük qanqal əsəbi halda otaqda var-gəl edir. Balaca qanqal və Çayır da Böyük qanqalın ardınca o yan-bu yana gedərək həyəcan keçirirlər.

Böyük qanqal

Güllər üstümüzə üsyan etdilər,
Bizim qanqallığı viran etdilər!

Vayy... evi yıxıldı bütün alağın,
Yurdumuzu etdilər darmadağın.
Şirəsiz dünyada yaşamaz alaq,
Güllərdən şirəni biz necə alaq?

B a l a c a   q a n q a l

Əlahəzrət, Qərənfildir ixtiyar,
Bil ki, onun əlində nə desən var.

B ö y ü k   q a n q a l

Tezliklə məhv edək o Qərənfili!
Qanqalları çürüdüb bütün ili.

B a l a c a   q a n q a l

Görmürsən nə hala salıb o, məni?
Mən hazıram öldürəm o düşməni.

B ö y ü k   q a n q a l

(*toppuzunu yerə vura-vura*)

Toppuzla başına sən vura-vura,
Məhv elə, ayağı dəyməsin bura!
Kömək edər sənə dostumuz Çayır.
Səs gəldi, deyəsən o, addımlayır,
Çıx, bax gör kimdir o kəs?

Balaca qanqal eşiyə çıxarkən Çayırı görüb qayıdır:

B a l a c a   q a n q a l

Çayırdır, qaranəfəs... gəlir

Ç a y ı r  təngnəfəs içər daxil olur və baş əyib Qanqallara təzim edir:

Ç a y ı r

Xoş görmüşük, cənablar,
Söyləyin nə xəbər var?

Böyük qanqal

(*ona piyalə uzadaraq*)

Bu şirə çəkilib qızıl lalədən,
Hələ al iç bunu zər piyalədən
Sonra mətləbə keçək.

Çayır

Yaxşı ver onu içək.

(*Piyaləni alıb şirəni içir və təşəkkür edir*)

Böyük qanqal

(*ona oturmaq üçün yer göstərir və üzünü ona tutaraq*)

Bu gündən sən oldun mənim sağ əlim,
Güllərin əlindən daha dincəlim.
Çağırdım ki, tutasan Qərənfili,
Zülmətə atasan, kəsilsin dili.

Balaca qanqal

O qalsa çox ziyan verəcək bizə,
Qaldırır gülləri əleyhimizə.

Çayır

Kim, kim? O çərənçi Qərənfil?
O heç, mənim üçün çöpdür elə bil.
Bir rişəmlə mən nəslini qıraram,
Bircə anda boynunu sındıraram.
Söylə! Kimi əmr eləyirsən daha?

Böyük qanqal

Qızılgül də oturur bizə baha.

Balaca qanqal

Qərənfillə onu birgə dara çək.

Ç a y ı r

Səbr edin, bir qədər düşünək gərək.

B a l a c a   q a n q a l

Sevinc güllərini demirsən hələ...
Onları ötəcək o, gələ-gələ,
Qanqallara gətirəcək müsibət.

Ç a y ı r

O gül deyil, fəlakətdir, fəlakət!

B ö y ü k   q a n q a l

Pıtraq gətirəcək o gülü indi.

Ç a y ı r

(*Sevincgülündən qorxuya düşərək yalandan əsəbi halda*)

Doğrudan? Ürəyim yaman sevindi.

B ö y ü k   q a n q a l

Hansı cəhənnəmdə qaldı bu Pıtraq?

B a l a c a   q a n q a l

İndiyəcən gələrdi, olsaydı sağ.

B ö y ü k   q a n q a l

Kim bilir, düşmənlər ətrafda çoxdur.

(*Çayırın fikrə getdiyini görüb üzünü ona tutaraq*)

Bəlkə məhv etməyə mümkünün yoxdur?

Ç a y ı r

(*özünü pərt etməyərək*)

Bir tədbir görürəm burda bayaqdan,
Kim yaxa qurtarar bu qırxayaqdan?

Göy gurultularının sədaları altında Pıtraq qoltuğunda Sevincgülü təngnəfəs Qanqalın malikanəsinə yaxınlaşır. Uzaqdan Sevincgülünün səsi eşidilir.

Sevincgülü

Pıtraq apardı məni!
Tutun, tutun düşməni!

Onlar hər üçü eyvana çıxır.

Çayır

(*üzünü Qanqala tutaraq*)

Bayaqdan intizardaydın,
Pıtraq gəlir gözün aydın...

Pıtraq

(*Sevincgülünü Qanqala təqdim edərək*)

Onu kötüyündən qoparıb qaçdım,
Onların başına min oyun açdım.

Böyük qanqal

(*ağzını büzüb, Sevincgülünə nəzər salır və üzünü Çayıra tutaraq*)

Bu necə şeydir, Çayır?
Bəlkə Pıtraq sarsaqlayır?

Böyük qanqal

(*əl vurub görür ki, Sevincgülü tərpənmir. O yenə Çayıra müraciətlə*)

Deyəsən, axı keydir?

Çayır

Dəymə! Qorxulu şeydir?

Balaca qanqal

Vurma əlini, dağılar!

S e v i n c g ü l ü

(*birdən çığıraraq*)

Rədd olunuz sarsaqlar!

B ö y ü k   q a n q a l

(*diksinərək, əsəbi halda*)

Sən sarsaq deyirsən əlahəzrətə?
Pıtraq, apar onu tulla zülmətə!
Rədd olsun, yaxşı gül açmayıb hələ,
Bizim başımızı saldın cəncələ.

Ç a y ı r

(*üzünü Qanqala tutaraq*)

Gül açdı, o qoymaz yaşasın alaq,
Körpəlikdən gərək canını alaq!

Sevincgülü yavaş-yavaş qollarını açaraq düşmənlərin qarşısında rəqs etməyə başlayır. Onun qollarının hər hərəkətindən alaq otları büzüşüb sısqalaşırlar.

B ö y ü k   q a n q a l

(*başını tutaraq*)

Aman çatladı başım,
Kömək et, əziz sirdaşım!

Ç a y ı r

Pis haldayam mən özüm,
Birdən qaraldı gözüm.

Sevincgülü Balaca qanqalın yanında rəqs etdikcə Balaca qanqal ilan kimi qıvrılır.

B a l a c a   q a n q a l

(*Sevincgülünə yalvara-yalvara*)

Mənə dəymə, ay aman,
Ürəyim sancır yaman.

S e v i n c g ü l ü

(*gözünü Böyük qanqala dikərək*)

Ey... məni yaxşı tanı!

B ö y ü k  q a n q a l

(*təlaş içərisində*)

Birləşin, birləşin tutaq şeytanı!

Alaq otları bir neçə dəfə birləşərək, Sevincgülünü tutub qollarını bağlayırlar. O çırpınır, müqavimət göstərir, lakin xilas ola bilmir.

B ö y ü k  q a n q a l

(*qəzəbli bir halda*)

Gərək verim sənə ən böyük cəza!

S e v i n c g ü l ü

(*əsəbi halda üzünü Qanqala tutaraq*)

Nifrət, azğın, yaramaza!

B ö y ü k  q a n q a l

(*Sevincgülünü ağaca söykəyərək*)

Kəs səsini, sus!..
Ömürlük qoyaram mən səni susuz!

(*Sonra üzünü Balaca qanqala tutaraq*)

Apar tulla bunu birbaş zülmətə,
Onu həsrət qoyum bu təbiətə!

B a l a c a  q a n q a l

(*Sevincgülünü çəkə-çəkə alaq otlarına*)

Sevincgülü kimi güclüsü yoxdur,
Onun biləyində qüvvəti çoxdur.

Böyük qanqal

(*Balaca qanqala*)

Səninkidir bu dünyada nəyim var,
Qoy gözüm görməsin, tez onu apar!

Balaca qanqal Sevincgülünü qabağına salaraq zülmətə aparır. Böyük qanqal köks ötürür, yorğun halda taxtın üstə yıxılır. Çayır yaxasının düymələrini açıb, təngnəfəs bir kənarda oturur. Pıtraq isə bir kötüyə dirsəklənərək tərini silir. Böyük qanqal yorğun halda oturur. Alaq otları Sevincgülünü zülmətə salıb, hərə öz yerində gəlib oturur və dincəlirlər.

Böyük qanqal

(*piyalələrə şirə doldurub*)

Bu, mənim qanımı qaraltdı bütün,
Gəlin yavaşca içək şirəmizi,
Pıtraq da oynayıb şad etsin bizi.

Pıtraq zümzümə edə-edə oxumağa və rəqs etməyə başlayır.

Pıtrağın mahnısı:

Yüzdən artıq yaşım var,
Saman dolu başım var.
Mən yedim ballıbadı,
Ağzımda qaldı dadı.

Nəqarət:

Əldən-ayaqdan sazam,
Gülməli oyunbazam.

Mən Qanqala nökərəm,
Önündə diz çökərəm.
Güldürərəm Qanqalı,
Qoy açılsın əhvalı.

Nəqarət:

Əldən-ayaqdan sazam,
Gülməli oyunbazam.

Al bunu çiyninə sal,
Soyuq dəyər, a Qanqal.
Sənsən dövlətim, varım,
A mənim hökmdarım.

(*Örtüyü Qanqalın çiyninə salır*)

Nəqarət:

Əldən, ayaqdan sazam,
Gülməli oyunbazam.

Çayır

(*Pıtraq rəqs etdikdən sonra, üzünü Qanqala tutaraq*)

İndi böyüyümüz rəqs etsin gərək,
Sevinək, gülək.

Böyük qanqal

(*vahiməli bir əzəmətlə qalxıb, alaqlara göz gəzdirir. Pıtraq tez yüyürüb onun ətəklərindən yapışır, Qanqal üzünü ona tutaraq*)

Keç, yapışma gənə kimi,
Sən heç nəydin mənə kimi,
Cəng... cüng...

(*Sonra Çayır ın üstünə bağıraraq*)

Çayır, çıxma yer altından cin kimi,
Mənəm bütün yer üzünün hakimi,
Cəng... cüng...

(*Ən nəhayət, Balaca qanqala üz tutaraq*)

Güllər səni öldürmüşdü az qala,
Sən qurban olasan Böyük qanqala.
Cəng... cüng...

Caz musiqisi çalınır. Qanqal rəqs edir. Birdən güllərin gəlişini duyur, dərhal dayanır. Güllər cəngavərliklə irəliləyirlər. Böyük qanqal başını tutur.

B ö y ü k  q a n q a l

(*dəhşətlə*)

Güllər hücum edir bu bir sirdir, sirr!

P ı t r a q

Bəlkə qaçaq, bizi alarlar əsir.

B ö y ü k  q a n q a l

Möcüzədir! Bunlar necə dirildi?

P ı t r a q

(*oynaya-oynaya*)

Öldürmüşük bir ildi.

B ö y ü k  q a n q a l

Güllər hardan aldı belə qüvvəti?
Kim verdi onlara bu fərasəti?

Ə k s - s ə d a

İnsan və həyat!

B ö y ü k  q a n q a l

(*ağzını əyə-əyə*)

İnsan və həyat...

(*Üzünü Pıtrağa tutub*)

Pıtraq! Tikanları bir-bir bura at,
Onlara göstərək "İnsan və həyat!"

Bu danışığı eşidən güllər tez səhnəyə daxil olurlar. Q ə r ə n f i l ən öndə durub, qanqala hökm edir və bir tikanlı budaqla Qanqalın üstünə hücum edir.

Qərənfil

Çox danışma!..
Tez ol Sevincgülünü ver!
Alt-üst olar indi bu yer!

Böyük qanqal

Sən yurdsuz-yuvasız qoymusan məni,
Kim icazə verdi tutdun çəməni?
Biz harda yaşayaq bəs?

Qərənfil

Çığırma, səsini kəs!..
Əzəldən güllərin çəməndir yeri!

Böyük qanqal

Çox danışma yazıq, geri dur, geri!
Güllərin orada nədir azarı?
Külə döndərərəm mən çəmənzarı.
Sorub axıracan biz şirənizi,
Öldürüb, torpağa sərərik sizi!

Qərənfil

Qaytar Sevincgülünü bu saat,
Divan tutar sənə indi kainat!
O, təzə gül açıb, körpədir hələ,
Verməsən, qopacaq indi zəlzələ.

Onlar bir-birilə vuruşa girişirlər, Böyük qanqal köməyə gələn Çobyası itələyir, bunu görən Qərənfil çığıraraq Qanqala: "Ey, ona toxunma, çıxma özündən!" deyib Böyük qanqalı yerə yıxır.

Böyük qanqal

(*ayağa durub, acı-acı Qərənfilə baxaraq*)

Mənim yaxşılığım gəlsin gözündən,
Sənə mən verdim o boyda talanı.

Qərənfil

Sən bir adət eləmisən yalanı,
Çobyas, yalançının cavabını ver!

Çobyas əlində tikanlı budaqlar Qanqalın üstünə cumur.

Qərənfil

(*üzünü Qanqala tutur*)

Bil ki, insanındır bu hava, bu yer,
Biz isə xoşbəxtlik veririk ona.

Döyüşürlər.

Balaca qanqal

(*asta-asta qollarını çirməyib, guya işə girişir. Ancaq o tullanıb çəpərin üstə oturur və ordan*)

Bu saat ömrünüz çatacaq sona...

İki qərargahda vuruşma şiddətlənir.

Pıtraq

(*çəpər üstə oturub, ayaqlarını sallayaraq onları oynada-oynada*)

Mən qoymaram bir dənə də gül olsun.

Böyük qanqal

(*Pıtrağı bu vəziyyətdə görüb, ona acığı tutur*)

Döyüşçüyə bax, başına kül olsun!

Balaca qanqal

Vayy... güllər bizi qırıb çatdı!

Böyük qanqal

Axmaq Çayır harda batdı?

Ç a y ı r

(*ağac altından sıçrayaraq*)

Mən burdayam, əlahəzrət.

B ö y ü k  q a n q a l

Sənin üzünə lənət!

Ç a y ı r

Gicəllənirdi başım,
İcazə ver Qərənfillə savaşım.

B ö y ü k  q a n q a l

Toppuzum istəyir lap səni əzə,
Dava vaxtı nə icazə!

Çobyas fit çala-çala və oxuya-oxuya Çayıra yaxınlaşır.

(*Böyük qanqal onun qarşısında durub*)

Dayan, ayaq üstə şək!
Gəlin indi deyişək.
Bu meydan, bu da ki, siz,
Bilinsin hünərimiz!

Böyük qanqal Çayıra işarə edir ki, deyişə başlasın.

Ç a y ı r

(*aşıqyana rəqs edə-edə oxumağa başlayır*)

Var uca qamətimiz,
Gücümüz, qüvvətimiz.
Gülü qorumasaq biz,
Yel aparsa neynərsən?

Ç o b y a s

Sizdən bizə nə dayaq?
Soldurur bizi alaq.

Gələndə el bayramı
Dostuna, yoldaşına,
Gül bağışlayır hamı,
Gül olmasa neynərsən?

Ç a y ı r

Dosta verim gül, niyə?
Güldən olmaz hədiyyə.
Solub beş-altı günə
Gül düşər yaman günə.
Görüm onda neynərsən?

Ç o b y a s

Gedəndə ad gününə,
Güllər aparır hamı.
Dostunun şad günündə,
Gül olmasa neynərsən?

Ç a y ı r

Gülün adını çəkmə!
Dostunun ad günündə
Ya köynək al, ya çəkmə!
Gül-çiçəyi neynərsən?!

Ç o b y a s

Başlananda dərs ili,
Aparırlar məktəbə
Laləni, Qərənfili,
Gül olmasa neynərsən?

Ç a y ı r

Ağlın var gülləri əz!
İlk dərs günü məktəbə
Gül aparmağa dəyməz!
Yolda solar neynərsən?

Ç o b y a s

Güldən gözəl nə var bu kainatda?
Gül müşayiət edir bizi həyatda.
Gülü çətin başa düşərsən, çətin,
Qırıb-dağıtmaqdır sənin adətin.

Ç a y ı r

Düz demirsən, qəşəngdir qamətimiz,
Güllərdən də artıqdır hörmətimiz.

Q ə r ə n f i l

Qanqala bax, bizə toyxana qurub...
İnanmırıq sizin kimi namərdə!
İstəyirsiz arxadan zərbə vurub,
Gülləri salasız bir yaman dərdə!

Vuruş yenidən qızışır. Qanqal yerə çökür. S e v i n c g ü l ü n ü n musiqisi çalınır və Sevincgülü görünür.

Q ə r ə n f i l

(*sevinclə qollarını qaldıraraq*)

Qalib gəldik, nəhayət,
Bütün alaqlara nifrət!

Q ı z ı l g ü l

(*Qanqalın ardınca yüyürərək*)

Ölməlisən, yaramaz,
Səni sağ qoymaq olmaz!

İncigülünün boynu bükükdür. Onu gizlicə Çayır yaralayıb qaçmışdır. Sevincgülü öz ləçəklərini onun qarşısında açaraq, onu nura boyayıb sağaldır.

S e v i n c g ü l ü

(*bir təpəyə qalxaraq*)

İnsanlar! Yaşayın mərdliklə hər an,
Ömrünüz görməsin qüssə heç zaman.

Birləşin alaqlar bütün məhv olsun,
Sizin həyatınız sevinclə dolsun!

İşıq zəifləyir. B a l a c a  q a n q a l kol dibində inildəyir. B ö y ü k  q a n q a l ətrafına göz gəzdirə-gəzdirə çəmənliyə gələrək gözucu Balaca qanqala baxır.

B a l a c a  q a n q a l

(*onu görən kimi*)

Əlahəzrət, qaldım tək,
Dostuna elə kömək.
Aman... sancır ürəyim,
Neyləyim mən, neyləyim?
Dostumsan, Böyük qanqal,
Getmə, gəl yanımda qal,
Mən ölürəm deyəsən.

B ö y ü k  q a n q a l

Gərək kötək yeyəsən!

B a l a c a  q a n q a l

Kötək ağrını kəsər?

B ö y ü k  q a n q a l

Kəsər, kəsər, gicbəsər!

B a l a c a  q a n q a l

Kəsməz, bacımı çağır.

B ö y ü k  q a n q a l

Kəs səsini, az bağır!
Nə gəzir burda bacın?
Çıx altından ağacın!

B a l a c a  q a n q a l

Vayy... ağrıyır ürəyim.

B ö y ü k  q a n q a l

Gözüm aydın, neyləyim?

(*Balaca qanqal dura bilmir, ancaq başını qaldırır. Böyük qanqal ona*)

Dura bilmirsən, az bağır!

B a l a c a  q a n q a l

Onda get gülləri çağır.

B ö y ü k  q a n q a l

Güllər gəlməz,
Saymaz mənim sözümü.
Mən qaçım, heç göstərməyim özümü.

(*Yan-yörəsinə baxa-baxa qaçır*)

B a l a c a  q a n q a l

(*inildəyə-inildəyə*)

Yenə atdı məni bu mərdimazar,
Öldürəcək məni burda bu azar.
Ay yol ötən... getmə, dayan!..

Q ı z ı l g ü l çəməndə görünür, ətrafa göz gəzdirir, Balaca qanqalı görür.

Q ı z ı l g ü l

(*ondan soruşur*)

O kimdir zarıldayan,
Uzanıb daşın üstə?
Görüm kimdi o xəstə?

B a l a c a  q a n q a l

Mənəm, dostum, hardasan?

Q ı z ı l g ü l

Nə var, yoxsa dardasan?

B a l a c a   q a n q a l

Bərk ağrıdır ürəyim,
Mən ölürəm, neyləyim?

Birdən Q ə r ə n f i l çəmənə gəlir.

B a l a c a   q a n q a l

(*onu görən kimi yenidən yalvarır*)

Kömək edin, amandır!

Q ə r ə n f i l

(*istehzalı gülüşlərlə*)

Bu, yalançı pəhləvandır?

Q ə r ə n f i l

(*onu müayinə edə-edə*)

Təcili xəstəyə vurmalı şirə,
Huşunu itirər o birdən-birə.

(*Üzünü Qızılgülə tutaraq*)

Gedin içindən ləkin
Çobyasla şirə çəkin.

Q ı z ı l g ü l

Sorub şirələri o Böyük qanqal.
Gəl, mənim şirəmi al!

Ona bir qönçəsini qoparıb verir və Balaca qanqala onun şirəsini içirirlər.

B a l a c a   q a n q a l

Vayy... yaxşılaşdı halım,
Bir dərin nəfəs alım.

Q ə r ə n f i l

(*onun nəbzini yoxlayaraq*)

Nəbzi vurur ağır-ağır,
Get, İncigülünü çağır!

Q ı z ı l g ü l

Necə gəlsin yazıq de bura, necə?
Qanqallar əziblər onu bu gecə.

Q ə r ə n f i l

Sənə kömək edə bilməyirik biz,
Əlinlə əzilib şux güllərimiz.

Aycan bu sözdən çox qəmlənir və üzüstə yıxılır. Səhnə qaranlıqlaşır.

## ƏSƏRİN FİNALI

Səhnə işıqlanır. A y c a n çəməndə öz əvvəlki yerində uzanıb, yatmışdır. G ü l y a z əlində suçiləyən çəmənə gəlir. Aycanı görüb ona yaxınlaşır, üstünə su çiləyib, onu yuxudan oyadır.

G ü l y a z
(*öz-özünə*)

Gör nə xor-xor yatır,
Yuxuda şıllaq atır.
Qoy oyadım bu şahın tənbəlini...
Aycan, oyan! Ver bir görüm əlini.
Aləmi basıbdır sənin xorxorun,
Səndən yaxşı solisti çıxar xorun.

A y c a n
(*hövlnak sıçrayaraq*)

Həə, həə...
Yağış yağıb, deyəsən,
Nə bərk islanmışam mən.

(*Gülyaza baxaraq*)

Sən tökdün üstümə su?

G ü l y a z

Tökdüm ki, Aycanın qaçsın yuxusu,
Dur görüm bəsdir yatdın!

A y c a n

Üst-başımı islatdın.

(*Deyərək durub bağa sarı qaçır*)

G ü l y a z

Hara qaçırsan, hara?!
Gətirdin məni zara!

Ə k s - s ə d a

Qoy getsin, o bağa gedir,
Gül suvarmağa gedir!

G ü l y a z

(*təəccüblə*)

Ətrafımda yox heç kəs,
Bəs hardan gəldi bu səs?

Ə k s - s ə d a

İnan ona, inan, Gülyaz!
Onu darda qoymaq olmaz!

G ü l y a z

(*öz-özünə*)

Doğrudanmı gedir bağa,
Gül-çiçəyi suvarmağa?

(*Aycanı səsləyərək*)

Niyə qaçırsan, niyə?
Gəl gedək çəmənliyə.
Gör necə güllərim var!..
Təzə açıblar onlar.
Ətir basıb hər yanı.

A y c a n

(*sevincək*)

Bir göstər hanı, hanı?

Güllər dairəvi şəkildə düzülmüş rəqs edə-edə epiloq mahnısını oxuyurlar.

E p i l o q  m a h n ı s ı:

Bu şən nağılda söhbət
Getdi güldən-çiçəkdən...
Güldü xoş bir təbiət,
Siz sevindiz ürəkdən.

Odur açıb Qızılgül,
Ətir saçır hər yana.
İnci, Çobyas, Qərənfil,
Şəfa verir insana.

A y c a n

(*təəccüblə*)

Gör nə qəşəng olub bağ,
Həmən gülləri bayaq
Yuxuda görmüşəm mən.
Heç inanmazdım ki, sən,
Belə güllər əkəsən,
Ay sağ ol bacım, sağ ol.

G ü l y a z

De, oynadınmı futbol?

Bu sözdən güllər başlarını əyir.

A y c a n

Yox, futbolu bu gündən,
Çöldə oynayaram mən.

G ü l y a z

Bəs hardaydın o çağdan?

A y c a n

Mən yatmışdım bayaqdan.

(*Sevinclə qollarını açaraq*)

Daha bu gündən belə,
Budaqları əzmərəm.
Açın, a güllər, açın,
Daha sizə dəymərəm!

Güllər rəqs edir. Epiloq mahnısı yenidən səslənir.

Bu şən nağılda söhbət
Getdi güldən, çiçəkdən.
Güldü xoş bir təbiət,
Siz sevindiz ürəkdən.

Odur açıb Qızılgül,
Ətir saçır hər yana.
İnci, Çobyas, Qərənfil,
Şəfa verir insana.

Musiqi sədaları altında pərdə yavaş-yavaş enir.

S o n

# GÖZƏLLƏR GÖZƏLİ

*İki hissəli nağıl-pyes*

İŞTİRAK EDİRLƏR:

Alma
Nar
Heyva
Əncir
Alça
Gavalı – faytonçu
Şaftalı } – münsiflər heyəti
Ərik }
Meyvəqurdu – həşaratbaşı
Həşəratlar
Fizu baba
Kəpənək
Armud

## BİRİNCİ HİSSƏ

Qızıl payız fəslidir. Günəş çıxıb. Alma günəşin şəfəqlərində yuyuna-yuyuna şən bir nəğmə oxuyur.

Meyvəqurdu

(*qanadlarını gərərək, hirsli-hirsli Almaya*)

Alma, nədir tutmusan
Günəşin qabağını?
Birdəfəlik kəsərəm,
Bu bağdan ayağını.

Alma

Meyvəqurdu, məni
Gətirmə zara,
Günəş mənimkidir
Çəkil kənara.

Günəşdən mən
Almalıyam işığı,
Bil ki, mənəm
Bağların yaraşığı.
Mənim donum
Üfüqlərdən biçilib,
Şirəm ali
Məclislərdə içilib.
Bu dünyada ən ləzzətli
Payam mən,
Özü də günəşə,
Aya tayam mən.

M e y v ə q u r d u

Yadında bərk saxla sən,
Gör bir sənin başına
Nələr gətirərəm mən.

(*Öz-özünə*)

Yerlərin ayına bax...
Günəşin tayına bax...

(*Gözdən itir*)

A l ç a  Almanın özünü tərifləməsini eşidib, üzünü Almaya tutur.

A l ç a

Meyvəqurdu düz deyir.
Mən lap məəttəl qaldım
Eşidəndə sözünü.
Ay Alma, boş yerə sən
Təriflədin özünü.
Atan "Al" yox,
Alma qoyub adını.
Almasınlar,
Bilməsinlər dadını.
Dadın heç bir kəsin
Könlünə yatmaz.

Heç Alma dünyada
Alçaya çatmaz.

H e y v a

(*budaqdan başını qaldıraraq*)

Alça, tərifnamən
Həddini aşdı.
Səndəki turşudan
Dişim qamaşdı.
Mən Heyvayam,
Xoşlayırlar ətrimi.
İnsanlar hamıdan çox
İstəyirlər xətrimi.

Bu tərifləmələri eşidən Ə n c i r yastılana-yastılana Heyvaya yanaşır.

Ə n c i r

Heyva, danışdığın
Boş qalmaqaldır.
Mən Əncirəm,
Dadım elə bil baldır.
Bir ildə iki dəfə
Ağacımda olur bar,
Əncirin çox xeyri var.
Oxşayıram o
Saralan Armuda.

H e y v a gedir. A r m u d budaqdan əyilə-əyilə əlini Əncirə uzadır.

A r m u d

Bir buna bax, özünü
Mənə tay etdi bu da.
Məclislərdə hamının
Ürəyinə yatıram,
Mən bütün xəstələrin
İmdadına çatıram.

M e y v ə q u r d u

(*qanadını bükür, gizlicə Armudu dinlədikdən sonra, öz-özünə acı-acı*)

Onu görmür gözüm,
Tərifə necə dözüm?..

(*Bir kənara çəkilib gizlənir*)

Al rəngli N a r hərlənə-hərlənə gəlir.

N a r

(*əlləri belində uca səslə*)

Armud, söylə sənə
Nə ehtiyac var?
O, mənəm xəstəyə
Məndə əlac var.
Qanı çoxaldan mənəm,
Bir yaqutdur hər dənəm.

M e y v ə q u r d u

(*kənardan başını çıxarıb onlara tamaşa edir və öz-özünə*)

Heç onu yoxdur dərən,
Danışır çərən-pərən.

A l m a

(*meyvələrə*)

Sabah yarışarıq biz,
Bilinər hünərimiz.
Kim ki, meyvə qoyubdur
Öz adını
Sabah qoy göstərsin
İstedadını.

Meyvələr gedir.

M e y v ə q u r d u

(*sevinə-sevinə ətrafa keçib, əllərini bir-birinə sürtərək*)

Sabah məclis toplanacaq, deməli,
Bilinəcək meyvədə ən yeməli...

(*O, ağzını marçıldada-marçıldada var-gəl edir*)

Bir Meyvəqurduyam mən,
Meyvələri içindən
Çürütməkdir adətim,
Çox tünddür xasiyyətim.

(*Əlini uzadıb budaq üstə Alma və Narı göstərərək, istehza ilə öz-özünə*)

Meyvələr lovğadır çox,
Heç birində dostluq yox.
Danışdı hamı boş-boş,
Heç kəsə gəlmədi xoş.
Burda nə ki meyvə var,
Bir günə qırmaq olar.

(*Əlini alnına qoyub sağa-sola baxır, sonra Alma olan budağa qonub, onu salamlayır*)

Salam, ay qızıl Alma, salam,
Elə bilmə qalmaqalam.
Sənə vardır vacib sözüm,
Bir qulaq as canım-gözüm.

A l m a

Diksindim, tez de o sözü,
O nə sözdür Meyvəqurdu?

M e y v ə q u r d u

Dünən axşam Narın özü,
Sənə yaman tələ qurdu.
Onun kini həddin aşır,
Şirə çəkir, olub zəli.

Puç etməyə hazırlaşır
Sənin kimi bir gözəli.

(*Əlini uzadıb Almanı sığallaya-sığallaya*)

Nar möhkəm tapşırdı mənə,
Bir bərk ziyan vurum sənə.

A l m a

Sən ziyan vurarsan mənə?

M e y v ə q u r d u

İnan, əl vurmaram sənə.

(*Əlini ona uzadır*)

A l m a

Diksindim, Meyvəqurdu.

M e y v ə q u r d u

Diksinmə, o Nar quduzdur,
Ömrü dönsün bir xəzələ,
Necə qıyır bu gözələ.

(*Əlini uzadıb Almanı sığallaya-sığallaya*)

Qorxma, sakit ol bir az,
Məndən ziyan toxunmaz.

A l m a

Diksindim, Narmış düşmənim,
Heç xəbərim yoxdu mənim.
Bəs görəsən mən nə etdim?
Nar keçibdir xəyanətə?
Sağ ol, yüyürməcə gedim
Almalara məsləhətə.
Almalar, ay almalar...

(*Onların ardınca gedir*)

M e y v ə q u r d u

(*sevincək*)

Həə... indi hiylәmə baxın,
Düz gedirəm Nara yaxın.
Mən Narın belini qırım,
Alma ilə çaxnaşdırım.
Bir-birinə olsa düşmən,
Bunları tez qıraram mən.

(*Narın yanına gəlib*)

Salam sənə gülövşə Nar,
Qarşında bir təhlükə var.
Həyatın lap bitib sənin,
Almadır qəddar düşmənin.
Arx suyunu dünən uddu,
Bütün Narları qurutdu.
Qoydu sizi susuz çöldə,
Narlar qalıb əlhaəldə,
Bu gün növbə çatır sənə.

N a r

Sağ ol, xəbər verdin mənə.

M e y v ə q u r d u

Məhv edə bilməzlər Narı,
Siz əzərsiz almaları.

(*Qollarını çarpazlayır və budaq üstə dayanıb, gülə-gülə*)

Saldıq sizi rəqabətə,
Düşəcəksiz fəlakətə.
Siz çəkişə-çəkişə,
Mən də girərəm işə.
Bu saatca bağıraram,
Həşaratı çağıraram,
Darışarlar canınıza,
İşləyərlər qanınıza.

Bilməzsiz Heyvasız, Narsız,
Lovğalığı unudarsız.

M e y v ə q u r d u

(*uzaqdan-uzaqdan Həşaratı seyr edərək*)

Həşarat, Həşarat!

Uzaqdan Həşaratlardan birinin səsi gəlir: "Biz gəlirik bu saat." H ə ş a r a t l a r ani olaraq gəlirlər və soruşurlar.

H ə ş a r a t l a r

Gəldik, qulluğun nədir?

M e y v ə q u r d u

Əlbəttə ki, meyvədir.
Xəbər tutdum olacaq
Sabah meyvə bayramı.
Şən nəğmələr dolacaq,
Şadlıq edəcək hamı.
Bağlarda Alma adlı
Bir meyvə dəyib təzə.
Sarı Əncir bal dadlı,
Gülövşə Nar turşməzə.
Meydanda hey bəhs edib,
Meyvələr yarışacaq.
Bir-birilə rəqs edib,
Başları qarışacaq.
O saat bağa aşın,
Meyvələrə daraşın!
İstəyir dünya qopa,
Siz yeyin lopa-lopa.

H ə ş a r a t l a r

İstəyir dünya qopa,
Biz yeyək lopa-lopa.

M e y v ə q u r d u

(*bığlarını eşə-eşə*)

Mənim xoşum gəlir baxım
O gözəllər gözəlinə.
Önündə su kimi axım,
Əlim dəysin əlinə.

A l ç a  və H e y v a  çətir tutub, günəşdən qorunurlar, Meyvəqurdunun kölgəsi düşür.

H e y v a

Göylərə bax, ay Alça,
Uçur mavi bir xalça.

A l ç a

Yox, dağlara çöküb duman,
Düşmənlərdir o çox güman!

Ə n c i r  bütün bu söhbətləri eşidib başını çıxarıb, onlara baxır və gizlənir.

H ə ş ə r a t l a r d a n  b i r i

(*Meyvəqurduna*)

Dünən hürkütdük Ənciri,
Qorxudan tutuldu dili.

M e y v ə q u r d u

Ay sağ olun, bax belə,
Vaxtı verməyin yelə.
Səhər ertə cuma-cuma,
Keçin bağa hücuma.

B i r i n c i  H ə ş a r a t

Səhər mənim işim var...

İ k i n c i  H ə ş a r a t

Bir yaxşı lələşim var...

Ü ç ü n c ü  H ə ş a r a t

Bizdə qonaq olacaq...

B i r i n c i  H ə ş a r a t

Sənin fikrin solacaq...

M e y v ə q u r d u

(*hirsli*)

Ey həşəratlar, silin
Boş fikri beyninizdən.
Siz onu yaxşı bilin,
Mən çox güclüyəm sizdən,
Mən çovğunlu bir qışam,
Dağ kimi dayanmışam.

H ə ş a r a t l a r d a n  b i r i

(*öz-özünə*)

Bu lap boynumuza mindi,
Nə deyirsən edək indi.

M e y v ə q u r d u

Əmr edirəm bağı aşın,
Meyvələrə daraşın!

H ə ş a r a t l a r

Baş üstə, baş üstə.

M e y v ə q u r d u

Ay sağ olun, bax belə,
Vaxtı verməyin yelə.
Hazırlaşmağa gedin,
Sabahdan hücüm edin.

Kənarda dayanıb, gizlicə qulaq asan kəhrəba Ə n c i r bu əhvalatı eşidib, tez N a r a xəbərə gedir.

Ə n c i r

(*kəkələyə-kəkələyə Nara yaxınlaşıb, onun qulağına*)

Ey Nar, bir qulaq as mənə,
Bir pis xəbər verim sənə.
Həşarat istəyir cuma
Üstümüzə hücuma!

N a r

(*əyilərək əlini Əncirin çiyninə qoyur*)

Qorxma, kəsib yollarını,
Bağlayarıq qollarını.

(*Əncir Narla bir kənara çəkilir. Başlarının üstünü qara kölgə alır*)
*Nar göylərə baxaraq*)

Uçan buluddur düşmən.

Ə n c i r

Həşəratdır o çox güman,
Gecə-gündüz gəzir bizi.
Axtarırlar izimizi.

M e y v ə q u r d u

Özün hamıdan əvvəl
Döyüş meydanına gəl.
Yollarda olsun gözün,
Nəzarətçi ol özün.

Ə n c i r

Sənə and içirəm mən
Gələrik lap ertədən.
Sən onbaşı qoy məni
Əzim töküm düşməni

M e y v ə q u r d u

(*bu sözdən xoşhallanaraq göydə qanadlanır və öz-özünə*)

Mənim xoşum gəlir baxım
Gözəllər gözəlinə.

Önündə su kimi axım,
Əlim dəysin əlinə.

Meyvəqurdu gözdən itir. Alma sabahkı bayramda üstünlük qazanmaq üçün çalışır, əynindəki zərli donuna sığal vurub hərlənir.

Alma

Eh, Narın başında
Sınıq bir tac var.
Mənimsə suyumda
Min bir əlac var.
Ay göndərib mənə
Bu gözəl donu.
Sabahkı bayramda
Geyinim onu.
Hamıdan qiymətli
Bir inci olum.
Meyvələr içində
Birinci olum.
Məclisə saat onda
Yola düşüm faytonda.

Alma gedərkən Heyva ilə rastlaşır

Heyva
(*Almaya tənə ilə*)

Tərifə tutmusan yenə özünü,
Alma, saxla sabah söylə sözünü.
Telləri töküb belə,
Çox da lovğalanma belə.
O gün mənə sən demisən: daş Heyva,
Sabah isə deyəcəksən: baş Heyva.

Birdən bağda zərli bir Kəpənək uçur. Alma yüyürüb onu tutmağa çalışır.

Alma

Kəpənək, Kəpənək,
Mənimkisən sən böcək.

Özüm sənə baxacağam,
Səni bayram günü, səhər
Öz yaxama taxacağam.

(*Kəpənəyin ardınca qaçıb, gözdən itir*)

H e y v a
(*onun ardınca yavaş-yavaş gedərək*)

Mənə dedi: daş Heyva...
Sabah ona bayram günü
Göstərərəm daşlığımı.
Yaşıl dəfnə yarpağından
Hörəcəklər başlığımı.
Birinci yer alacağam,
Onu qəmə salacağam.
Onda bilər Heyva nədir,
Necə dadlı bir meyvədir?

(*Fikirli-fikirli gedir*)

P ə r d ə

## İKİNCİ HİSSƏ

Gözəl bir alma bağının kənarilə fayton gedir. Faytonun içində geyimli-kecimli yaraşıqlı bir A l m a oturub. Başına saldığı parlaq bir örtük yırğalanaraq bərq vurur; şəndir, yol boyu öz sevimli nəğməsini oxuyur. Təkərlərin tak-tuk sədaları altında nəğmə dağa-daşa yayılır.

A l m a n ı n n ə ğ m ə s i :

Uzanır yol boyu alma ağacı,
Almalardır hər azarın əlacı.
O, göylərdə sovqat gedir hər yana,
Bir nemətdir həyat verir insana.

Parıldayır yanaqlarım par-par,
Yaşıl atlas yarpaqlarım par-par.

Almanın səsi M e y v ə q u r d u n a çatır. O, cəld Almanın başı üstə uçur. Əlində iri bir daş var.

M e y v ə q u r d u

(*əsəbi halda öz-özünə*)

Adım Meyvəqurdu
Meyvəyə yadam.
Görərsiz mən necə
Vanə-fəsadam.
Qoy xəndəyə atım
Bu iri daşı.
Alma dəysin daşa,
Əzilsin başı.

(*Alma oxuya-oxuya yolla gedir. Bu nəğmədən qəzəblənən Meyvəqurdu*)

Qoy oxusun şirin sözlər
Bir-birinə calansın.
Fayton aşsın, qızıl Alma
Xəndəyə yumbalansın.

A l m a

(*sevinclə faytonçuya*)

Faytonu sür,
Faytonçu, dağa-daşa,
Məni yetir bayrama,
Deyim yaşa!
Qoy gələ bilməsin
Məndən tez heç kəs.
Ay mənim faytonçum,
Bir qədər tələs!

F a y t o n ç u Ə n c i r son dərəcə şənlənir və sevinə-sevinə "Faytonçuyam" mahnısını oxumağa başlayır.

F a y t o n ç u Ə n c i r i n m a h n ı s ı:

Faytonçuyam, atım qara,
O heç zaman düşməz dara.
Uçar göydə bir quş kimi,
Quldurları yara-yara.

Hey çapa-çapa kişnəyər,
Hey çapa-çapa kişnəyər.

Sürətlə hərəkət edən fayton Meyvəqurdunun atdığı iri daşa toxunaraq, aşır. Alma diyirlənib yıxılır.

A l m a

(*ayağa qalxır, paltarının ətəklərini çırpa-çırpa öz-özünə*)

Yaxşı ki, zərrə qədər
Əzilən yerim yoxdur.
Gedək, vaxt gedir hədər.

F a y t o n ç u  G a v a l ı

Sən darıxma, vaxt çoxdur.

Onlar faytona minirlər. Uzaqdan N a r ı n gözəl "Nar-Nar" nəğməsi ucalır.

N a r

Gözəl meyvə var-var,
Onun adı Nar-Nar.

A l m a

Eşidirsən, o Nardır,
Lap ön sırada gedir.

F a y t o n ç u  G a v a l ı

Nə yaxşı səsi vardır,
Birinci çıxış edir.

Nar səhnədə oxuyur.

N a r ı n  m a h n ı s ı:

Mənim adım Nar-Nar,
Dadlı barım var-var
Mənim adım Nar-Nar,
Meyxoş meyvəm var-var.
Payız fəsli gələndə,
Mən verirəm bar-bar.

M e y v ə q u r d u

(*Narın nəğməsini eşidərək ona söz atır*)

Meyvəqurdu toxunsa,
Ağlayarsan zar-zar.

Meyvəurdunun bu sözündən münsiflər heyəti çox həyəcanlanır. Ə r i k  Ş a f t a l ı n ı n qulağına nəsə pıçıldayır.

Ə r i k

Meyvəqurdu söz atdı,
Narın lap səsi batdı.
Çox qorxuya düşdü Nar,
Burda bir təhlükə var.
O, hücüm etsə birdən,
Biz onda neynəyərik?

Ş a f t a l ı

(*Əriyin qulağına pıçıldayır*)

Bu Meyvəqurdunu sən
Qovla getsin sən Ərik.
Ərik, tələs mat qalma,
Çağır, qoy gəlsin Alma!

Nar məclisdən çıxır. Alma zərli paltarda rəqs edə-edə məclisə daxil olur.

A l m a

(*oxuyur*)

Mən durna kimi süzüm,
Düşmən ürəyini üzüm.

Bütün məclisdəkilər Almaya heyran qalırlar, o gah münsiflər heyəti, gah tamaşaçılar qarşısında əl-qol açaraq, incə-incə rəqs edir.

Ə r i k

Qövsü-qüzeh rəngli
Donu təzədir.
Elə bil budağı
Bir yelpazədir.

Ş a f t a l ı

Başına bağlayıb
Qırmızı çalma.
Bir qu quşu kimi
Lap süzür Alma.
Beş yazaq, çox sevir
Onu el-oba.

N a r

(*öz-özünə*)

Kaş gələndə
Düşəydi girdaba.
Məskəni olaydı
Dənizin dibi.
Mən olaydım
Bu məclisin qalibi.

H e y v a

(*rəqs edən Almaya söz atır*)

Yıxılarsan,
Yavaş rəqs elə, Alma!
Mənim ürəyimə
Vəlvələ salma!

N a r

Keçi kimi elə
O atır təpik.
Bu rəqsin qiyməti
Oldu bir qəpik.

M e y v ə q u r d u

(*kənardan*)

Almanın qəlbinə
Vuraram yara,
Çıxar kənara!

H e y v a

(*əsəbi halda*)

Neyləyim ki, bu məclis gözəlinə,
Qalibiyyət qoy düşməsin əlinə!

M e y v ə q u r d u

(*öz-özünə*)

Paxıllıqları çoxdur,
Bunlarda dostluq yoxdur.
Bizdə bütün imkan var,
Onları qırmaq olar.

H ə ş ə r a t l a r

Məclisə salaq vəl-vələ,
Bütün meyvələri keçirək ələ!

Alma rəqs etməkdə davam edir. Nar və Heyva bundan çox əsəbiləşirlər. Nar təəssüflə qollarını döşündə çarpazlayaraq, pərt halda oturur.

H e y v a

Yəqin Almanındır
Bu qalibiyyət.

N a r

Mənim ürəyimdə
Qaldı bu niyyət.

Ə n c i r töyşüyə-töyşüyə məclisə gəlir.

Ə n c i r

Ay meyvələr,
Gəldim xəbər verim mən,
Aldatdı sizi düşmən.
Yaramaz Meyvəqurdu
Sizə bir tələ qurdu.
Meyvələr, qalmayın tək
Gəlin, gəlin birləşək!

Qoruyaq bir-birimizi.
Düşmən məhv etməsin bizi!

Birdən məclisdən dəhşətli musiqi səsi ucalır. Münsiflər heyəti və məclisdə iştirak edənlər ayağa qalxaraq özlərini itirirlər.

Ş a f t a l ı

Ey meyvələr,
Bu nə səsdir yüksəlir?

Ə r i k

Bizim bu məclisə
Kim isə gəlir.

M e y v ə q u r d u

(*lovğa-lovğa*)

Mənəm gəldim yandırım
Sizin həftadınızı.
Unudasız hamınız
Adınızı!

(*Həşərata*)

Həşərat, çəpəri
Bir anda aşın!
Bütün meyvələrə
Birdən daraşın!

(*Birdən göylərdə nurani bir baş görünür. Meyvəqurdu bundan təşvişə düşür*)

Hardan gəldi
O boyda bir ildırım?
Meyvələri indi
Mən necə qırım?
Mən hərifəm? Boş coşmaram,
İldırıma baş qoşmaram.

(*Qaça-qaça*)

Oturar mənə baha!
Mən qaçım burdan daha.

Günəş dağlar dalından sıçrayıb, Fizu babanı qızıl rəngə boyayır. Səhnə arxasından Həşəratbaşının səsi gəlir. Meyvəqurdu ayaq saxlayıb qulaq asır. Həşəratların səsi gəlir: "Meyvəqurdu, olar keçək hücuma?"

Meyvəqurdu

Əmrimlə yıxılın
Hamınız quma!
Dəyməyin meyvələrə,
Getsin işinə hərə.

Birdən təntənəli musiqi çalınır, meyvələr bu musiqidən həyəcanlanırlar.

Alma

Ay meyvələr,
O nə səsdir yüksəlir.

Heyva

Fizu baba adlı
Bir qonaq gəlir.
Şeirdən gətirir
Bir yeni sovqat.

Ərik

(*Heyvaya*)

Onun şərəfinə
İki fişəng at!

(*Ərik mikrofonla iki misra Füzuli şerindən parça oxuyur*)

Pərişan oldu halım,
Sormadın halı-pərişanım,
Qəmindən dərdə düşdüm,
Qılmadın tədbiri-dərmanım.

Fişəng atılır.

Şaftalı

Əncir, yüyür
Tez babanı qucaqla.
Tut atını,
Bizim tövlədə bağla!

Əncir Fizu babanı qucaqlayır, o biri meyvələr onun üzərinə cumurlar.

F i z u   b a b a

(*sevinclə qarşılandığını görüb nəvazişlə meyvələri oxşaya-oxşaya*)

Sizsiz insanların
Sevimli barı,
Atın bir tərəfə
Boş iftixarı.
Özünüzü qoymayın
Dağ başına.
Hörmət etsin
Hərə öz yoldaşına.
Deməyin ki, mən
Dəyərli qaş-daşam,
Bütün meyvələrin
İçində başam.
Hərənin öz yeri
Var bu dünyada.
Siz bir-birinizi
Verməyin bada...
Təbiət heyran qalır,
Hamınızın ətrinə.
Bəhs eləyib dəyməyin
Bir-birinizin xətrinə.
Təravətli meyvələr,
Lovğalığı siz atın.
Onu bilin, faydalı
Nemətisiz həyatın!

H e y v a

Fizu baba, hansımız
Gözəllikdə əzəlik?

Ə n c i r

Fizu baba, hansımız
Bu dünyada gözəlik?

F i z u   b a b a

Bir-birinizə deməyin,
Siz quru bir xəzəlsiz.
Onu bilin dünyada,
Siz hamınız gözəlsiz.

A l m a

Kimdi axı dünyada
Bu gözəllər gözəli?

F i z u   b a b a

O kəsdir ki, gözəldir
Onun işi, əməli.

F i z u   b a b a sözünü bitirib, buludlar arasına çəkilir. Şən bir musiqi çalınır. Bütün meyvələr ələ-ələ verib, dost olurlar. “Dostluq mahnısı” ətrafı bürüyür.

D o s t l u q   m a h n ı s ı:

Biz bu gündən unudub,
Atırıq lovğalığı.
Lovğalıqdır həyatda
Köhnəliyin qalığı.
Bir kimsə cərgəmizdən
Danışmaz acı-acı.
Biz dost olub bu gündən
Oluruq qardaş-bacı.
Çalışaq, zəhmətimiz
Heç zaman getməz bada.
Cəhd edib insanlara
Fayda verək dünyada.
İndi bilirik kimdir
O gözəllər gözəli.
O kəsdir ki, gözəldir
Onun işi, əməli.

S o n

# KƏND HƏKİMİ

*İki pərdəli, 4 şəkilli pyes*

İŞTİRAK EDİRLƏR:

Y e g a n ə – Tibb institutunun tələbəsi
S ə b i l ə – Yeganənin anası
A k i f – 24 yaşlı gənc
S ə l m i – susatan qadın
A l m a s, S e v i n c, Z a m a n, N a m i q – Yeganənin institut yoldaşları
Ə l i z a d ə – Tibb İnstitutun aspirantı
Ç a y ı r l i n s k i – Tibb institutun assistenti
M a h m u d k i ş i – kənd sovet sədri
N a m ə l u m ş ə x s – məclisdə şuluq salan
K ə n d z ə h m ə t k e ş l ə r i və s.

## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Pərdə arxasında Mustafa Sübhi küçəsindən toy səsi gəlir. Oğlan adamının səsi ucalır: – "Bay-bay, bay-bay yol verin oğlan adamı gəlir!" "Tərəkəmə" rəqs havasını "Vağzalı" rəqs havası əvəz edir. Bir qadın səsi ucalır: – "Gəlin başına ay şabaş!" Mustafa Sübhi küçəsindən ötən Akif, üzünü musiqi səsi gələn tərəfə tutub deyir: – "Ay can-ay can, toydur, xoşbəxt olasınız!" Tində köşkdə su satan Səlmi köşkdən boylanaraq deyir: – "Olmayanlar üçün olsun!". Uzaqdan Akifi görən Səlmi tez onu yanına çağırır, Akif ona yaxınlaşır.

S ə l m i

Akif, görünmürsən xeyli zamandır?

A k i f

Görünmürəm, çünki halım yamandır.

S ə l m i

Niyə? Ölübdür ki, bu Səlmi bibi?
Sənə qurban bu suların sahibi.
O gün olsun, bu toy səninçün olsun,
Məclisin şipşirin sularla dolsun.
Akifçün qoyaram dağı daş üstə!

A k i f

Sağ ol, Səlmi xala...
Haçan gələr qızlar bu bulaq üstə?

S ə l m i

İndi gələr, söylə, kim sənə lazım?

A k i f

Oxuyardım çatsa ona avazım.
Gəlsin o qız, görüm, onu bəyənim.

S ə l m i

Necə qız?
Oxu görək, xəbərim olsun mənim.

A k i f

(*çırtıq vura-vura oxuyur*)

A dostlar-aşnalar,
İsti otaq axtarıram.
İçində laləyanaq,
Qönçədodaq axtarıram.

Almaram bir dilbəri
Əgər maşını olmasa.
Boy uca, qamət incə,
Bir ağ buxaq axtarıram.

Bir axşam, bir əntəri
Gətirdilər, bəyənmədim.

Dostlarım elə bilirmiş ki,
Xortdan axtarıram

Ləzzətli aş bişirən,
İştah açan axtarıram.
Ding-ding dingildəyən
Mamlımatan axtarıram.

Səlmi

Ay yaşa səni, Akif!

Akif mahnını bitirdikdən sonra, gözü kənarda dayanıb ona gülümsəyən oğlana sataşır.

Akif

(*ona əyri baxa-baxa yaxınlaşır*)

Bacıoğlu! Tindəki bu çinarı
Yoxsa ki, podrekə gətirmisən sən?
Haçan gəlirəmsə bu evə sarı
Səni burda dayanan görürəm mən.
Bu mən ölüm, düzgün söylə görüm sən
Sübhi küçəsinə niyə gəlirsən?
Məhəllənin cayılı özüməm, özüm!
Dayan! Səndən mənim su içmir gözüm!

Zaman

Yol keçirəm, mənim sənlə işim yox,

Akif

Papka qoltuğunda fors eləmə çox,
Ədə, sən bilirsən mən kiməm?
Bir fələyəm, yerə-göyə hakiməm!

Zaman

(*qoltuğundakı kitabları göstərərək*)

Kitab aparıram mən bir nəfərə,
Əkil! Bir də bura çıxma səfərə!

Akif Zamanın çiyinlərinə elə toxunur ki, qoltuğundakı kitablar yerə səpələnir. Zaman onları yerdən yığır. Akifin hərəkətlərini görən Səlmi tez onu çağırır.

S ə l m i

Akif, Akif tez bura gəl!

S ə l m i

(*öz-özünə*)

Az qaldı açsın əngəl.

(*Üzünü Akifə tutaraq*)

Demək, qısası sözün,
Bir qız axtarır gözün?

A k i f

Bəli, mənim gözüm qız həvəsində.

S ə l m i

Qız! Bax, bu evin üst mərtəbəsində.
Gözəllik Allahı, o başdan-başa,
Yemə, içmə elə ona tamaşa.

A k i f

(*sevincək*)

Səlmi, düz deyirsən sən mənim canım?
Onu görmək üçün harda dayanım?

S ə l m i

Köşkün dalından baxarsan, o qıza.

A k i f

Kaş ki, bu niyyətim çıxmaya boşa.

S ə l m i

(*tələsik*)

Odur, qızlar gəlirlər qoşa-qoşa,
Tez ol, Akif, köşkün dalına keç,
Qızların ən gözəlini bəyən, seç.

Uzaqdan qızlardan biri görünür, o Almasdır, yeni moda ilə geyinib; qulağında parlaq sırğalar, boynunda mirvari və s.

Səlmi

(*Akifə işarə ilə*)

Akif, yüyür, Almas gəlir birinci...
Qulağında yaqut, boynunda inci.

Akif

(*köşkdən sıçrayıb qızın dalınca qaçır. Qıza çatar-çatmaz*)

Ay qız! Əcəb matan qızsan,
Ürəyimə yatan qızsan.
Sevincimdən mən bir quşam,
Gözlərinə vurulmuşam.

(*Almas Akifə əyri-əyri baxaraq, istehzalı gülüşlə qarşısından saymazyana keçir. Akif onun ardınca qaça-qaça*)

Sən şanalı bir balmısan?

Almas

Oğlan! Məni səhv salmısan.

Akif onun başına dolana-dolana qolundan tutmaq istərkən, Almas onu rədd edir.

Akif

(*yalvarıcı səslə qıza*)

Ay qız, ver mənə əlini,
Gəl ol anamın gəlini.

Almas

(*acıqlı*)

Oğlan! Ağ elədin lap...
Yeri öz tayını tap!

Almas son dərəcə özündən razı halda yırğalana-yırğalana Akifdən uzaqlaşır. Akif onun dalınca qaçıb, sağa-sola özünü əyə-əyə gedərkən Sevinclə rastlaşır.

A k i f

(*Sevincin ardınca qaçaraq*)

Ay qız, sən bağçada ətirli gülsən,
Ölmərəm bir dəfə üzümə gülsən.
Səni gördüm, elə bildim ki, yazdır,
Sənin kimi bir qız dünyada azdır.

O, Sevincin qolundan tutmaq istərkən, qız onun əlini itələyir.

S e v i n c

Əlini yığışdır, həddini aşma!

A k i f

Mən yaxşı oğlanam, mənlə savaşma.
Ay qız, sən çox xoş göründün gözümə,
Getmə, dayan bir qulaq as sözümə,
Sən kimi qız gərək mənə yar olsun!

S e v i n c

Sənin kimi bir oğlana ar olsun!

A k i f

Getmə, ay qız, açım məhəbbətimi.

S e v i n c

Tələsirəm, uzatma söhbətini.

A k i f

Dayan, ürəyimdə qoyma sözümü,
Rədd eləsən mən asaram özümü.

Birdən uzaqdan Y e g a n ə görünür.

S e v i n c

(*onu Akifə göstərərək*)

Odur gəlir, o sənə verər cavab,

(*Gedir*)

A k i f

(*Yeganəyə yaxınlaşıb onu salamlayır*)

Salam!
Sən hara gedirsən əlində kitab?

Y e g a n ə

(*təəccüblə*)

Dərsə gedirəm.
Kimi axtarırsan, ay oğlan belə?
Yoxsa ki, vaxtını verirsən yelə?

A k i f

(*əlini qızın yaxasına uzadaraq*)

Ax... nə gözəl qırmızı köynəyin var,
Söylə görüm, ev-eşikdən nəyin var?

Y e g a n ə

(*Akifə acıqlı-acıqlı baxır. Akif geri çəkilə-çəkilə az qalır xəndəyə düşsün. Bunu görən Yeganə ucadan gülə-gülə*)

Xa... xa... xa... xa...
Yavaş yeri, a qarabala,
Sən xəndəyə yıxılmışdın az qala.

(*Sonra istehzalı gülüşlə Akifə*)

Soruşursan nəyim var?

(*Evlərini göstərərək*)

Bu gördüyün evdə altı otağım,
Şaqanda püstəli, badamlı bağım.

(*Yeganə maşının açarını əlində oynadaraq Akifə uzadır*)

Oğlan! Maşınımın açarını al,
Özünçün sabahdan onu işə sal.

(*Akif şübhə ilə qızın gözlərinə baxıb gülümsəyir. Yeganə üzünü Akifə tutub təkrar ona*)

Soruşursan nəyim var?
Yığın-yığın pulum, dövlətim-malım,
Səninkidir mənim cahi-cəlalım.

Akif
(*özünü məsxərəyə qoyulmuş kimi sanıb*)

Qız, deyəsən, məni salırsan ələ!

Yeganə

Sən üzündən oxşayırsan tənbələ!

Yeganə ondan uzaqlaşır.

Akif

(*kor-peşiman Yeganənin ardınca baxa-baxa*)

Ah... getdi...
Varlı qız axtarmaq necə çətindir...
İş indi hiylənin və cürətindir!
Kim dözər bu dünyada keşməkeşə?

Yeganə
(*gedə-gedə Akifə*)

Get, axtarıb tap özünə bir peşə.

Yeganədən ümidsiz uzaqlaşaraq yenidən Səlminin yanına qayıdır.

Akif
(*ona müraciətlə*)

Üçüncü ən matan qızdır,
Ürəyimə yatan qızdır,
Yanaqları qızıl alma.

Səlmi
(*Akifə təsəlli verə-verə*)

Qız düzələr, məəttəl qalma.
O qız tanışdır mənə,

Adı da ki, Yeganə.
Oğlu yoxdur qaynananın,
Özünü oğul eylərsən.
Girərsən qılığına,
Dilini noğul eylərsən.

Akif

Baş üstə anam-bacım,
Bil sənədir əlacım,
Səlmi xala, gir işə.

Səlmi

Badamlı su beş şüşə
Anasına aparım,
Bunlardır mənim varım.
Bu saat ora qaçım,
Söhbəti ona açım.

Akif

(*sevincək*)

Aç... sağ ol!

(*Qoltuq cibindən "Koti" firmalı pudranı çıxarıb Səlmiyə hədiyyə edir*)

Koti pudra, mağarıç!

Səlmi

(*cəld pudranı alıb qoltuğuna dürtür*)

Çox sağ ol,
Akif, siroplu su iç.

Akif

Ver içim, odlanıram,
Atəş kimi yanıram.

(*İki stəkan dalbadal su içib*)

Uxaay... sağ ol... Səlmi xala.

Səlmi köşkü bağlayır. Hər ikisi bir yerdə gedirlər.

Mustafa Sübhi küçəsilə aspirant Əlizadə ötərkən, tinin başında assistent Çayırlinskiyə rast gəlir və onlar görüşürlər.

Əlizadə

Salam!
Sən hara, bura hara, şəhərdən uzaq?

Çayırlinski

Burda qohumum var, gəlmişdim qonaq.
Qəmli görürəm səni,
İşin nə yerdə qalıb?

Əlizadə

Elmi rəhbərim məni
Bu gün sabaha salıb.

Çayırlinski

Əl çək, ay Əlizadə,
Aləmi verib bada.
O, yoxdur batıb səsi.

Əlizadə

Bəs bu halda nə etmək?

Çayırlinski

Bunun ancaq çarəsi –
Baş götürüb getmək!
Mənim dostum, bil onu,
Qaçmaqdır işin sonu.

Əlizadə
(*əsəbi halda*)

Necə? Qaçmaq!
Aspirantın, deməli,
Çatmır heç yerə əli?
Mübarizə gərəkdir!

Ç a y ı r l i n s k i

(*öz-özünə*)

Hayıf... mübariz təkdir...
Bil, "səs çıxmaz tək əldən".
Əl götür bu əməldən!
Qaçmaq da igidin fərasətidir.

Ə l i z a d ə

(*acıqlı*)

Yox! Qaçmaq qorxaqlıq əlamətidir!

Ç a y ı r l i n s k i

Təzə xəbər var məndə,
Eşit onu, bil sən də...
Əl çək öz müdirindən.
Gedir ayın birindən
Kafedranın müdiri,
Gələcək başqa biri...
Nələr olacaq bu il...
Əlizadə, onu bil,
Tufan alıb aləmi.
Dəryada batsa gəmi,
Gəmidəki siçanlar
Qaçar o yan-bu yana.
İçində fəlakət var,
Sən də gəlmisən cana.
Götür başını, tez qaç,
Özünə təzə yol aç!

Ə l i z a d ə

(*əsəbi və narahat halda üzünü Çayırlinskiyə tutub*)

Rədd ol, pisniyyət adam!
Belə adama yadam!
Sağ ol!

Ciddi addımlarla gedir.

Ç a y ı r l i n s k i

(*onun ardınca baxaraq*)

Sən tez başımızdan ol,
Yeganəyə açılsın yol!

(*Gedir*)

Küçənin başında Y e g a n ə görünür. O, qarşıdakı Z a m a n ı görüb, onu səsləyir.

Y e g a n ə

Ayaq saxla, Zaman, a kənd həkimi,
Nə iti gedirsən Axillis kimi.
Abi-zəmzəm suyunda çimdin nədir?

Z a m a n

(*gülə-gülə*)

Əzizim Yeganə, bu əfsanədir,
Yunan əfsanəsi...
Məni isə Kürdə çimdirib anam,
Mən Axillis kimi bir qəhrəmanam!

Y e g a n ə

Bir fədakar həkim olaydın barı...

Z a m a n

Olaram!

(*Qoltuğundan bir neçə kitab çıxarıb Yeganəyə uzadaraq*)

Kitab istəmişdin, tapdım onları.

Y e g a n ə

(*kitabları alıb Sevinclə Zamana*)

Ay sağ ol! Axillis!
De görüm nə var-nə yox?
Gözümə fikirli görünürsən çox.

Z a m a n

Böyük əmim gəlib Talışdan dünən,
Odur ki, bir qədər sevinirəm mən.
Səninçün gətirib tələbnaməni,
Kəndə işləməyə çağırır səni.

Y e g a n ə

Nə olar, mən kəndə getməyə hazır!

Z a m a n

Öz işinlə sən qazanmısan, ay qız,
Kənddə insanların məhəbbətini.
Yazır ki, sən bizə gərəksən yalnız!
Ucaltmısan həkimlik hörmətini.

Y e g a n ə

Mən o kənddə üç ay işlədim cəmi,
Çox sağ olun sədrimiz Mahmud əmi.

Z a m a n

Az bir vaxtda can yandırmısan əlbət,
Odur ki, yaranıb sənə məhəbbət.
Yoxsa Rövşən kimi sevmirlər onu,
Deyirlər çalırmış maqnitofonu.
Axşamacan oynarmış öz-özünə,
Baxmırmış heç bir kəsin sözünə.

Y e g a n ə

Həkim var ki, kəndi pis hala salar,
Həkim var ki, kənd qayğısına qalar.
Həkimlər gecəni gündüzə qatsın,
Kənddə görək yeniliklər yaratsın!

Z a m a n

Sağlıq olsun!

Ayrılırlar. Yeganə M.Sübhi küçəsilə evə qayıdarkən, A k i f l ə qarşı-qarşıya gəlirlər

A k i f

Salam! Doktor Yeganə,
Mən xəstəyəm, bax mənə.
Boğazımdakı bu şiş
Nədən əmələ gəlmiş?

Y e g a n ə

(*ayaq saxlayıb Akifin boğazına baxır*)

Akif, bir azca əyil,
O ulqumdur, şiş deyil,
Bu olur kişilərdə.

A k i f

Nə deyirlər bu dərdə?

Y e g ə n ə

Ulquma dərd demək heç düz olmadı,
Adəm almasıdır ulqumun adı.
Latınca: "Pomum adami"
Bir gün Adəm alma yeyib cənnətdə,
Sevdiyi Havvadan gizlin, xəlvətdə.
Boğazında qalıb o çağdan bəri,
Ulqumlu eləyib o kişiləri.

A k i f

O, dərib almanı yeməyəydi kaş,
Ax... sənə nə deyim, ay Adəm qardaş!
Mən cənnət bağından alma dərərdim,
Tək yeməzdim, tez sənə göndərərdim.

(*Yeganə ayrılıb getmək istərkən, Akif onu saxlayır və ondan soruşur*)

Yeganə dur! İki kəlmə sözüm var,
Ürəyimdə dağlar qədər dözüm var.

(*Yeganə ayaq saxlayıb Akifi dinləyir*)

Gülüm, hara aldın təyinatını?

Y e g a n ə

Get əməyə bağla öz həyatını.

A k i f

Gülümsə üzümə, a mənim baxtım.

Y e g a n ə

(*tələsik saatına baxıb, Akifə*)

Gecikdim söhbətə qalmadı vaxtım.

A k i f

Yoxsa getdin ardınca o nəfərin?
Söylə, mənə haradır səfərin?
Söylə, haralara salmısan meyil?

Y e g a n ə

Onu sənə bilmək heç vacib deyil!

(*Akifdən ayrılır*)

A k i f

(*acıqlı onun ardınca*)

Heç demə! Qaç, get!
Nigaran qoy məni.
Göyə də çıxsan
Mən taparam səni!

(*Gedir*)

P ə r d ə

## İKİNCİ ŞƏKİL

Yeganəgilin evi. Pəncərənin solunda yazı masası durmuşdur. Yeganə oturub dərslərini hazırlayır. Birdən telefon zəng çalır. Yeganənin anası Səbilə dəstəyi qaldırır.

S ə b i l ə

Alo... kimsən?

T e l e f o n d a k ı   s ə s

Cıbıldız?

S ə b i l ə

Bəsdir zəng elədin, ay qız!
Tanışım yoxdur belə,
Vaxtını vermə yelə!

(*Dəstəyi yerinə qoyur. Mətbəxə çatmamış telefon yenidən zəng çalır, o yenə dəstəyi qaldırır*)

Alo... kimdir?

T e l e f o n d a k ı   s ə s

Bir adam?

S ə b i l ə

Mən boş söhbətə yadam!
Sağ ol...

(*Dəstəyi yerinə qoyur və öz-özünə*)

Zamanın hiyləsidir...
Dəqiq onun səsidir!

Səbilə bir stəkan şirə töküb Yeganəyə verir.

S ə b i l ə

Şirəni iç, Yeganə,
Güc-qüvvət gəlsin sənə.

Y e g a n ə

(*şirəni aram-aram içib anasına təşəkkür edir*)

Ana... səni yüz yaşa!
İllər tez gəldi başa.
Sümük bəhsini dünən
Elə bil keçmişəm mən
Necə sürətlə gəldi
Bu dövlət imtahanı.

S ə b i l ə

Sümük bəhsi gözəldi...
Onun kimi elm hanı?
Dolabda var bir çənə,
Yadigar qalıb mənə.

(*Səbilə çənə sümüyünü dolabdan götürüb Yeganəyə göstərir və zarafatla*)

Üzərində neçə diş
Yaradıbdır təbiət.
Çənədən möhkəm imiş
Bunun sahibi əlbət.
Odur qalıb salamat.

Ana-bala gülüşürlər: "Xa... xa... xa... xa..."

Y e g a n ə

(*anasına*)

Elə deyirdin yat-yat.
Ulduzlar batanacan
Oxuyardım anacan.
Gözəl dərs dedi bizə
Professor Məmmədəmin,
Şah aləmi ölkənin.
Xəbər aldı, o bizdən
Gecəquşu səsini
Eşidən varmı sizdən?
Normal ürək vurğusu
Onun səsinə bənzəyir.
"Bup-bup, bup-bup..."
Bir az xəyala dalıb,
Sevincdən pərvazlandım.
Əlimə qələm alıb,
Belə bir şeir yazdım:
İki odlu günəş var,
Ömrümüzü qoruyur.

Onun birisi ürək,
O lap gecəquşu tək
Suların xoş səsi qulağımdadır.
Qoy üçə oxuyanlar
Klinikada qalsın,
Alimlərdən dərs alsın.

S ə b i l ə

(*nəvazişlə*)

Biz ki, əvvəl, əzizim,
Höcətsiz yaşayırdıq.
Arzumuz birdi bizim,
Bir məqsəd daşıyırdıq.
Rədd etməzdin heç nəyi,
Sən dəyişmisən yaman.

Y e g a n ə

(*ciddi tərzdə*)

Bizdən kəndə getməyi
Tələb eləyir zaman!

S ə b i l ə

(*hirslə*)

Necə? Zaman?!
Zamanın haqqı yoxdur
Mənə ağalıq etsin!
O yanlarda qız çoxdur,
Öz kəndinə xoş getsin!

Y e g a n ə

(*gülə-gülə*)

Zaman! Xa... xa... xa!..
Vaxtı deyirəm, ana,
Vaxtın tələbatını.

S ə b i l ə

(*acıqlı*)

Yox! Qoymaram heç yana,
Elmə ver həyatını!

Y e g a n ə

(*yarıciddi, yarınəvazişlə anasını qucaqlayıb öpür*)

Dayan! Bir məni dinlə!
Kəndə gedək, səninlə.
Bir qoruyaq orada
İnsanın səhhətini!

S ə b i l ə

(*acıqlı*)

Arzumu vermə bada!
Unut bu niyyətini!
Xəbər veriblər mənə,
Yerin hazırdır, hazır!
Çayırlinski sənə
Yaxşı elmi iş yazır!

Y e g a n ə

(*qəhqəhə ilə gülür*)

Xa... xa... xa... xa...
Çayırlinski?!
O, palçıq əhvalatı?
Bir məsxərəyə dönüb
Onun müqəddəratı.

S ə b i l ə

(*təəccüblə*)

Nə danışırsan! Çönüb,
O, alim oldu bildir!
Yapışıb neçə ildir
Təbiətdən on əllə,
Kəllə var onda, kəllə!

Y e g a n ə

(*gülür*)

Xa... xa... xa... xa...
Ondan mənə bir söhbət
Eləyiblər qiyamət.
Söyləyim, dinlə sən də.
Bir gün o, gedir kəndə,
Görür çöldən ötəndə
Camışlar girib lığa,
Bir iri bataqlığa.
Deyir aaa... bundan yazım,
Bu iş lazımdır, lazım.
Beş saat dayanır düz,
Deyir bir iş var lığda.
Camışlar gecə-gündüz
Yatırlar bataqlıqda.
Özünü lığa atıb,
O, camışlarla yatıb.

(*Gülür*)

Xa... xa... xa... xa...

S ə b i l ə

(*acıqlı*)

Yox!.. Canım!
Dərmanlar tapır lığdan!
Ad da veriblər ona
"Çayırlinskaya" zona!

Y e g a n ə

Çayırlinski adı
Pisliyə çıxdı, ana.
Elmə əsaslanmadı,
Az qaldı işi dana.

S ə b i l ə

Yeganə, arxayın ol,
Axır ki, tapılar yol.
Elmi işə hazırlaş,
Kafedraya get birbaş...

Y e g a n ə

(*çox acıqlı və sərt şəkildə anasına*)

Kəndlərdə işləməli!
O il gedəndə kəndə,
Bu hiss oyandı məndə.
Təcrübə keçən zaman
Nələr görmədim, aman!
Bu kimyəvi gübrələr
Nələr törədir, nələr...
Çölün düzündə xəstə,
Yıxılmışdı üzüstə.
Söylə, sən bilən nədən?
O zəhərli gübrədən!
Zəhər sorulub qana,
Çox zərər verir cana.

S ə b i l ə

Qayğıya qalan hanı?
Ay qız, özünçün yaşa.

Y e g a n ə

Qorumasaq insanı
Arzusu dəyər daşa.

S ə b i l ə

Bəs nə oldu o xəstə?
Qaldı torpağın üstə?

Y e g a n ə

Yox! Hər işimi atdım,
Onun dadına çatdım.

Yaşadaq qəlbimizdə
Kəndin məhəbbətini.
Cantək qoruyaq biz də,
Əməkçi səhhətini!

S ə b i l ə
(*istehzalı*)

Kələ-kələlər neylədi ki,
Kərtənkələlər neyləsin?
Mənəm-mənəm demə çox,
Bir həyat təcrübən yox.
Neylərsən düşsən dara?
Hara gedərsən, hara?
Arzum, istəyim batar.

Y e g a n ə
(*anasına şirə töküb verir*)

Al iç çıxsın acığın.
Mənim dadıma çatar
Kitablar yığın-yığın.
Kələmi qatar-qatar
Göndərirlər şimala.
Uşağa faydası var,
Yesin, böyüsün, bala.
Kənddə getsəydim hara,
Uşağa "borş" bişirin
Deyərdim analara,
Yesinlər şirin-şirin.

S ə b i l ə

Özün niyə yemirsən?
Heç borş bişir demirsən?

Y e g a n ə

Böyümüşəm, ay ana,
Boyum çatıb tavana.

Qoyun qırxımı bayramı
Olmuşdu kənddə bir dəfə.
Bütün kənd adamı hamı
Toplaşmışdı hər tərəfə.
Qırxırdılar qoyunları,
İpək-ipək o yunları.
Nə gözəldir o çöl, düz,
Çay büllur beşiyində...
Durarıq gecə-gündüz
Sağlamlıq keşiyində.

S ə b i l ə

(*hirsli*)

Bu fikiri başından at!
Şəhərdədir əsl həyat!

Y e g a n ə

(*anasının sözlərinə laqeydliklə yanaşır, saatına baxaraq*)

Məruzəmə az qalıb,
Papkamı ələ alıb
Gedim instituta birbaş.

S ə b i l ə

Tələsmə, yavaş-yavaş!
Cavab ver hər suala!
Sənə yaxşı yol, bala.

Y e g a n ə

(*evdən çıxır, anası ardınca su atır və qayıdıb öz-özünə*)

Məclissiz keçməz bu iş,
Rahlayım dadlı bişmiş.

Səbilə mizin üstündə süfrə salır, yır-yığış edərkən qapının zəngi çalınır, suçu S ə l m i içəri daxil olur.

S ə l m i

Salam, Səbilə bacı,
Gətirmişəm sənə su.
Hər dərdlərin əlacı,
Badamlı və İstisu.

(*Süfrəyə göz gəzdirərək su şişələrini süfrəyə düzür*)

Bəh... qonaqların da var,
Yerinə düşdü bunlar.

S ə b i l ə

Həə... pulu edir nə qədər?

S ə l m i

Heç zəhmət çəkmə hədər.

S ə b i l ə

Xəcalət verdin mənə,
Çox sağ ol sənə.

S ə l m i

Bəs xanım qızın hanı?
Məst edib bir oğlanı.

S ə b i l ə

(*ciddi bir tövrlə*)

Dediyin oğlan kimdir?
Mühəndisdir, həkimdir?

S ə l m i

Peşəsi yoxdur hələ,
Hələlik baxır ələ.
Bir oğlandır qələmqaş,
Enlikürək, ucaboy.

Atası yavaş-yavaş
Pul yığır eləsin toy.

S ə b i l ə
(*çılğın halda öz-özünə*)

Bu nə sözdür, ay aman!

(*Üzünü Səlmiyə tutub*)

Yoxsa edirsən güman
Bircə qızımdan bezdim?
Mən səndən gözləməzdim!

S ə l m i
(*mülayim tərzdə*)

Mən bilirəm, Yeganə
Sənin adın, sanındır.
Bir söz də deyim sənə:
Bir qız, bir oğlanındır!

S ə b i l ə
(*acıqlı*)

O, oxumayıb hədər!
Çəkib əziyyətləri.
Ən uca dağlar qədər
Var onun niyyətləri.

S ə l m i
(*yarımkinayəli*)

Xoşbəxt olsun, bağışla!

S ə b i l ə

Allah bağışlasın.

S ə l m i

Qız ağacı – qoz ağacı!

Səlmi gedir. Səbilə əsəbi halda otaqda gəzişir. Birdən qapının zəngi çalınır, o qapını açır. Otağa orta yaşlı, çal uzunsaçlı, yeni moda ilə geyinmiş Tibb institutunun assistenti Ç a y ı r l i n s k i daxil olur. Səbilə böyük sevinclə onu qarşılayır.

S ə b i l ə

O-o... Çayırlinski...
Xoş gördük səni...

Ç a y ı r l i n s k i

Salam, Səbilə xanım!

S ə b i l ə

Hardasan gözüm-canım?
Mənə bir şad xəbər ver!

Ç a y ı r l i n s k i

Açılıb qızına yer!

S ə b i l ə

Bu söz necə də xoşdur.

Ç a y ı r l i n s k i

Kafedrada yer boşdur.
Bəs hardadır Yeganə?

S ə b i l ə

Yeganə, qurban sənə,
Məruzə edir indi.
Ürəyim çox sevindi,
İndi gələcək özü,
Söylə ona bu sözü:
Sənə çox hörməti var,
Dərin məhəbbəti var.

(*təəccüblə*)

Hara getdin xahişə?
Kim qarışdı bu işə?

Çayırlinski

(*lovğa ilə*)

Tanımırsanmış məni...
Plan tökdüm hər səhər,
Axır Əlizadəni
Çıxartdırdım bir təhər.

Səbilə

(*razılıqla*)

Çox sağ ol!
Nə qüvvət var qolunda,
Qoy Yeganə yolunda!

Çayırlinski

(*əlini gözü üstə qoyub*)

Bax, bu gözlərim üstə!

Səbilə

(*divardan asılmış qızının şəklini Çayırlinskiyə göstərib, qızını tərifləyə-tərifləyə ona*)

Bir dənədir, bir dənə,
O da rast gəldi sənə!

Bu sözdən xoşhallanan Çayırlinski bir ciddi tövr alıb, saatına baxır.

Çayırlinski

Uzun çəkər məruzə...

Səbilə

Nahar vaxtı gəl bizə.

(*Çayırlinski təşəkkür edib gedir. Səbilə onu yola salıb, ardınca baxa-baxa*)

Bax bir boya-buxuna,
Paxıllıqdandır, əlbət.
O, xoş gəlmir çoxuna...
Ax... pis adama lənət!..

(*Sevincək gəlib maqnitofonu çaldırır və zümzümə edir. Bu zaman qapının zəngi çalınır. Səbilə qapını açır. Otağa şən və gülər üzlü bir dəstə tələbə Yeganə ilə daxil olurlar. Səbilə tələsik qızından soruşur*)

Necə keçdi məruzən?
Mənim qəlbimi üzən,
A zər qanadlı bir quş!

Y e g a n ə

(*gülümsəyərək anasına*)

Dinləyənlərdən soruş.

S e v i n c

(*şadlana-şadlana*)

Əla!

(*Qızlar otağa daxil olan tək, kimisi küncdəki tərəziyə çıxıb öz çəkisini yoxlayır, kimisi də otağın küçəyə açılan pəncərənsinin pərdəsini aralayıb küçəyə tamaşa edir. Almas isə otaqda gəzə-gəzə ev əşyalarına tamaşa edərək, dolabın içindəkilərə baxmaqla məşğuldur. Sevinc mizin arxasında oturub, Almasın hərəkətlərinə tamaşa edir. və ona kinayə ilə*)

Almas, Parisdəsən sən
Hər yeri seyr edirsən?

Y e g a n ə

Yelisey çölü, zaddır?
O yerlər bizə yaddır.

S e v i n c

(*Almasa*)

Gəl oturub bax gendən!

A l m a s

Sən yaxşı bil ki, bunu, –
Hər insanın evindən
Bəlli olur məzmunu.

(*Dübarə dolaba baxıb, dodağını büzərək*)

Mənimki büllur qabdır.

Y e g a n ə

Mənimkisə kitabdır.

A l m a s

(*çiyinlərini darta-darta*)

Heç büllur qabı yoxdur.

S e v i n c

Lakin kitabı çoxdur.

A l m a s

(*ağzını büzərək*)

Salonda hamı duydu
Məruzəsi quruydu.

Y e g a n ə

(*armudu stəkanlara çay süzüb rəfiqələrinin qarşısına qoyur*)

Dadlı çay süzdüm sizə.

A l m a s

(*Sevincin qulağına pıçıldayır*)

Yordu bizi məruzə.

S e v i n c

Əksinə, çox gözəldi!
Mənim xoşuma gəldi.

N a m i q

(*istehzalı*)

Heç istedadı yoxdur,
İstəyir qazansın ad.

S e v i n c

Namiq, zəhməti çoxdur,
Çalışmaqdır istedad!

(*Namiq Yeganəgilin ailəvi albomunu vərəqlərkən, Sevinc albomu onun əlindən alıb bir kənara qoyur və ona*)

Namiq, albomu qoy bir yana,
Gəl qulaq as Zamana.

(*Sonra üzünü Zamana tutaraq*)

Kənarda oturma tək
Zaman, sən danış görək!

Z a m a n

Qız, elmə salıb meyil,
Məruzəsi pis deyil.

A l m a s

(*yerini dəyişib, Sevincin yanında oturur və Zamanı göstərərək*)

Sən bu oğlandan danış
O mənə gəlir tanış.
Dilxor oturub yaman,
Kimə vurulub Zaman?

N a m i q

Yeganəyə dikib göz,
Qız ona ev verib söz.

S e v i n c

Eyy... uydurma özündən,
Yalan yağır gözündən!

Yeganə dostlarını torta dəvət edir.

N a m i q

(*tortu iri-iri parçalarla ağzına dürtüb*)

Mən dadlı tort yeyim...

Y e g a n ə

Mənsə səhvimi deyim.
Elmə əsaslandım tək.
İş möhkəm olsun deyə,
Təcrübə ilə gərək
Birləşsin nəzəriyyə.
Əzizlərim, bir an da
Siz mənə qulaq asın.
Necə edək heç yanda
Ağcaqanad olmasın?

S e v i n c

Qurudaq deyirəm mən
Gölməçə və lığları.
Yox eləyək kəndlərdən
Bütün bataqlıqları.

Z a m a n

Həkim işi deyil tək,
Çəkilsin kanal gərək.
Çirkab sular yox olsun,
Yaşıllıqlar çox olsun.

Birdən həyətdən nəğmə səsi ucalır. Akif öz sevimli mahnısını oxuyub qızlara eşitdirir.

A k i f

A dostlar-aşnalar,
İsti otaq axtarıram.
İçində laləyanaq,
Qönçədodaq axtarıram.
Teni... teni... Korlen firmalı.
Fransız kirşanı, İran sürməsi,
Polşa saqqızı...

Qızlar Akifin səsini eşitcək, səs-küyə pəncərəyə toplaşırlar və əl edib onu içəri çağırırlar. Akif içəri gircək qızlar onu gülüşlə qarşılayırlar.

A l m a s

Aaa... gəldi...
Mənim üçün ürəyi gedən
Xoş gördük, ay mənə
Eşq elan edən,
Yoxsa gəlmisən yenə?

S e v i n c

Mənim dalımca qaçdın,
Mənə qəlbini açdın.

(*Gülür*)

Xa... xa... xa... xa...

Akif qızların sözlərindən xoşhallanıb, sevinclə onların üzünə baxır.

A l m a s

(*qızlara*)

Gəlin mətləbə keçək,
Yaxşı ətriyyat seçək!
Ay oğlan, sürmən hanı?
Göstər Koti pudranı.
Rəngi ağdır, ya sarı?
Yaxşısı olsun barı.

Sevinc və Almas ətriyyatı iyləyib yoxlayırlar. Yeganə ətriyyata qarşı laqeyddir. Akif çox zarafatcıldır. O, Almasa sürmə əvəzinə cibindən qələm çıxarıb verir. Almas onu qaşına sürtür və onun qələm olduğunu görüb geri qaytarır.

A k i f

(*qələmi alıb*)

Nə aldatmışdım, amma...

A l m a s

(*acıqlı*)

Yeri... məni xamlama!
Mən gəzmişəm aləmi.
Sən dedin tanımaram
Sürmə ilə qələmi?

A k i f

(*qələmi cibinə qoyub, əsl sürmə çıxarır və təriflәyə-təriflәyə Almasa uzadaraq*)

Sürtəndə bu sürməni,
Yada salarsan məni.

(*Akifin gözü Yeganədədir. Yeganə kənarda dayanıb, onun hərəkətlərinə tamaşa edir. Akif qoltuğundan yeni bir Koti firmalı kirşan çıxarıb Yeganəyə uzadır*)

Kirşan, Koti firmalı,
İçində yağı, balı,
Apar, dünyada mənim
Bircə sənsən əlacım.

Y e g a n ə

(*laqeyd*)

İstəmirəm bəzənim,
Yox buna ehtiyacım.

(*təəssüflə Akifə baxaraq*)

Sən ki, cavansan hələ
Çalış sənət al ələ.
Bir yer tut həyatda,
Get işlə inşaatda.

A k i f

Sağlıq olsun!

Akif kirşanı cibinə qoyur. Ancaq gözü daima Yeganədədir. Ona baxa-baxa gedərkən ayağı büdrəyib yıxılır. Bütün ətriyyatı yerə səpələnir. Onları yığa-yığa ciblərinə dürtüşdürüb qaçır. Qızlar isə onun ardınca baxaraq gülürlər: “Xa... xa... xa... xa...”

A l m a s

(*qızlara*)

Bəh... nə gözəl oğlandı,
Bir atəş kimi yandı.
Zilləyərək gözünü
Bircə mənə baxırdı.
İtirmişdi özünü,
Lap ürəyi axırdı.

S e v i n c

(*istehzalı*)

Çox fors eləmə, Almas,
Gözəlsən, səndən olmaz.

A l m a s

(*lovğa ilə*)

Qız hanı mənim kimi?
Şirin sözü, söhbəti...

S e v i n c

O neyləyir həkimi?
Yoxdur mədəniyyəti.

A l m a s

Biznesdən qazanar pul,
Aləm olar ona qul.

(*Zümzümə edə-edə fırlanıb, oynamağa başlayır*)

Y e g a n ə

(*ona təəccüblə baxaraq*)

Ancaq puldur amalın,
Puldan xoş olur halın.

Uzaqdan Akifin mahnısı eşidilir. Qızlar sakit olub, mahnıya qulaq asırlar. Namiq isə torta girişib, parça-parça ağzına doldurub yeyir. Almas isə mahnının təsiri altında rəqs edə-edə mahnıya qulaq asır.

A k i f i n   m a h n ı s ı :

A dostlar-aşnalar,
İsti otaq axtarıram.
İçində laləyanaq,
Qönçədodaq axtarıram.

Birdən Səbilə qucağında bir dəstə yasəmən çiçəklərilə otağa daxil olur.

S ə b i l ə

(*çiçəkləri mizin üstə qoyub*)

Təzə açan yasəmən
Gətirmişəm sizə mən.
Bir xoş ətir saçılsın,
Ürəyiniz açılsın.

Q ı z l a r

(*bir ağızdan*)

Çox sağ ol, ana!

(*Gülü iyləyirlər*)

S ə b i l ə

(*üzünü qızlara tutub*)

Qurtarmısız təhsili,
Bitib daha dərs ili.
Bugün-sabah alarsız
Həyat vəsiqənizi.
Siz bir boy ucalarsız,
Əmək gözləyir sizi.

Qızlar hərə bir gül alıb şad və xuraman gedirlər. Şən bir musiqi sədaları altında pərdə yavaş-yavaş enir.

P ə r d ə

## İKİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Dağın ətəyində yaşıllığa bürünmüş bir kənd. Yol kənarında Qızılvar kənd həkim məntəqəsi görünür. Həkim Y e g a n ə məntəqədə oturub, mikrofon vasitəsilə mühüm məlumat verir.

Y e g a n ə

Əziz əməkçilər, sizə salamlar!
Qulaq asın, təzə bir məlumat var.
Siyahıda olan əlli qız-gəlin,
İşləməyə çay sahəsinə gəlin.
Bətndə uşağı məhv edir tütün,
Qadın söhbətini pozur büsbütün.
Gənc nəslimiz sağlam böyüsün deyə,
Sizi keçirmişik başqa sahəyə.
Hələlik bu qədər, sağ olun...

(*O, mikrofonu kənara qoyub, telefon dəstəyini qaldırır və xəstəxanaya zəng edir*)

Alo... xəstəxanadır? Danışan həkimdir!
De necədir körpənin vəziyyəti?
Düşübdürmü bu səhər hərarəti?
Düşübdürsə, saxla vurma iynəni,
Bir azdan gəlirəm, gözləyin məni.

Yeganə telefon dəstəyini yerinə qoyan kimi birdən telefon zəngi çalır. Yeganə dəstəyi qaldırır. Zəng edən arakəsmənin o tayından həkim məntəqəsinin həkimi S e v i n c d i r. O, Yeganə ilə danışır.

S e v i n c

Alo... Yeganə, salam...

Y e g a n ə

Salam, əzizim, salam,
Sevinc, söylə görüm, bir nə var-nə yox?

S e v i n c

Gecə-gündüz məntəqədə işim çox.

Y e g a n ə

Səndən bir xoş söhbət gedir hər yanda;
Doğum evi açmısan Ərkivanda,
Təbrik edirəm, təbrik edirəm...

S e v i n c

Çox sağ ol, əzizim,
Söylə, səndə nə var-nə yox, Yeganə?

Y e g a n ə

Bu gün dəvətnamə göndərdim sənə!
Sabahdan açılır dağın yolları!
Çimərlik hovuzu hazırdır daha,
Çoxlu qonaq çağırılıb sabaha...
Sevinc, qısası sözün,
Gəlib görərsən özün.
Hələlik, sağ ol!

S e v i n c

Oldu... sağ ol...

Yeganə telefon dəstəyini yerinə qoyur. Məntəqəyə ucaboy, gözəl, yaraşıqlı gənc bir qız daxil olur. Bu çay becərən T a c ə d i r . O, acıqlı-acıqlı Yeganəyə baxır.

T a c ə

Salam!.. Bir qulaq as, doktor Yeganə!
Mənim bir dözülməz sözüm var sənə!
Hələlik Tacənin çıxmayıb canı,
Sən ala bilməzsən məndən Zamanı!
Onunla bir gəzmək nə hərəkətdir?
Bu qədər yol gəldin sən basa-basa,
Döndərə bilməzsən toyumu yasa!..

Y e g a n ə

(*diqqətlə Tacəyə qulaq asıb, mülayim səslə ona cavab verir*)

Tacə!.. Bu hərəkət yaraşmaz sənə!
Zaman ancaq hörmət eləyir mənə!

Zaman mənim bir sinif yoldaşımdır,
Sən mənim bir bacım, o qardaşımdır!

T a c ə

Nə deyirəm ki, təki sən deyən olsun...

Y e g a n ə

Sabah bayramdır, meydana gedərik,
Hamımız birlikdə şənlik edərik.

Yeganə Tacə ilə birlikdə getməyə hazırlaşarkən, Z a m a n məntəqəyə daxil olur.

Z a m a n

Salam Tacə, xeyir ola?
Niyə gəlmisən məntəqəyə?
Yoxsa xəstəsən, nədir?

Y e g a n ə

O heç vaxt xəstələnməz!
Bacısı Yeganədir
Onu gətirən bura!

Z a m a n

Çox əcəb, çox gözəl...
Yeganə, profilaktika
Sağlamlıq təməlidir!
İnsanı mühafizə,
Kənddə güclənməlidir!
Sabahdan başlayırıq
Müayinəyə, peyvəndə.
Yoluxucu xəstəlik
Üz verməsin kəndə.

Y e g a n ə

Oldu!
Hamı əl-ələ verib,

Qoşulaq bir tədbirə.
Bizim eldə xəstəlik
Yox olsun birdən-birə!

(*Birdən telefonun arasıkəsilməz zəngləri eşidilir, Yeganə həyəcanla dəstəyi qaldıraraq*)

Alo, alo... xəstəxana!
Nə olub, nə olub?..
Necə?.. İlan çalan var?..
Bu dəqiqə gəlirik!..

Yeganə və Zaman birlikdə xəstəxanaya gedirlər. Tacə onlardan ayrılıb gedərkən, yolda əlində bir bağlama olan qadına rast gəlir və ayaq saxlayıb ondan soruşur.

T a c ə

Xala, xoş gəlmisən bizim diyara,
Siz hara, bura hara?

Bu qadın, Yeganənin anası S ə b i l ə d i r. O, üzünü Tacəyə tutub soruşur.

S ə b i l ə

Tanıyırsan sən doktor Yeganəni?
Qızımdır, bayrama çağırıb məni.

T a c ə

Zəng edim, xəbərdar olsun Yeganə.

S ə b i l ə

Tez gəlib özünü yetirsin mənə.

Tacə Səbilə ilə birlikdə məntəqəyə qayıdıb, xəstəxanaya zəng edir.

T a c ə

Alo... xəstəxanadır?
Doktor Yeganə lazımdır mənə!
Alo... doktor Yeganə,
Tacədir, məntəqədən.
Xəbər var, muştuluq sizdən!

Ananız gəlib, buradadır indi,
Gəlin məntəqədə, gözləyir sizi...

(*Telefonu yerinə qoyub, Səbiləyə*)

Xəbər verdim, Yeganə çox sevindi
Eşidən kimi o, gəlişinizi.

S ə b i l ə

Yeganənin necədir vəziyyəti?

T a c ə

Kənd içində çoxdur onun hörməti.

S ə b i l ə

Görən, kənd yerinə necə alışır?

T a c ə

Gecə-gündüz xəstələrlə çalışır.

Yegənə tələsik, çox sevincək məntəqəyə daxil olur və anasını qucaqlayıb onu öpür.

Y e g a n ə

Ana, bağışla gecikdim bir qədər...
Mən yardım edirdim ilan vurana!

S ə b i l ə

Necə... necə?.. İlan vurana?

Y e g a n ə

Qorxma! Vəziyyəti düzəlir daha,
Ona moruq yığmaq oturub baha.

S ə b i l ə

Moruq yığırmış uşaq,
Gəl halını soruşaq.

Y e g a n ə

Narahat etmək olmaz!
Yatıb, dincəlsin bir az.

(*Anasının saçlarını sığallaya-sığallaya*)

Yaman qaraldı qanın.

(*Yeganə Tacəni anasına göstərib*)

Ana, nişanlısıdır
Bu qız doktor Zamanın.

S ə b i l ə

Çox gözəl...

(*Tacəyə yaxınlaşıb onu öpür*)

Mən xoşbəxtlik arzu edirəm sizə!

T a c ə

(*Səbilənin əlindən tutub özünə sarı çəkir*)

Verin bu qonağı aparım bizə!

Y e g a n ə

Çox sağ ol, əzizim.

T a c ə

(*onlarla görüşüb*)

Sağ olun!

(*Gedir*)

Y e g a n ə

Sən də sağ ol!

(*Ana və bala məntəqədə oturub söhbət edirlər. Yeganə üzünü anasına tutub*)

Məntəqədə keçir gecəm-gündüzüm,
Ana, sənə bir ətirli çay süzüm.

(*Pəncərəni açarkən, eşikdə radioda səslənən "Çay mahnısı" eşidilir. Yeganə əlində stəkan çaya işarə edib*)

Ana, burda becərirlər bu çayı,
Əməkçilər çalışır qışı, yayı.

Səbilə

(*armudu stəkandan ətirli çay içə-içə*)

Bəh-bəh çayın necə yaxşıdır dadı...

Yeganə

Bu çayın dünyada məşhurdur adı!
"Azərbaycan çayı..."
Ana, danış görüm Bakıda nə var?

Səbilə

Pırr edib quş kimi uçdular qızlar!
Sən Yeganəm bu yerlərə baş aldın,
Elə bildim bütün dünyam boşaldı.
Sevinc də, deyəsən, işləyir burda,
Qayıdıb gəlmişdir o, doğma yurda.
Bəs Sevinc hardadır?

Yeganə

Ərkivandadır,
Əlini uzatsan çatar o kəndə.
Sabah görüşərsən onunla sən də.
Almasdan nə xəbər var?

Səbilə

Almas, Çayırlinskiyə getdi ərə,
Toy günü çıxdılar uzaq səfərə.

Y e g a n ə

Çayırlinskiyə?

(*Gülür*)

Xa... xa... xa... xa...

S ə b i l ə

Bəli, bəli, Çayırlinskiyə!
Çox çəkmədi ondan ayrıldı Almas,
Dedi bu kişidən mənə yar olmaz.

Y e g a n ə

(*təəssüflə*)

Hayıf...

S ə b i l ə

Namiqi gördüm tində,
O dedi ki, həkimdir
Biskvit fabrikində.

Y e g a n ə

Ax... səni şirniyyatpərəst...

S ə b i l ə

Akif tez-tez zəng edir,
Deyir ki, dərsə gedir.

Yeganə anasilə söhbət edərkən, M a h m u d k i ş i həkim məntəqəsinə daxil olur.

M a h m u d k i ş i

Salam, doktor Yeganə.

Y e g a n ə

Xoş gördük, Mahmud əmi.

(*Anasını Mahmud kişilə tanış edir*)

Tanış ol, anamdır, qonaqdır mənə.

M a h m u d  k i ş i

(*əl verib Səbilə xanımla tanış olur*)

Xoş gəlib o, səfa gətirib sənə.

Y e g a n ə

(*mizin üstündə olan kompleks plana işarə edib*)

Hazırlamışam dünən,
Bu kompleks planı.

M a h m u d  k i ş i

Ver görüm, hanı?

(*Yeganə Kompleks planı Mahmud kişiyə təqdim edir. Mahmud kişi razılıqla başı ilə təsdiq edib*)

Çox əcəb, çox gözəl...

Y e g a n ə

Kənddə çox iş görülüb, Mahmud əmi,
Bircə su kranı var idi cəmi.
Çəkilibdir su kranı evlərə,
Rahat su işlədir bu kənddə hərə.

M a h m u d  k i ş i

Kənd dəyişib siz gələni bura,
Tullantı sular axmayır çaya.
Gölməçə basmışdı kəndi az qala,
İndi çirkab sular axır kanala.

Y e g a n ə

İdman meydançası hazırdır daha.

M a h m u d  k i ş i

Su hovuzu açılacaq sabaha.

Y e g a n ə

Məktəbin var təmirə ehtiyacı,
Həyətində var ikicə ağacı.
Ətrafında olsun bir güllü bağı,
Bülbüllər oxusun hər səhər çağı.

M a h m u d  k i ş i

Oxuyacaq... oxuyacaq...
Dayan... bu kəndimiz cənnət olacaq.

S ə b i l ə

Mən bilirəm bir qiymət olacaq.

M a h m u d  k i ş i

Asfaltlaşsın gərək kənd küçələri,
Qurudaq büsbütün gölməçələri.

Y e g a n ə

Yeni iş hər yana səs salacaqdır.

S ə b i l ə

Bəli, gənclik qələbə çalacaqdır!

Bu arada rayonun baş epidemioloqu Z a m a n  məntəqəyə daxil olur.

Y e g a n ə

(*onu qarşılayır*)

Zaman!
Salam olsun təmizlik Allahına.

M a h m u d  k i ş i

Xoş gəldin doğma kəndə,
Xeyli iş gördün sən də.
Kəndimizdə fəaliyyətin çox olub,
Yoluxucu xəstəliklər yox olub.

Y e g a n ə

Elə bil ki, qış da dönüb yaz olub.

Z a m a n

Bizim bu kənd indi tanınmaz olub.

M a h m u d  k i ş i

Sabah gəlin mərkəzdəki meydana,
Bayraqlarımız qoy asılsın hər yana!
Açılışıdır yolun,
Sizdə orada olun.

Z a m a n

Baş üstə!

Y e g a n ə

Siz bağışlayın məni,
Nigaranam, gedim xəstəxanaya,
Bir baş çəkim ağır xəstə anaya.

Z a m a n

Həkim insanlar üstə
Yarpaq kimi əsməli.
Bütün xəstəliklərin,
Qarşısını kəsməli.

Hamı məntəqədən çıxıb gedərkən, Mahmud kişi Yeganədən ilan vuran xəstənin vəziyyətini soruşur.

M a h m u d  k i ş i

Söylə, ilan vurandan
Nə xəbər var?

Y e g a n ə

Bayramadək sağalar.

Onlar ayrılırlar. Səbilə məntəqədə tək oturub, tibb jurnallarını gözdən keçirir. Sevinc məntəqəyə daxil olur və sevincək Səbilə xanımla görüşür.

Sevinc

Ooo... salam, xoş gəlmisən, Səbilə xala,
Sən bizi lap unutmuşdun az qala.
Xala, hara gedib bizim Yeganə?

Səbilə

Xəstə üstə gedirəm söylədi mənə.
Darıxma, Yeganə gələcək indi.
Səni gördüm lap ürəyim sevindi...
Sizi çox istəyir bu kənd adamı,
Soruşdum, razılıq eyləyir hamı.
Siz gələni azalıb kənddə xəstə,
Lap qoymusuz burda dağı-dağ üstə.

Sevinc

Gecə-gündüz burda çalışır hərə,
Kəndimizi bənzədirik şəhərə.

Səbilə

(*Sevincin barmağındakı üzüyü görüb*)

Üzük taxıb, nişanlanmısan əlbət,
Qismət olsun sənə böyük səadət.

Sevinc

Çox sağ ol, çox sağ ol...

Səbilə

Bəs kimdir nişanlın sənin a bala?

Sevinc

Kənddə aqronomdur, Səbilə xala.

Yeganə sevincək məntəqəyə daxil olur və Sevinclə görüşür.

Y e g a n ə

Sevinc, gəlib çıxdın, xoş gördük səni.

S e v i n c

Çox sağ ol, əzizim...
Ananla görüşdüm, şad etdi məni.

T a c ə tələsik məntəqəyə daxil olur.

T a c ə

(*üzünü qonaqlara tutub*)

Gedirik! Hamınız durun ayağa!

Y e g a n ə

(*təəccüblə*)

Xeyir ola, hara?

T a c ə

Qırçaplov bişirmişəm nahara.

Hamı ayağa qalxıb gülə-gülə gedirlər.

P ə r d ə

## İKİNCİ ŞƏKİL

Pərdə önü. Sevinc kənd kənarındakı yol ilə gedərkən Akifə rast gəlir, o addımlarını yavaşıdıb Akiflə görüşür.

S e v i n c

Akif, xoş gördük səni,
Sən hara, bura hara?

A k i f

Sən şəhərdən köçəni
Düşmüşəm səhralara.

(*Akif saçlarını qarışdırıb, özünü Məcnuna oxşadaraq*)

Ey əziz kənd həkimi,
Sən gözəlsən, göylərin
Sularda əksi kimi.
Məni unutdun nədir?

S e v i n c

Eee... goplama!
Sevgilin Yeganədir...

A k i f

Sevinc, söylə, bəs sənin
Haralardır məskənin?

S e v i n c

Masallıdan o yanda,
Həkiməm Ərkivanda.
Dostum Yeganənin mən
Qonağıyam dünəndən.

A k i f

Çox gözəl...

S e v i n c

Qonaqlar gəlib hamı,
Şən keçirək bayramı...
Akif, söylə, yenə sən
Ətriyyat gəzdirirsən?

A k i f

Sizin eşqinizlə mən,
Uymuşdum ətriyyata.
İndi atılmışam mən,
Zəhmət dolu həyata.

S e v i n c

Başqa adamdın əvvəl,
İşgüzarsan, çox sağ ol.
İş yerin hardadır bəs?

A k i f

Sirrdir, bilməz heç kəs...
Hələlik sağ ol...

S e v i n c

Sən də sağ ol...

Onlar ayrılırlar. Pərdə açılır. Səhərdir. Günəşin parlaq şəfəqlərinə bürünən kənd oyanır. Kənd sovetinin qarşısındakı meydanda camaat toplaşmışdır. Meydanda qurulmuş xitabat kürsüsünə kənd sovet sədri Mahmud kişi qalxıb sözə başlayır.

M a h m u d  k i ş i

Əziz dostlar!
Təbrik edirəm sizi.
Dağ yolumuz salındı
Bu kəndimizdə,
Əzab-əziyyətdən
Qurtardı bizi.
Bir yol da gəldi kəndə,
Dağı saldıq kəməndə...
Hovuz da hazır olub,
Şəffaf su ilə dolub.
Uşaqlar üzər suda.
Çoxlu kanal çəkilib,
Kəndimiz yaşıllaşır.
Yoldaşlar! İndi də mən,
Zamana verdim sözü.
Mükafat alanlardan,
Qoy o danışsın özü.

Z a m a n
(*kürsüyə qalxıb mükafat alanları təqdim edir*)

Yoldaşlar!
Bizim kəndimizdə var,

Çox hörmətli bir memar.
Şəfiqədir o ustad,
Zəhmətlə qazanıb ad.
Layihələri çoxdur,
Özü burada yoxdur.
Onu sevirik biz də.
Yaradıb kəndimizdə
Hovuzu, heykəlləri,
Lap qızıldır əlləri.

(*Büllur vazanı yuxarı qaldırıb camaata göstərir və sözünə davam edir*)

Şəfiqəyə yetirək
Bu kiçik mükafatı.
Dünya durduqca onun
Qoy uzansın həyatı.

Camaat əl çalır. Mahmud kişi söz alıb danışmağa başlayır:

M a h m u d  k i ş i

Saxlayırıq Yeganə
Doktorun hörmətini.
Bir deyin, kim unudar
Həkimin zəhmətini?

(*Təcili yardım maşınının açarını camaata göstərib*)

Məntəqə üçün maşın
Ayırıb dövlət sizə.
Qoy maşın kömək etsin
Təbabət işinizə.
Hanı doktor Yeganə?

Z a m a n

O, xəstə üstə gəldi,
Qrip başlayıb yenə.

(*Birdən Y e g a n ə görünür. Zaman onu göstərib*)

Odur özü də gəldi.

Mahmud kişi onu çağırıb təcili yardım maşınının açarını ona təqdim edir. Yeganə razılıq edib oturur.

M a h m u d k i ş i

Alqış olsun inşaatçı Fərhada!
Onun kimi qoçaq azdır dünyada.
Gecə-gündüz dağda keçdi həyatı,
Bağışlanır ona bu qol saatı!
Gəlsin Fərhad, qoy bağlayım qoluna.

Z a m a n

Burda yoxdur, o qalxıb dağ yoluna.

M a h m u d k i ş i

(*əlində qayçı, ortada durub camaata müraciət edir*)

İcazə verin, kəsək
Dağ yolunun lentini.
Maşınlara yol olsun,
Gediş-gəliş bol olsun.

Mahmud kişi dağ yolunun lentini kəsir. Hamı dağlar tərəfə baxıb "Urra" deyib əl çalırlar. Qəfildən n a m ə l u m b i r ş ə x s həyəcanla yığıncağa daxil olub, fəlakətli bir hadisənin baş verdiyini xəbər verir.

N a m ə l u m ş ə x s

Yanğın var fermada!
Mal-qara getdi bada!
Tez olun kənd adamı,
Köməyə gedək hamı!..

O, aradan çıxır. Kənd camaatı böyük təlaş içərisində kimi əlinə kətmən, kimi vedrə, kimi bel alıb fermaya doğru yüyürürlər. Birdən kimsə meydandakı kürsüyə qalxıb, o yan- bu yana boylanır.

B i r n ə f ə r

(*ucadan*)

Yoldaşlar! Sakit olun!
Yanğından yoxdur əsər!
Pozdu məclisimizi,
Kim isə bir gicbəsər!..

Kənd camaatı meydançaya qayıdır. Əllərindəki alətləri hərə bir yana ataraq, yer-yerdən ucadan deyirlər:

C a m a a t

Yanğın yalanmış yalan...
Yox olsun şuluq salan!..

Meydanda yaşılbaş ördəklərin pantomima rəqsi başlanır. Onlar təzə salınmış hovuzda üzən uşaqları təmsil edirlər. T a c ə, Y e g a n ə, Z a m a n, S e v i n c, S ə b i l ə, M a h m u d k i ş i yallı gedib şənlik edirlər. Birdən işıqlar sönür. İşıqlar yananda həkim məntəqəsi görünür. Yeganə məntəqədə oturub labarator müayinələri aparır. Bir nəfər kəndli məntə-qəyə daxil olub həkimə müraciət edir.

K ə n d l i

Doxdur Yeganə, ağır
Xəstə var Kolatanda.
Zəng vur bir maşın çağır,
Çöldə bərk yağış yağır.

Y e g a n ə

(*Boradigəyə maşından ötəri zəng edir*)

Alo... alo...
Boradigə, Boradigə...
Həkim məntəqəsi...

Y e g a n ə

(*öz-özünə*)

Necə pis gəlir səsi...
Alo... maşın göndərin
Qızılavara!
Hara gedib, hara?
Sahələrə?..

(*Yeganə dəstəyi yerinə qoyur*)

K ə n d l i

(*həkimə baxıb*)

A doxdur, çıxaq yola,
Üz tutaq kəndə birbaş.

Rastımıza nə ola
Bir maşın düşəydi kaş.

Y e g a n ə

Elə ki, yağdı yağış,
Bir maşın düşmür ələ.
Maşın almışıq bu qış,
Sürəni yoxdur hələ.

Yeganə və kəndli yola çıxırlar. Birdən maşın siqnalı eşidilir. Onlar səs gələn tərəfə baxırlar. Bu A k i f i n idarə etdiyi təcili yardım maşınıdır.

A k i f

(*üzünü Yeganəyə tərəf tutub*)

Buyurun! Doktor Yeganə...

Y e g a n ə

(*öz-özünə*)

Bu səs tanış gəlir mənə,
Bu Akifin səsidir?..
Odur, ya özgəsidir?..

(*Təəccüblə üzünü Akifə tutub*)

Sən hardan gəldin bura?
Söylə, qarabalasan?

A k i f

Doktor! Mən dura-dura,
Sən maşınsız qalasan?
Bu məntəqəyə aldım
Dünən təyinatımı.
Səntək, kəndə bağladım
Mən də öz həyatımı!

Yeganə gülümsəyir, sonra kəndli ilə birlikdə maşına oturur. Maşın təzə salınmış yolla, içərisində səslənən "Vağzalı" musiqisi sədaları altında yola düşür.

P ə r d ə

S o n

# CUNQUŞ

*Səkkiz şəkilli pyes*

İŞTİRAK EDİRLƏR:

Cunquş
Aytək
Vəli baba
Yeltay
Durnabaşı
Birinci durna
İkinci durna
Üçüncü durna

## BİRİNCİ ŞƏKİL

Alaqaranlıqdır. Uzaqdan Cunquşun "Mən sevirəm vətəni" mahnısı ucalır. Cunquş, Vəli babanın darvazasına yaxınlaşdıqda mahnını kəsib işə başlayır – ağacların dibini belləyir, onlara su verir və hasarın sökük yerlərini düzəldir. Hava işıqlandıqda Cunquş darvazadan çölə çıxaraq gözdən itir. Günəş qalxır. Ağ saçlı və saqqallı qoca Vəli baba yatağından durub, əl ağacı ilə eyvana çıxır, qarşıdakı bağının suvarıldığını görüb, çox təəccüblənir və nəğmə oxumağa başlayır.

Vəli babanın nəğməsi:

Pahoo, pahoo, pahoo,
Kim suvarıb ləkləri,
Gülləri, çtçəkləri?

(*Vəli baba pəncələri üstə qalxaraq, əlini alnına qoyub uzaqları seyr edərək oxumaqda davam edir*)

Çöldə qurudur qamış,
Demək yağmayıb yağış.
Bəs necə cərgə-cərgə
Sulanıb mərci, lərgə?
Su dolub hər çuxura,
Çarhovuza, axura!
Kim olub burda gecə?
Öz-özünə bəs necə
Sulanıbdır heyva, nar,
Görən burda nə sirr var?

V ə l i  b a b a

(*bağçada bir az da irəliləyərək, təəccüblə*)

Yuyunub püstə, badam,
Lap heyran qalır adam.

(*Vəli baba beli götürüb yavaş-yavaş bostana doğru gedir, burada yenə heyrətlə*)

Pahoo, nə çox görülüb iş?
Sulanıb qarpız, yemiş.
Kim becərib bostanı?
Bəs bu işgüzar hanı?

Vəli baba beli çiyninə aşırıb bostandan qayıdarkən, xoruzun qoqqultu səsi aləmi bürüyür. Xoruz barını aşaraq həyətə tullanır, qonşu qız A y t ə k barıdan boylanaraq barmağilə xoruzu hədələyir.

A y t ə k

A mənasız banlayan,
Gəldim canınçün, dayan!
Yolaram qanadını,
Unudarsan adını!

V ə l i  b a b a

Nə olub sənə Aytək?
Həyətə gəl bir görək.

A y t ə k qoltuğunda kuklası barıdan aşıb həyətə gəlir və xoruzdan şikayətlənir.

A y t ə k

Gündə azı yüz kərə,
Nənəm onu danlayır.
Çıxıb bizim çəpərə,
Axşamacan banlayır.

(*Xoruzun ardınca qaçır*)

V ə l i  b a b a

(*onu sakitləşdirərək*)

Xoruzdur, nə anlayır...

A y t ə k

Kuklam elə ki, yatdı,
O, dalbadal verdi ban,
Axır onu oyatdı,
Lap şirin yuxusundan.

Xoruz uçaraq Vəli babanın çiynınə qonur.

V ə l i b a b a

(*xoruzu sığallaya-sığallaya*)

O bir daha eləməz!
Aytək, gəl bağçanı gəz.

A y t ə k

(*qucağındakı kuklanı nəvazişlə oxşayaraq, ona layla çalır*)

Kuklam, kuklam, yat, kuklam,
Boya-başa çat, kuklam.
Bağımızda bar olar,
Heyva olar, nar olar.
Verərəm sənə də pay,
Laylay balam, a laylay.

Laylay sədası tədricən uzaqlaşır.Vəli baba isə xoruzunu oxşayaraq ona mahnı deyir.

V ə l i b a b a n ı n m a h n ı s ı:

Sən xoruzsan qızıllələk,
Uçsan sənə çatmaz külək.
Dolaşırsan güllü bağı,
Tüklərin lap göy qurşağı;
Yeddi əlvan rəngə çalır,
Nəğmən göyə səda salır.

V ə l i b a b a

(*xoruza dən səpə-səpə*)

Səpdim sənə çoxlu darı,
Bir də aşma bu hasarı!

Xoruz babanın çiynindən yerə hoppanıb, "qok-qok" qoqquldayaraq darını dənləməyə başlayır, "tık-tık" edib, toyuqları da dənə çağırır.

V ə l i  b a b a

(*Aytəkin ardınca müraciətlə*)

Sən bilirsənmi, Aytək,
Bizim bağda kim olur?
Suvarılır gül, çiçək,
Hər yan su ilə dolur
Dolçayacan, qabacan.

A y t ə k

Görməmişəm babacan.
Üç gündür bəsləyirəm
Fermanın çəpişini.
"Tüşi, tüşi" səsləyirəm,
Görürəm hər işimi.
Özü boz, başı ala.

V ə l i  b a b a

Ay sağ ol, Aytək bala.

Vəli baba zümzümə edə-edə Aytəki evlərinədək ötürür.

P ə r d ə

## İKİNCİ ŞƏKİL

Çöldə, kiçik qara hörükləri çiyninə tökülmüş, qırmızıyanaq, atılıb-düşən bir qəşəng qız görünür. Bu A y t ə k d i r. O əlindəki çubuğu hərləyə-hərləyə kol-kosu gəzir və öhdəsinə götürdüyü çəpişi axtarır.

A y t ə k

Eh, kim bilir, daraşıb
Bostanda yer-yemişə.

(*Birdən üzünü qayalığa tərəf çevirərək*)

Bəlkə qayadan aşıb,
O məni salıb işə.
Başım qarışdı dünən
Xoruz ilə kuklaya,
Qaçırdım çəpişi mən.
Necə gedim fermaya?

Aytək həzin-həzin oxumağa başlayır.

A y t ə k i n   m a h n ı s ı:

Qulaqları dümağ çəpiş,
Düşdün məndən uzaq, çəpiş.
Buynuzlaırn yoxdur hələ.
Olsa gücün çatar kələ.
Ən qəşəngsən sən fermada,
Zəhmətimi vermə bada.
Bəsdir gəzdin dağda-dikdə,
Gəl otla bu çəmənlikdə.

A y t ə k
(*çəmənlikdə Vəli babaya rast gəlir və onu səsləyir*)

Vəli baba, saxla ayaq,
Evinizdən çıxıb bayaq
Gələndə sən bu çəmənə,
Rast gəlmədi çəpiş sənə?
Tükü ipək, başı ala.

V ə l i   b a b a

Rast gəlmədi mənə, bala.
Düş dərəyə, dırman yala,
Qayalıqda çəpişi gəz,
Oralardan uzaq getməz.

Vəli baba ötüb gedir. Aytək bir qədər gəzdikdən sonra, Y e l t a y l a rastlaşır.

Y e l t a y

Aytək, yoxsa çəpiş qaçıb?
O, dağlara ayaq açıb.
Eh, qurd onu çoxdan oyub,
Əmlik əti yeyib, doyub.

A y t ə k

Yeltaysansa yel kimi əs,
Çəpişimin yolunu kəs!

Y e l t a y

Olacaqsa mükafatım,
Mən yüyürüm oan çatım.

Heç adam da əmanəti
Öz gözündən qaçırarmı?

A y t ə k

Çox şıltaqdı xasiyyəti.

Y e l t a y

Boynunda zınqırov varmı?

A y t ə k

Yox, zınqırov taxmamışdım,
Mən ona pis baxmamışdım.
Hər gün ona günortaya,
Ot yığırdım taya-taya.

Y e l t a y

Nə verərsən dağa çapım,
Çəpişini gəzim, tapım?

A y t ə k

Mən də var sərgi nişanı.

Y e l t a y

Yanındadır, görüm hanı?

(*Aytək nişanı ona göstərir. Yeltay nişana baxıb narazı bir halda*)

Eh, bundan doludur bizdə,
Hamı taxır kəndimizdə.

Aytəkdən uzaqlaşır. Kəndə axşam kölgəsi düşür. Qoyun-quzu mələşə-mələşə çöldən qayıdır. Aytək oxuya-oxuya qoyun-quzu sürüsünə girib öz çəpişini axtarır.

A y t ə k

Qulaqları dümağ çəpiş,
Düşdün məndən uzaq, çəpiş...

Aytəkin mahnısilə pərdə yavaş-yavaş enir.

## ÜÇÜNCÜ ŞƏKİL

Alaqaranlıqdır. Vəli babanın eyvanı və bağı görünür. C u n q u ş bağda işlədikdən sonra darvazadan çölə çıxaraq yoluna davam edir. Bir azdan V ə l i b a b a eyvanda görünür və səkidə oturub çubuq çəkməyə başlayır. Hasarın o tayından Y e l t a y ı n səsi gəlir.

Y e l t a y

Nə verərsən, ay baba,
Ağacları belləyim?
Nə verərsən, ay baba,
Ocağını yelləyim?

(*Baba danışmır. Uzaqdan Yeltay görünür və babaya müraciətlə*)

Gəlim hasarı hörüm?
Nə verərsən iş görüm?

V ə l i b a b a

A bala iş görülüb,
Hasar dünən hörülüb.
Ağ quzuya kim isə
Ot biçib kisə-kisə.
Sübhdən o yel izli,
Həyətdə gizli-gizli
Sulayır bağ-bağçanı,
Tikir damı-taxçanı.
Kaş tapa biləydim, ah...
Kimdir belə xeyirxah.

Y e l t a y

(*ətrafa göz gəzdirərək*)

Hə... belə işlər qoca,
Gül açıb həyət-baca.
Belə de... bundan danış,
Tapmısan təzə tanış.
Demək püstə-badamı
O yeyər bundan belə.
Aldadırsan adamı
Zəhmətim getdi yelə.

V ə l i   b a b a

Eh... söz danışdın sən də,
Görməmişəm üzünü.
Dostun meyvə dərəndə
Göstərəcək özünü.

(*Birdən uzaqdan səs eşidilir. Vəli baba təəccüblə*)

O kimdir?

A y t ə k

Baba, mənəm,
Çörək göndərib nənəm.

(*Əlində bir iri təndir çörəyi eyvana yaxınlaşıb babaya verir*)

İsti təndir çörəyi
Al kərə yağilə ye.

Yeltay o biri tərəfdə kolluqdakı moruqları yığıb cibinə doldurur.

A y t ə k

Babacan nə var-nə yox,
Şad göründün mənə çox?

V ə l i   b a b a

Qocalıq lap, a bala,
Məni yıxır az qala.
Bağım gülür üzümə,
İşıq gəlir gözümə.
Ləkdə güllərə bax bir!
Kimsə bağı becərir.

(*Vəli baba əlini ləkə uzadaraq*)

Cavab ver, ay gül ləkim,
Səni kim becərib, kim?

Yeltay kənara çəkilir.

A y t ə k

(*o yan-bu yana baxaraq*)

Sağ olsun!

V ə l i  b a b a

Evdə gəzdim hər yanı,
Göz gəzdirim rəfə də.
O sehirli insanı
Görmədim, bir dəfə də.

A y t ə k

Səhər ağaranda dan
Mən düşürdüm dəhlizdən,
Gördüm bir Cunquş oğlan
Yüyürüb çıxdı sizdən.

V ə l i  b a b a

Bəs necə oldu Cunquş?

A y t ə k

Elə bil ki, oldu quş,
Uçdu qara-qıvrım saç.
Bir dedim, dalınca qaç!
Bağı becərən odur!
Girməz həyətə xəlvət,
Görüşüb sənlə, əlbət.

V ə l i  b a b a

O, Yeltay boyda vardı?

A y t ə k

Ancaq olardı.

(*Uzaqlaşır və ucadan*)

Ay baba, getdim, işim
Mənim başımdan aşır.
Ala-bula çəpişim
Görüm harda dolaşır.

Y e l t a y

(*əlilə dəhlizdəki dolabı göstərərək*)

Elə gəlir ki, mənə,
Cunquş girib dolaba.
De nə verərsən, sənə
Cunquşu tapsam, baba?

(*Yeltay dolabı açıb*)

Bomboşmuş...

(*Çıxıb gedir*)

Vəli baba hasar arxasında səs eşidir.

V ə l i   b a b a

(*bir anda hasara yaxınlaşıb qulağını divara söykəyərək*)

Yəqin bu Cunquşdur, aha..!
Düz yanıma gəlir daha.
Yaxın gəl, uzaqda durma.
Dəyib bağda armud, alma,
Gəl ye, canına nuş olsun,
Təki gələn Cunquş olsun.

Hasar arxasından gələn səs, Yeltayın səsidir.

Y e l t a y

Mənəm onun tay-tuşu!
Nə verərsən, ay baba,
Tapsam sənə Cunquşu?

V ə l i   b a b a

Sağ ol! Deyərəm sənə.

Y e l t a y

O, sərf eləməz mənə.

(*Gedir*)

P ə r d ə

## DÖRDÜNCÜ ŞƏKİL

Səhər yenicə işıqlanır. Qızıl günəş ilk şəfəqlərinə yalçın qayaları və dağları yaqut rəngə boyamışdır. Cunquş sıldırım qayalardan sürətlə dərəyə enir və çəpişi axtara-axtara nəğmə oxuyur.

Cunquşun nəğməsi:

Mən sevirəm vətənimi,
Göy bağını, çəmənini.
Dağlaırını qarış-qarış
Dolaşıram ya yaz, ya qış.
Atılmışam qayalardan,
O sıldırım qayalardan.
Çox gəzmişəm çöl düzündə,
Ulduz kimi göy üzündə.
Gah çıxım, gah batım gərək,
Hər arzuma çatım gərək.
Ala çəpiş yanıma gəl,
Peç, peç, peç, peç bir az dillən.

(*O, çaya enir, bir-iki qurtum su içir, sonra qayaya sövkənərək oturur və yenə çəpişi səsləyir*)

Peç, peç, peç, peç...
Su içməyə gəl, en çaya,
Gedək birlikdə fermaya.

Bu zaman qayalar arasından fışıltı ilə bir ilan çıxıb Cunquşun üstünə atılır. Cunquş əlindəki ağacı qaldırıb onu öldürməyə çalışır, lakin ilan onun başı üzərinə tullanaraq onu sancmaq istəyir. Cunquş isə onu ağacilə özündən rədd edir.

İlan

(*dilə gəlib*)

Heç tutmuram sərçəni,
Neylirəm sancım səni.
Rəqs etməkdir sənətim,
Dəyişib xasiyyətim.

Cunquş

İlan elə ilandır,
Yox, sözlərin yalandır!

İlan əl əçkmir, yenə ounn üstünə tullanır, bu zaman qayalar başında məskən salan qartalın məğrur “qıyyy, qıyy, qıyyy” səsi eşidilir. O, qıy vurub ilanın üstünə cumur və onu dimdiyilə əzərək göyə qaldırır. Cunquş yumruqlarını düyünləyərək qəzəblə ilanın dalınca baxır, sonra yenə çəpişi axtarmağa gedir. Kiçik bir dərədə çəpişlə rastlaşır. Tənha qayalıqda dolaşan çəpiş dərəyə düşərək, qıçını sındırmışdır. Cunquş çəpişin sınan qıçını cib dəsmalı ilə sarıyaraq, onu qucağına alır və çayı üzə-üzə o biri sahilə çıxıraraq gömgöybir çəmənə gəlir.

C u n q u ş

Hoppanmaqla kökdür aran,
Ağrıyırmı sənin yaran?

(*O, çəpişi sığallaya-sığallaya*)

Tüşi, tüşi, körpə keçim,
Gəl sənə mən göy ot biçim.

(*Çəpişə göy ot biçməyə başlayır və onu tumarlaya-tumarlaya*)

Vayy... batmısan tamam quma,
Yaşıl ot yığdım ovcuma.
Bala çəpiş, ayağa dur,
Yemlikdən ye xımır-xımır.

Çəpişin ot yediyini görən Cunquş sevinir. və çəpişin ətrafında oynamağa başlayır. Birdən dağlarda ildırım çaxır, göy gurlayır və bərk yağış yağmağa başlayır. Cunquş qoltuğunda çəpiş, dərələri atlaya-atlaya gəlib kəndə yetişir və fermaya çatır, çəpişi mal fermasının həyətindəki bir dirəyə bağlayır və tez gözdən itir.

## BEŞİNCİ ŞƏKİL

Səhərdir. A y t ə n əlində ağac çəpişi axtara-axtara “Gəzmə məndən uzaq, çəpiş” mahnısını oxuya-oxuya gedir. O, fermanın həyətinə girən kimi, birdən çəpişi fermanın eyvanının dirəyinə bağlandığını görüb, təəccüb edir. Özünü çəpişin üzərinə ataraq onu qucaqlayır. və onu oxşamağa başlayır.

A y t ə k

Hardaydın, ay çəpişim?
Ceyrana tay çəpişim.
Niyə yorğun düşmüsən?
Qayadan sürüşmüsən?
Ayağında sarğı var,
Əl vurmaram ağrıdar.

(*Fermanın qarşısındakı çəmənliyi göstərərək*)

Sənindi bu göy çəmən,
Uzaqlara getmə sən.

(*Qıçı əzilmiş çəpiş dizi üstə oturmuşdur. Aytək ona düzəltdirdiyi zınqırovu cibindən çıxarıb çala-çala sevinclə*)

Bu bəxşişdir sənə, al!
Cing-cing zınqırovundur.
A zınqırov, yaxşı çal,
Çəpişimi ovundur!

(*Aytək sevincindən zınqırovu çala-çala oynamağa başlayır, onun səsinə Vəli baba və Yeltay gəlib Aytəkin sevincinə qarışırlar. Aytək pencəyini çıxarıb, çəpişə sarıyır*)

Bürün, qoy isinsin canın,
Saman üstə yat bir təhər.

Y e l t a y

(*barmağilə çəpişə işarə edərək*)

Bunu bir Cunquş oğlanın
Qoltuğunda gördüm səhər.

V ə l i  b a b a

Kəndimizdə çox işgüzar
Balaca Cunquş oğlan var.
Qoymaz kimsə düşə dara,
Yardımçıdır insanlara, –
Hər bir işdə edir kömək.

A y t ə k

O, hardadır onu görək?

Y e l t a y

Qara, qıvrım saçı vardı,
Doqquz yaşında olardı.
Alaqaranlıqda, düzü
Yadımda qalmadı üzü.

V ə l i   b a b a

Bazar günü səhər tezdən,

(*Üzunü Aytəkə çevirərək*)

Haçan dağa çıxarkən sən,
Durnalarsa dəstə-dəstə
Uçacaqlar kəndin üstə.
Bir məna vardır hər işdə,
Söyləyirlər ki, keçmişdə
Uçub kənarilə dağın
Onlar göydə qanad çalır.
Ən çalışqan bir uşağın
Evi üstə lələk salır.
Baxan kimi Haçadağdan,
Görəcəksən sən uzaqdan
Hara düşür ağ lələklər,
Gümüş rəngli o çiçəklər.
Bax, Cunquşu onda, ay qız
Tapacağıq biz hamımız.
Bazar gününə üç gün var,
Dolaşmaz o çox uzaqda.
Hələ gəzin, ay uşaqlar,
Onu meşədə və dağda.
Yaxşı olar işin sonu.

Y e l t a y

(*Vəli babaya*)

Nə verərsən tapsam onu?

## ALTINCI ŞƏKİL

Meşə talası. Aytək və Yeltay oturub söhbət edirlər. Onlar Cunquşun kim olduğu haqda düşünürlər.

Y e l t a y

Aytək, Cunquş nə deməkdir?

A y t ə k

Yəni balaca bir uşaq.
Elə bil ki, o küləkdir;
Gəzdiyi yer meşə, çöl, bağ,
Dolaşaraq getsə hara,
Kömək edər insanlara.

Y e l t a y

Aha, onu tapdım aha!..
Hərdən olur o, əjdaha,
Su püskürdüb səhər çağı
Sulayır o bağça-bağı.

(*Aytəkin üzünə "puf, puf, puf, puf" edir, Aytək isə ondan uzaqlaşır. Yeltay birdən ayağa durub*)

Bəlkə o, sehirli quşdur,
Nağıllarda doğulmuşdur.

A y t ə k

Yox, o bir sehirli atdır,
Bunlar hamı zarafatdır.

Y e l t a y

(*təəccüblə*)

O yəqin pəhləvandır,

A y t ə k

Yox, balaca oğlandır...

Y e l t a y

Barmağımı kəsim mən,
Gecə Məlikməmməd tək
Yuxlamayım deyə, sən
Aytək, duz səp üstünə!
Görüm kim gəlir bağa,
Yubanma, dur ayağa!

(*Aytək ayağa qalxır. Yeltay əlini alnına qoyur, fikirləşir və birdən*)

Onu yəqin hər səhər,
Altında bir kəhər at
Qaş-daşlı qızıl yəhər,
Div yola salır bağa.
Mən gedirəm bu saat
O divlə dalaşmağa.

(*Yeltay əlindəki taxta qılıncını Aytəkə toxundurarq*)

Söylə görüm div hanı?
Bu saat çıxar canı!

A y t ə k
(*qorxmuş kimi*)

Yelli, eləmə elə.

Y e l t a y
(*hiddətli*)

Yelli yox, mən Yeltayam!
Qara, küləyə tayam.
Qalxıb ulduza, aya,
Endirim bu dünyaya.

Yeltay öz taxta qılıncını göydə oynadarkən, Aytək onu Yeltaydan alıb ağaca atır və qaçır. Yeltay papağını ağaca tullayaraq, taxta qılıncını yerə düşməsinə çalışır...Pərdə yavaş-yavaş enir.

## YEDDİNCİ ŞƏKİL

Yeltay meşəni dolaşarkən birdən bir Cunquş oğlana rast gəlir və onu səsləyir.

Y e l t a y

Ey, nə edirsən burda?
Rast gələrsən birdən qurda.

C u n q u ş

Məndən arxayın ol sən,
Qurddan mənim qorxum yoxdur,
Çiyələkçün gəlmişəm mən.

Y e l t a y

Bax, burda çiyələk çoxdur,
Bax, budur, budur çiyələk.

(*Tapıb öz ağzına atır*)

C u n q u ş

Sən neynirsən meşədə tək?

Y e l t a y

Deyirlər ki, bir oğlan var,
Cunquş boyda pəhləvan var.
Havada tutur quşu,
Axtarıram o Cunquşu.
Dəmirdəndir guya canı,
O, tutub gürzə ilanı
Ovcunda sıxıb, əzir.
Bəlkə o, lap burda gəzir?
Çünki görünməyir özü,
Dildən-dilə düşüb sözü.
Qollarilə dağ aşırır,
Deyirlər ki, sən boyda var.

C u n q u ş

Məncə, o lap iri olar,
Əjdahanın biri olar...
Çox gəzmişəm çölü, düzü,
Görməmişəm onu düzü.

Y e l t a y

Gəlsənə at minib çapaq,
O Cunquşu gəzək, tapaq.
Onu axtarmağa dəyər.
Biz Cunquşu tapsaq əgər,
Bağının ixtiyarını
Vəli baba verər bizə.
Heyvasını, al narını,
Daşıyarıq bizə, sizə.

C u n q u ş

Eh, nəyimə gərək onlar,
Bizim bağda çox meyvə var.
Yenə aşıb-daşır bahar,
Bağımızdan sabah, səhər
Toplayarıq alma, ərik.
Qıpqırmızı qızarıb nar,
Səbət gətir sən də apar.

Y e l t a y

Sağ ol, çox olsun payın,
Çıx get, başımdan yayın.

(*Cunquş Yeltaydan uzaqlaşır. Yeltay nə isə fikirləşib Cunquşun dalınca qaçır və onun yaxasından tutaraq*)

Aha, bəlkə Cunquş sənsən?

C u n q u ş

(*yaxasınıı onun əlindən qurtararaq, acıqlı bir halda*)

Cunquş nədir, mən Zəfərəm!
Sənin kimi bir nəfərəm.

Yeltay Cunquşdan uzaqlaşır. O bir gölün kənarında "qurr!" quruldayan qurbağaya rast gəlir.

Y e l t a y

(*qurbağaya müraciətlə*)

Bəlkə sən bilsən yaşıl qurbağa,
Səhərlər gizlicə kim girir bağa?

(*Qurbağa "qur-qur" quruldayıb, gölə tullanır.Yeltay öz-özünə*)

Qorxusundan əsə-əsə,
Necə qaçıb girdi gölə.

O, bir daş götürüb gölə tullayır. Göldəki qurbağalar hamısı bir ağızdan quruldamağa başlayırlar. Onlar sanki Yeltaya qarşı öz narazılıqlarını bildirirlər. Aytək əlində oraq çəmənə ot biçməyə gəlir.

A y t ə k

Bazar günü gəlib çatar,
Durna uçar qatar-qatar.
Göy üzündə süzə-süzə,
Baxar çölə, baxar düzə.
Bazar günü gəlib çatar,
Onlar göydən lələk salar.
Gedib qaça-qaça dağa,
Dırmaşaram Haçadağa.
Hansı evə düşsə lələk,
Oradadır Cunquş demək.

(*Aytək biçdiyi otu kisəyə doldura-doldura*)

Bu gün görüm hər işimi,
Doyuzdurum çəpişimi.
Hazır olsa yem sabaha,
Otlamağa qaçmaz daha.
Göy ot biçim taya-taya,
Çəpişimə günortaya.

O, dolu ot kisəsini dalına atıb yola düzəlir. Yolla ötən Yeltay Aytəki görüb ondan soruşur.

Y e l t a y

Sözüm var, dayan Aytək!
Cunquşdan nə xəbər var?

A y t ə k

Sabah soruşum görək
Nə deyəcək durnalar?

Y e l t a y

Qoşulum sənə mən də,
Səslə məni gedəndə.
Cunquşa görə səhər
Oyanaram bir təhər.

Onlar bir-birindən ayrılıb, hərəsi bir tərəfə gedir.

P ə r d ə

## SƏKKİZİNCİ ŞƏKİL

Aytək Haçadağın başındadır. O əllərini qaldıraraq durnalara səsləyir.

A y t ə k

A durnalar, bir oğlan var,
Bapbalaca pəhləvan var,
Lap az olar onun yaşı,
Qapqaradır gözü, qaşı,
Qara, qıvrım saçı vardır,
Dünyada ən işgüzardır.
O yaşayan evə çatın,
Araxçını güləbatın.
Bir oğlanın başı üstə,
Dövrə vurun dəstə-dəstə.
Göydən yerə salın lələk,
Haradadır Cunquş görək.
A durnalar, qanad çalın,
Lələk salın, lələk salın!

D u r n a b a ş ı

Evi üstə Cunquşların,
Lələk salsaq, biz quşların
Qollarında lələk qalmaz,
Heç kim göydə qanad çalmaz.
O ağıllı və işgüzar
Qoçaqlardan hər yerdə var.
Heç sayı-hesabı yoxdur.

A y t ə k

Ay öndəki durna quşu,
Tapmaq üçün o Cunquşu,
Bəs eləyər bircə lələk,
Sən at, sən at onu görək!

B i r i n c i   d u r n a

Lələk atsa hamı, biz də, –
Babamız da, nənəmiz də,

Bütün bizim aqrabamız,
Cunquşlara çatmaz, a qız!

İkinci durna

Cunquş orda, Cunquş burda,
O, köməkdir doğma yurda.

Üçüncü durna

Gəzsən Mildə, ya Muğanda,
Onu taparsan hər yanda.
Cunquş çoxdur sizin kənddə,
Qroznıda, Səmərqənddə.
Cunquşdan cürbəcür adda,
Lap doludur Peterburqda.
Ankarada, İstanbulda,
Aşqabadda və Bakıda

Birinci durna

Yerdə, dənizdə, havada,
Sofiyada, Moskvada.

İkinci durna

Sən axtarma hədər-hədər.
Cunquşdan var saysız qədər.
Bağçada, məktəbdə, yolda,
O yaşayır lap hər yanda.
Həm İranda, həm Turanda,
Qoymaz kimsə qalsın darda.

Birdən dağ ətəyindən Yeltayın səsi gəlir.

Yeltay

Bəlkə elə mən Cunquşam,
Lap böyrünüzdə durmuşam.

Birinci durna

Gərək dünyada hər kəsdən
İnsanlara dəysin xeyir.
Kim kənarda durub, qəsdən
“Nə verərsən mənə?” deyir,
Əli beldə gəzir qış-yaz,
O oğlandan Cunquş olmaz!

Yeltay
(*dağa sövkənərək öz-özünə*)

Durnabaşı doğru deyir,
İnsan gərək versin xeyir.

(*Sonra üzünü uşaqlara tutaraq*)

Cunquş çoxdur ölkəmizdə,
Cunquşsunuz yəqin siz də.
Dünyada qalmaram mən tək,
Mütləq Cunquş olam gərək!

Bu zaman Cunquş da gəlib çıxır. Cunquş, Yeltay və Aytək hamı bir yerdə Cunquşun “Mən sevirəm vətəni” mahnısını oxuyurlar. Birdən “qok-qok, qok-qok” səsi ucalır. Vəli baba öz sevimli xoruzu ilə gəlib bu şən nəğməyə qoşulur.

Pərdə

Son

# LƏPƏLƏRİN NAĞILI

İŞTİRAK EDİRLƏR:

Qulu
Mərcan
Dəniz qulduru
Quldurun atı
Xəbərçi qurbağa
Qulunun atası
Mərcanın anası
Su pəriləri
Balıqlar

Pərdə açılır. Musiqi. Su pəriləri dalğaların üstündə mahnı oxuyurlar.

Birinci Pəri

Dəniz qumlu sahilə,
Səhər atar özünü.
Gümüş ləpələriylə,
Yazar ürək sözünü.

İkinci Pəri

Yaxınlaşın dənizə,
Sudan gəlir xoş ətir.
Sizə həzin bir nağıl
Danışsın həzin-həzin.

Birinci Pəri

Dalğalar göy çəməndə
Quzulardı elə bil.
Dəniz ləpələrində
Nağılla dolar sahil.

Mahnı bitir.

B i r i n c i   P ə r i

Biri vardı, biri yox,
Bu dənizin dibində
Hər kipriyi iti ox;

İ k i n c i   P ə r i

Qanlı əli cibində
Dəniz qulduru vardı.
Axşamacan çapardı
Öz qırmızı atını.

Musiqi. D ə n i z   q u l d u r u atını çapa-çapa səhnəyə daxil olur.

D ə n i z   q u l d u r u

Dəniz qulduruyam mən,
Cin çıxır gözlərimdən.
Düşürlər pərən-pərən
Balıqlar nəriltimdən.

Gözüm düşüb Mərcana,
O nazənin canana.
Gərək yaxın günlərdə,
Elçi göndərəm ona.

Q u l d u r u n   a t ı

Suların hər qatında
Tutsa birdən acığı,
Rast gəldiyi balığı
Tutub çəkər dişinə,
Çıxıb gedər işinə.

D ə n i z   q u l d u r u

Əzaziləm necə də!
Hamı məndən bezardı.
Min balığa bir gündə
Ölüm hökmü yazaram.

Q u l d u r u n  a t ı

Yazar, bu, yazar, bu.

Musiqi. Səhnəyə X ə b ə r ç i  q u r b a ğ a daxil olur.

X ə b ə r ç i  q u r b a ğ a

Sənə salamlar olsun,
Ey dənizin sultanı.
Minib qızıl atına
Sən daima çapasan,
Bu əfsunkar dənizdə.
Baxıb şücaətinə
İftixar edək biz də.
Göz altına almışam,
Bu dənizdə hər nə var.
Gecə-gündüz güdürəm,
Neynəyirlər balıqlar?
Kiminlə görüşürlər?
Kiminlə danışırlar?
Niyə ağlayırlar?
Niyə gülüşürlər?

D ə n i z  q u l d u r u

Yaxşısı budur de görüm,
Neyləyir o nazənin Mərcan?

X ə b ə r ç i  q u r b a ğ a

Gözəlləşir anbaan,
Canlar alan pəridi,
Dənizin dilbəridir.
Amma ki, Qulu ilə
Görüşürlər xəlvəti.

D ə n i z  q u l d u r u

İkisinə də göz ol,
Gücləndir nəzarəti.

X ə b ə r ç i   q u r b a ğ a

Gecə-gündüz güdərəm,
Bir şey gördüm əlüstü
Sənə mən ərz edərəm.

(*Dəniz quldurų atını çapıb gedir*)

X ə b ə r ç i   q u r b a ğ a

Odur Quluyla Mərcan
Bura üzürlər, ay can!
Güdüm görüm neynirlər,
Sonra əlüstü xəbər verim
Cəsur Dəniz qulduruna.

Musiqi. Q u l u y l a  M ə r c a n üz-üzə gəlirlər.

Q u l u

Sən dənizin yavrususan,
Oylağındır mavi sular.
Sənin bircə xoş sözünlə
Dəniz coşar dalğalanar.

M ə r c a n

Sən dəniztək mehribansan,
Ləpələrin nəğməsisən.
Nə qədər ki, bu dəniz var,
Mən səninəm, sən mənimsən.

Q u l u

Mərcan, sulardan büllursan,
Sevən qəlbimdə bir nursan.
Gəl boynuna muncuq düzüm,
Dənizdən yığmışam özüm,
Mərcan, yavrum, nədir sözün?

M ə r c a n

Qulu, özün bilirsən,
Əhdimə sadiqəm mən.

Sənsiz bu mavi sular,
Zülmət olub qaralar.
Sənin eşqindi məni
Yaşadan bu dənizdə.

Q u l u

Onda izin ver şənlik
Qurulsun evimizdə,
Razısan?

M ə r c a n

Razıyam.

Səhnədən çıxırlar. Musiqi. X ə b ə r ç i  q u r b a ğ a  səhnəyə daxil olur.

X ə b ə r ç i  q u r b a ğ a

Maraqlıdır, çox maraqlıdır.
Demək Mərcanla Qulu,
Görüşürlər əməllicə.
Güdüm görüm olur necə
Bu işlərin sonu?
Sonra xəbərdar edim,
Cəsur Dəniz quldurunu.

Musiqi. X ə b ə r ç i  q u r b a ğ a  səhnədən çıxır. Səhnəyə Q u l u n u n  a t a s ı  daxil olur.

A t a

Dərya dibi dərindi,
Dərin sular sərindi.
Ömrümdən ötən illər,
Bəyaz ləpələrindir.

Q u l u  səhnəyə daxil olur.

Q u l u

Ata, niyə qəmlisən,
Sən nədən gileylisən?

A t a

Eh, bala, qocalmışam daha,
Gümanım yoxdu sabaha.
Qurban olum mən boyuna,
Rəva bilmə ki, toyuna
Atan həsrət qalsın sənin.

Q u l u

Ata, vardır bir nazənin
Pərilərin pərisidi,
Ləpələrin nəğməsidir.

A t a

Sevindirdin sən atanı,
Sevdiyin nazənini
Toy ilə, çal-çağırla,
Gedək gəlin gətirək,
Oğlum, toyun mübarək!
Şadlıq alsın hər yanı,
Su qızı, su oğlanı,
Geysinlər güllü-allı,
Getsinlər suda yallı.

Musiqi. B a l ı q l a r yallı gedir. Yallı bitir. Səhnə dəyişir. Səhnəyə X ə b ə r ç i q u r b a ğ a daxil olur.

X ə b ə r ç i q u r b a ğ a

İşlərimiz oldu zay,
Ey dənizlər qulduru.
Haray, haray, ay haray,
Tez bura çap atını.

D ə n i z q u l d u r u

Nə olub niyə banlayırsan sən bivaxt,
Xoruzsanmı, ay bədbəxt?

X ə b ə r ç i q u r b a ğ a

Çağırdım sizə verim xəbər,

Bu gün axşam toy edirlər
Qulu ilə Mərcan xanım,
Yandı canım, yandı canım.

D ə n i z   q u l d u r u

Mən indi bilərəm işimi,
Acığımdan çeynəyirəm
Mən dilimi-dodağımı.
Basaram ayağımı
Atımın üzəngisinə.
Çapıb hücum çəkərəm
Yosunlar məhləsinə.
Hücum! Hücum! Hücum!

Musiqi. Səhnə dəyişir. Toy səhnəsi. Səhnədə bütün Balıqlar rəqs edir və mahnı oxuyurlar.

B a l ı q l a r

Ay qız, kimin qızısan,
Almadan qırmızısan.
Atan-anan bəsləmiş,
Böyümüsən, bizimsən.

Al almağa gəlmişik,
Şal almağa gəlmişik
Oğlanın bacısıyam,
Aparmağa gəlmişik.

M ə r c a n ı n   a n a s ı

Əl çalın qızım oynasın,
Əl çalın arzum oynasın.
Topuğun güllər bürüsün,
Əl çalın gəlin oynasın.

Musiqi kəsilir. Səhnəyə D ə n i z   q u l d u r u əlində qılınc daxil olur, atını çaparaq Q u l u ilə M ə r c a n ı öldürüb səhnədən çıxır. Qəmgin musiqi. Q u l u ilə M ə r c a n ölümcül haldadır.

Q u l u

Qəddar ürəklərin xudbinliyindən
Sevənlər əbədi əziyyətdədir.
Sevgiylə qurtarar bu dünya kindən,
Sevin, nicatınız məhəbbətdədir.

M ə r c a n

Sevsəniz zülmətin sınar qüruru,
Sevin ki, eşqiniz qoy olsun duru.

Q u l u ilə M ə r c a n səhnədə heykələ çevrilir. Səhnədə S u p ə r i l ə r i peyda olurlar; Q u l u ilə M ə r c a n ı n heykəlini görüb tamaşaçılara söyləyirlər.

B i r i n c i P ə r i

Budur onların ulu
Sevgi heykəli vardır.
O, Mərcan, bu da Qulu,
Onlar çox bəxtiyardı.

İ k i n c i P ə r i

Onlar atıb dənizə,
Ləpələr ilə sizə
Göndərir sulu-sulu,
Rəngbərəng Mərcanqulu.

B i r i n c i P ə r i

Sevgiylə qurtarar bu dünya kindən,
Sevin, nicatınız məhəbbətdədir.

İ k i n c i P ə r i

Sevsəniz zülmətin sınar qüruru,
Sevin ki, eşqiniz qoy olsun duru.

S o n

# NİŞANLI QUŞ

*İki pərdəli pyes*

İŞTİRAK EDİRLƏR:

Qoca palıd
Külək
Çay
Bayquş
Ağacdələn
Birinci cüyür
İkinci cüyür
Birinci sərçə
İkinci sərçə
Cavan palıd ağacları və sairə meşə ağacları.

## BİRİNCİ PƏRDƏ

Bura ətirli, təravətli, gözəl bir meşədir. Çiçəklərin ətri aləmi bürüyüb. Quşların səhər nəğməsi ucalır. Onlar öz şən nəğmələri ilə insanlara xoş əhval bəxş edirlər. Meşədəki zümrüd rəngli gənc ağaclar arasında şaxlı-budaqlı bir Qoca palıd var. O, səhər şehini budaqlarından silkələyərək ətraf ağaclara baxır, öz fəryadlı nəğməsi ilə quşların səsini batırır.

Palıdın nəğməsi:

Mən palıdam, yüzdən artıqdır yaşım,
Tufanlara əyilməyibdir başım.
Göy gurlasın! Neyləyə bilər mənə?
Rişələrim uzanıb lap çəmənə.

Nəqarət:

Bir budağım quruyur birdən-birə,
Qorxuram ki, o məni vursun yerə.

Biz palıdlar həm möhkəm, həm ucayıq,
Bizdən yaranıbdır sualtı qayıq,
Uzaq səfərlərə çıxan hər qatar.
Palıd insanlara köməyə çatar.

N ə q a r ə t :

Bir budağım quruyur birdən-birə,
Qorxuram ki, o məni vursun yerə.

Birdən meşədə vıyıltı eşidilir. Bu küləkdir. O, meşəyə daxil olur. Əlindəki gümüşü böyük yelpazə ilə ağacların üzünü yelləyə-yelləyə gəlib Palıda yaxınlaşır, onun üzünə baxaraq deyir.

K ü l ə k

Salam!
Palıd, dinməyirsən niyə belə?
Uzat yaşıl qollarını ver yelə...

P a l ı d

Külək, əziz dostum, mənim sirdaşım,
Üç gündür fikirdən ağarıb başım.
Bax, budağım quruyur birdən-birə,
Qorxuram ki, o məni vursun yerə.
Yıxılıram dura bilmirəm, dura!
Küləkləri köməyə çağır bura.

K ü l ə k

Külək sənə neyləyəcək, əzizim?
Axı bu, işimiz deyildir bizim.

P a l ı d

(*Külək əlindəki yelpazəni yellədə-yellədə getməyə hazırlaşarkən ona*)

Hara gedirsən, bəs dostluğun hanı?

K ü l ə k

Gedirəm işləsin yeldəyirmanı,
İtələyim yelkənli gəmiləri.

P a l ı d

Getmə, getmə, gəl bəri,
Kömək elə, pozulubdur səhhətim.

K ü l ə k

Mən getdim, bağışla, çatmaz qüvvətim.
Vuuu, vuuu, vuuu...

Vuyuldaya-vuyuldaya uçaraq gözdən itir. Meşədə incə bir zümzümə eşidilir. Ç a y şirin bir nəğmə oxuyur.

Ç a y ı n n ə ğ m ə s i:

Dağdan axan Çayam mən,
Şəlaləyə tayam mən.
Suyum sərin, buz kimi,
Parlaram ulduz kimi.

(*Çay şırıltı ilə palıdın yanından ötür*)

P a l ı d

(*Çaya*)

Sabahın xeyir, ay büllur çayımız,
Günəş kimi telləri nur çayımız.

Ç a y

Salam! Nə var, nə yox ağaclar şahı?

P a l ı d

(*Çaya müraciətlə*)

Mən Palıdın bir sənədir pənahı!

Ç a y

Söylə görüm, axı nə olub sənə?

P a l ı d

Necə deyim... yazığın gəlsin mənə,
Əzizim, Çay, bir budağım quruyur,
Ürəyimi qara qorxu bürüyür.
Əsən küləyə də söylədim bayaq,
Hara tələsirsən bir saxla ayaq.

Ç a y

Bəs sənə nə dedi o əsən Külək?

P a l ı d

Dedi: – Mənə eləyə bilməz kömək.
Odur, indi sənə ümidim qalıb,
Qal yanımda, ömrüm mənim qısalıb.

Ç a y

Pahooo... sən nə danışırsan, qardaşım,
Mənim işə-gücə qarışıb başım.
Mən axıram göy tarlalar boyunca,
Əkinçilər sudan içsin doyunca.

P a l ı d

Unutma! Faydalı ağacam mən də!

Ç a y

Əyil, sərin suyumdan iç sən də!

P a l ı d

(*budaqlarını sallayır, Çay şırıltı ilə Palıdın gövdəsinə toxunub, onu içirdir və öz işinə gedir. Çayın şırıltısı meşəni bürüyür. Qoca palıd axan çayın ardınca baxa-baxa öz-özünə*)

Eh... qoy getsin! Nə demək olar?
Su aparır, onsuz ağaclar solar.
Susuz həyat olmaz axı dünyada,
Sağ olsun ki, məni də salır yada.

Budağımı sağalda bilməz bu Çay,
İşi çoxdur, o yüyürür qış və yay.

Çayın şırıltısı tədricən kəsilir. Talada gülüş səsi eşidilir. İki qardaş Cüyür mələyə-mələyə gəlib, Palıdın yaxınlığında dururlar.

Birinci cüyür

Ona bax, palıdın budağı solub,
Gəl soruşaq görək ona nə olub?

İkinci cüyür

Sən soruş, mən qaçım, salamat başım,
Anam qoymur azarlıya yanaşım.

Birinci cüyür

Dünən ot yedin palıdın dibindən,
İcazə də almadan sahibindən.

İkinci cüyür

Nə olsun! Ot çox böyük şeydir məgər?

Birinci cüyür

Yavaş yüyür, ayağın daşa dəyər.

İkinci cüyür

Qaçaq burdan, az qalıb axşama,
Gedək xəbər verək Söyüdə, Şama.

Birinci cüyür

Sən get, sən get, mən ardınca gələrəm.

(*Palıda yaxınlaşır "Məə, məə..." deyib, onu salamlayır*)

Salam palıd! Qulluğun nədir mənə?

P a l ı d

Lap çılpaqsan qaç, soyuq dəyər sənə.
Cüyürüm, öz vaxtı var
Meşədə əyləncənin.
Rastına düşmək olar
Burda əyripəncənin.

B i r i n c i   c ü y ü r

Qorxum yoxdur, bir qulluq buyur mənə,
İstəyirəm köməyim dəysin sənə.

P a l ı d

Sən körpəsən, çatmaz buna qüvvətin,
Mənim işim çətin düzələr, çətin!..

B i r i n c i   c ü y ü r

Bəs kimi çağırım gəlsin yanına?

P a l ı d

Heç kimi, sən yüyür axşamlar daha.

B i r i n c i   c ü y ü r

Qoy təbiət qüvvət versin canına,
Gecə ötsün, salamat çıx sabaha.

(*Cüyür qaça-qaça arabir dönüb Palıda və onun solan budağına baxır və dağlara doğru üz qoyur*)

P a l ı d

(*təəssüflə*)

Get! Sənə yaxşı yol, bala...

P ə r d ə

## İKİNCİ PƏRDƏ

Meşəyə axşam qaranlığı çöküb. Axşama məxsus nəğmə səsi eşidilir.

A p a r ı c ı

Axşam oldu yuxusu var çiçəklərin,
Alabəzək böcəklərin.
Axşam oldu mürgüləyir ağaclar da,
Meşələr də, yamaclar da.
Bir Palıddır səhərəcən oyaq qalan,
Dərin-dərin fikrə dalan.

Musiqi bitəndən sonra, Palıd sakit-sakit ətrafa baxır, birdən Bayquşun səsini eşidir: "Qıyy... qıyy... qıyy... qıyy..." Elə bil Bayquş Qoca palıdın xəstələndiyini ətrafa xəbər verirdi. Bu səsi eşidən Körpə palıd ağacları təşvişə düşür və meşəyə səs-küy salırlar:"Şşş-şşş, şşş-şşş..." Onların səsinə Bayquşun səsi qarışır: "Qıyy-qıyy"...

P a l ı d

(*Bayquşa*)

Ay Bayquş, nə var, nə yox,
Səsin bərkdən çıxdı çox.
Söylə necədir işin,
Əziz kirayənişin?

B a y q u ş

Yaşayıram gövdənlə xoşbəxt pulsuz, parasız,
İndi başqa ağaca köçüm gərək çarasız.

P a l ı d

Sən gündüzlər yatırsan şirin-şirin,
Hardan oldu bu işlərdən xəbərin,
Hardan bildin yarpaqlarım quruyub?

B a y q u ş

Bala cüyürün səsi, hər tərəfi bürüyüb.
Eşitdim gecə, anasına danışan zaman.
O balaca cüyür də səni çox sevir yaman.

P a l ı d

Sən pəhləvan kimi qoçaq bir quşsan.
Xilas eylə, niyə bekar durmuşsan?
Sən ki, dünən özünü daş kimi yerə atdın,
Siçovulu rişəmdə caynağınla qanatdın.
Bayquş, kömək əlini dostun Palıda çatdır!

B a y q u ş

Niyə solur budağın, rişən sağ-salamatdır,
Qorxudan siçovullar bir rişənə daraşmaz.
Palıd, sən mərd ağacsan, sənə azar yaraşmaz.

(*Təəssüflə*)

Mən nə edə bilərəm, budur əlimdən gələn,
Səhər açılsın, görək nə deyir Ağacdələn?

(*Bayquş qıyy vurub, qonşu ağaca qonur və zümzümə edir*)

B a y q u ş u n  n ə ğ m ə s i :

Mən Bayquşam, hər gözüm bir lalədir,
Elə bil ki, qırmızı piyalədir.
Dimdiyim oxşayır iti qarmağa,
Sakit-sakit uçuram sola-sağa.

N ə q a r ə t :

Dolaşıram meşəni,
Üz-gözüm çopur-çopur.
Quşlar görəndə məni
Lap ürəkləri qopur.

Mən bayquşam, gecələrin hakimi,
Uzağa uçmuram bir qartal kimi.
Göydən baxıb görməmişəm aləmi,
Lap yaxından yığıram azuqəmi.

N ə q a r ə t :

Dolaşıram meşəni,
Üz-gözüm çopur-çopur.

Quşlar görəndə məni,
Lap ürəkləri qopur.

Bayquşun nəğməsi bitən kimi, ağaclardakı quşlar oyanıb təşvişə düşürlər. Bir-birinə xəbər verirlər ki, ayıq olsunlar, Bayquş lap yaxındadır.

Birinci sərçə

Bayquş uçur gözünü yuma-yuma,
Bu saat keçəcək bizə hücuma.

İkinci sərçə

Bayquş bu gün lap ertədən oyanıb,
Ona bax, gözü də qana boyanıb.

Birinci sərçə

Burnuna bax, lap qarmaqdır elə bil.

İkinci sərçə

Çox danışma! Qapı–bacaya vur qıfıl.

Bayquş bu ağacdan o biri ağaca qıyy vura-vura uçur. "Qıyy, qıyy, qıyy, qıyy". Bir azdan sübh nəğməsilə səhər açılır, ağaclarda quşların cik-ciki bir-birinə qarışır. Arabir gözəl səsli bülbüllər də cəh-cəh ilə səhəri salamlayırlar. Meşəyə incə bir işıq düşür. Səhər açılmağa başlayır, ahəstə-ahəstə səhər nəğməsi eşidilir.

Səhər nəğməsi:

Xoş gəlir səhərin ilıq nəfəsi,
Cəh-cəh, cəh-cəh vuran quşların səsi.
Bu səhər şən nəğmələrlə açılır,
Günəş çıxır, aləmə nur saçılır.

Palıd

(*qollarını yuxarı qaldıraraq yerə endirib*)

Gözlədim açıldı səhər nəhayət,
Nə gözəldir günəş dolu təbiət.

Birdən meşənin dərinliyindən "tıq-tıq" səsi eşidilir. Bu səs Ağacdələnin səsidir. O, ünəşi yuxudan oyadıb, onunla birlikdə işə başlamışdır. Ağacdələn "tıq-tıq"edərək dimdiyilə ağaclarda iş aparır. Palıd onun səsini eşidib şad olur.

P a l ı d

“Tıq-tıq” edən Ağacdələn özüdür,
“Tıq-tıq” sözü ancaq onun sözüdür.
Deməkk Ağacdələn başlayıb işə,
Mənim də ürəyim düşdü təşvişə.
Qoy bizim tərəfə bir gəlsin görək,
Mənim budağıma o, nə deyəcək?
Çağırsam, uzaqdadır çatmaz səsim,
Özü gəlib çıxar, niyə tələsim.

A p a r ı c ı

“Tıq-tıq, tıq-tıq, tıq-tıq...” səs sala-sala
Ağacdələn çoxlu budaqlar aşdı,
Axır gəlib düz Palıda yanaşdı.
O, al ləçəkli bir quşa baxın siz,
O başladı işə sözsüz-söhbətsiz.
“Tıq-tıq, tıq-tıq...”
Bir günəşmi çıxdı Palıd başında?
Palıd şaqqıldadı qoca yaşında:
“Xa... xa... xa... xa...”

A p a r ı c ı

Qanadı yox idi onun uçmağa,
Ağacdələn qonub solan budağa
Təmizlədi zərərli həşəratı,
Şəfəqləndi, bax, Palıdın həyatı.

P a l ı d

(*üzünü Ağacdələnə çevirib, sevinclə*)

Mən belə bir qoçaq bilməzdim səni,
Sən bu xəstəlikdən qurtardın məni.
Yarpaqlarım göyərdi atlas kimi,
Sən bu gündən oldun meşə həkimi.

(*Yarpaqlarını sevinclə bir-birinə vuraraq*)

“Şşş-şşş, şşş-şşş...”
Ağacdələn, gəl səni alqışlayım,
Budağımdan bir yarpaq bağışlayım.
Gəl yanıma, onu döşünə taxım,
Uç görüm mən sənin ardınca baxım.

A p a r ı c ı

Palıd Ağacdələnin döşünə göy yarpağını taxır. O vaxtdan Ağacdələnin döşü gömgöydür. Ağacdələn uçub gedir. Uzaq taladan onun yenə də səsi gəlir: “Tıq-tıq, tıq-tıq...” Ağacdələn işləyir.

Şadlıq oldu meşədə, o gün axşama kimi,
Sağ olsun Ağacdələn – əziz meşə həkimi.
Ağacdələn həkimdir, məşhurdur bu peşədə,
Ağaclar əzizləyib onu sevir meşədə.
Ağacdələn quşunun şöhrəti var, şanı var,
Palıdın yarpağından döşündə nişanı var.

Aparıcı səhnəyə çıxır, təbəssümlə uşaqlara baxaraq deyir.

Ağacdələn quşu, Palıdı xəstəlikdən xilas etdiyi üçün, öz zəhmətinin əvəzində aldığı yarpaqdan döşü yamyaşıl rəngdə olub. Həmin gündən Ağacdələn quşunun döşü yaşıl atlas yarpaq nişanı ilə bütün quşlardan seçilir. Uşaqlar, ağacdələn quşunun şərəfinə gəlin bir yerdə mahnı oxuyaq.

Ağacdələn, ağacdələn,
Kara gələn, kara gələn
Şöhrətli quş, şanlı quş,
Ağacdələn nişanlı quş.

Musiqi səslənir.

P ə r d ə

S o n

# KİTABDAKILAR

## PYESLƏR

Dovşanın ad günü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .5
Aycan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .49
Gözəllər gözəli . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .122
Kənd həkimi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .144
Cunquş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .198
Ləpələrin nağılı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .220
Nişanlı quş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .228

**Xanımana Əlibəyli**
Əsərləri
II cild

| | |
|---|---|
| Buraxılışa məsul | ***Vaqif Bəhmənli*** |
| Redaktor | ***Umud Rəhimoğlu*** |
| Texniki redaktor | ***Mübariz Piri*** |
| Kompyuter səhifələyicisi | ***Samir Məhərrəmli*** |
| Kompyuter operatorları | ***Asifə Əfəndi***<br>***Maral Rəisqızı*** |
| Korrektor | ***Tofiq Qaraqaya*** |

"Avrasiya press" nəşriyyatı
Bakı, Mehdi Hüseyn küçəsi 1[a]
Tel: (994 12) 439 76 97

Yığılmağa verilmişdir 05.10.07 Çapa imzalanmışdır ------
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 15. Ofset çap üsulu.
Tirajı 1000. Sifariş __.

*Kitab "E.L." Nəşriyyat və Poliqrafiya*
*mətbəəsində çap olunmuşdur.*